# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ

# AZERBAIJAN STATE UNIVERSITY OF ECONOMICS SCIENTIFIC REVIEWS

ELMİ, RESENZİYALI, RÜBLÜK/ SCIENTIFIC, REFEREED, QUARTERLY

İl: 8, Cild 8, iyul-sentyabr 2020
Year 8, Volume 8, July-September 2020

ISSN 2306-8426

MÜNDƏRİCAT - CONTENT

Rəqəmsallaşma iqtisadi inkişafın strateji istiqaməti kimi...............................M.M.Sadıqov, R.Ə.Balayev

İnvestisiyadan gəlirlərin və borc kapitalından istifadənin vergi aspektləri.........B.S.Əhmədov

Виды деятельности, имеющие отношение к инновациям…......Ф. З. Мехди

Features and directıons of improvement of state support mechanisms for exports in the post-crisis period……………………………….....G. N. Gafarli

Maliyyə təhlilinin müasir metodikaları………………………..........E.C.Zeynallı

Əmək resurslarının beynəlxalq mobilliyinin tənzimlənməsinin təşkilati-metodoloji əsasları və əmək miqrasiyasının ölkənin iqtisadi inkişafına təsirinin qiymətləndirilməsi göstəriciləri………………........................…E.İ.Hüseynova

Теоретико-методологические принципы исследования проблем обеспечения экономической безопасности страны……….Ф. Ф. Шамилов

Öhdəliklərin yaranmasi, dəyişilməsi və tanınmasının dayandırılmasının mühasibat uçotunda əks etdirilməsi metodikası………………....G.İ.Əkbərova

Koronavirus (Covid-19) pandemiyasının Azərbaycanda sahibkarlığa təsiri………………………………………….N.N.Məmmədova[1], T.N.Nəriman

Kənd təsərrüfatında istehlak məhsulları bazarının inkişaf perspektivləri.........................F.V.Süleymanov

www.unec.edu.az

| Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) | |
|---|---|
| **İl 8, Cild 8, iyul-sentyabr 2020** | |
| www.unec.edu.az | ISSN 2306-8426 |
| Nəşr edən təşkilat: | Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) |
| Baş redaktor: | i.e.d., prof. Ə.C.Muradov |
| Baş redaktorun müavini: | i.e.d., prof. Y.H.Həsənli |
| Məsul icraçı: | i.e.n., dos. N.Ö.Hacıyev |
| Jurnalın adı: | Azərbaycan Dövlət İqtisad Universitetinin elmi xəbərləri |
| Jurnalın növü: | Dövri |
| Dövriliyi və dili: | Rüblük, azərbaycan, ingilis, rus |
| Hüquqi ünvanı: | AZ 1001, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Tel: (+994 12) 4927870,Fax: (+994 12) 4925940 |
| Mətbəə: | AZ 1001, Bakı, Azərbaycan Respublikası, İstiqlaliyyət 6, otaq 30, Tel:(+994 12) 4925337; Fax: (+994 12) 4926509 |
| Çap yeri və tarixi: | Bakı, Azərbaycan Respublikası, 20.12.2020 |



| **Redaksiya heyəti** | |
|---|---|
| i.e.d., prof. A.Ş.Şəkərəliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Ə.Q.Əlirzayev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Q.N.Manafov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Ə.P.Babayev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. R.R.Quliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. S.M.Yaqubov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. M.A.Əhmədov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. S.M.Səbzəliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. F.P.Rəhmanov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. H.S.Həsənov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Z.F.Məmmədov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. E.Y.Məmmədov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Y.A.Kəlbiyev | Azərbaycan Dövlət İqtisad Universiteti |


Bu jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas nəticələrinin dərc olunmasını tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır.

This journal is in the list of scientific periodicals of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan in which the publication of main results of theses is recommended.

Этот журнал находится в списке научных периодических изданий, рекомендованных Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики для публикации основных результатов диссертаций.

| Mündəricat - Contents | Səh./Pp. |
|---|---|
| Rəqəmsallaşma iqtisadi inkişafın strateji istiqaməti kimi ……...................................................................*M.M.Sadıqov, R.Ə.Balayev* | 5-13 |
| İnvestisiyadan gəlirlərin və borc kapitalından istifadənin vergi aspektləri ……………………………………………………………….*B.S.Əhmədov* | 14-27 |
| Виды деятельности, имеющие отношение к инновациям……*Ф. З. Мехди* | 28-39 |
| Features and directıons of improvement of state support mechanisms for exports in the post-crisis period…………………………………*G. N. Gafarli* | 40-56 |
| Maliyyə təhlilinin müasir metodikaları…………………………*E.C.Zeynallı* | 57-70 |
| Əmək resurslarının beynəlxalq mobilliyinin tənzimlənməsinin təşkilati-metodoloji əsasları və əmək miqrasiyasının ölkənin iqtisadi inkişafına təsirinin qiymətləndirilməsi göstəriciləri………………………………..*E.İ.Hüseynova* | 71-90 |
| Теоретико-методологические принципы исследования проблем обеспечения экономической безопасности страны……………..*Ф. Ф. Шамилов* | 91-101 |
| Öhdəliklərin yaranmasi, dəyişilməsi və tanınmasının dayandırılmasının mühasibat uçotunda əks etdirilməsi metodikası…………………...*G.İ.Əkbərova* | 102-112 |
| Koronavirus (Covid-19) pandemiyasının Azərbaycanda sahibkarlığa təsiri ……………………………………………*N.N.Məmmədova*[1], *T.N.Nəriman* | 113-127 |
| Kənd təsərrüfatında istehlak məhsulları bazarının inkişaf perspektivləri ..........................................................................................*F.V.Süleymanov* | 128-142 |

| Scientific, Refereed, Quarterly | |
|---|---|
| Azerbaijan State University of Economics (UNEC) | |
| Year 8, Volume 8, July-September 2020 | |
| www.unec.edu.az | ISSN 2306-8426 |
| Publisher: | Azerbaijan State University of Economics (UNEC) |
| Editor-in-chief: | prof., Dr. A. J. Muradov |
| Deputy editor-in-chief: | prof., Dr. Y. H. Hasanli |
| Managing Editor: | associate prof., PhD., N. O. Hajiyev |
| Title Juornal: | Scientific reviews of Azerbaijan State University of Economics |
| Type of Journal: | Periodical |
| Time Period and Language: | Quarterly, Azerbaijani, English, Russian |
| Directorial Address: | AZ 1001, Baku, Azerbaijan Republic, Istiglaliyyat st. 6, room 424, Tel:(+994 12) 4927870 Fax: (+994) 4 92 59 40 |
| Printing House: | AZ 1001, Baku, Azerbaijan Republic, Istiglaliyyat st. 6, room 30, Tel:(+994 12) 4 92 53 37 Fax: (+994 12) 4 92 65 09 |
| Place and Date of Print: | Baku, Azerbaijan Republic, 20.12.2020 |

| Editorial Board | |
|---|---|
| dr., prof. A. Sh. Shakaraliyev | Azerbaijan State University of Economics |
| dr., prof. A. G. Alirzayev | Azerbaijan State University of Economics |
| dr., prof. G. N. Manafov | Azerbaijan State University of Economics |
| dr., prof. A. P. Babayev | Azerbaijan State University of Economics |
| dr., prof. R. R. Guliyev | Azerbaijan State University of Economics |
| dr., prof. S. M. Yagubov | Azerbaijan State University of Economics |
| dr., prof. M. A. Ahmadov | Azerbaijan State University of Economics |
| dr., prof. S. M. Sabzaliyev | Azerbaijan State University of Economics |
| dr., prof. F. P. Rahmanov | Azerbaijan State University of Economics |
| dr., prof. H. S. Hasanov | Azerbaijan State University of Economics |
| dr., prof. Z. F. Mammadov | Azerbaijan State University of Economics |
| dr., prof. E. Y. Mammadov | Azerbaijan State University of Economics |
| dr., prof. Y. A. Kalbiyev | Azerbaijan State University of Economics |

# RƏQƏMSALLAŞMA İQTİSADİ İNKİŞAFIN STRATEJİ İSTİQAMƏTİ KİMİ

*Daxil olub: 24 sentyabr 2020-ci il;*
*Qəbul olunub: 21 oktyabr 2020-ci il*
*Received: 24 September 2020;*
*Accepted: 21 October 2020*

***M.M.Sadıqov[1], R.Ə.Balayev[2]***
[1]*i.e.d., prof.,* Strateji inkişaf üzrə prorektoru, *UNEC*
[2]*i.e.d., prof., "Rəqəmsal iqtisadiyyat və İKT" kafedrası, UNEC*
[1]*mirdamads@icloud.com;*
[2]*rasul.balayev@unec.edu.az*

## Xülasə
Tədqiqatın əsas məqsədi rəqəmsal mühitdə iqtisadi inkişafın təmin edilməsi imkanlarının aşkar edilməsi, rəqəmsallaşmanın strateji rolunun müəyyən edilməsidir. Tədqiqat işi müqayisəli təhlil və məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatda rəqəmsal mühitdə iqtisadi inkişafın əsas amilləri kompleks surətdə araşdırılmışdır. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsində rəqəmsal texnologiyaların yeri və rolu tədqiq olunmuşdur. Tədqiqat nəticəsində rəqəmsal mühitdə iqtisadi inkişafın xüsusiyyətləri təhlil edilmiş, bu mühitin üstünlüklərindən istifadənin perspektivli olduğu müəyyən edilmişdir. Tədqiqatın məhdudiyyətləri daha dolğun və detallaşdırılmış verilənlərin tələb olunmasıdır. Tədqiqatın praktiki əhəmiyyəti Azərbaycan iqtisadiyyatının inkişafında rəqəmsallaşmanın strateji istiqamət kimi reallaşması prosesində, xərclərin azaldılması və rəqabət qabiliyyətinin yüksəldilməsi, sosial tərəqqinin sürətləndirilməsi üzrə təkliflərin tətbiqidir.

***Açar sözlər:*** *Rəqəmsallaşma, iqtisadiyyat, strateji istiqamət, transaksiya xərcləri, dayanıqlıq, rəqabət, prioritetlər, informasiya.*

## ЦИФРОВИЗАЦИЯ КАК СТРАТЕГИЧЕСКОЕ НАПРАВЛЕНИЕ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ

***М. М. Садыгов[1], Р. А. Балаев[2]***
[1]*д.э.н., проф., проректор по стратегическому развитию, UNEC*
[2]*д.э.н., проф., кафедра «Цифровая экономика и ИКТ», UNEC*
[1]*mirdamads@icloud.com*, [2]*rasul.balayev@unec.edu.az*

## Резюме
Основная цель исследования - выявить возможности экономического развития в цифровой среде, определить стратегическую роль цифровизации. В основе исследования лежали такие исследовательские методы, как сравнительный анализ и логическое обобщение. В исследовании всесторонне исследуются ключевые факторы экономического развития в цифровой среде. Исследованы место

и роль цифровых технологий в повышении конкурентоспособности национальной экономики. В результате исследования были проанализированы особенности экономического развития в цифровой среде и определена перспективность использования преимуществ этой среды. Ограничения исследования заключаются в необходимости получения более полных и подробных данных. Практическая значимость исследования заключается в реализации предложений по снижению затрат и повышению конкурентоспособности, ускорению социального прогресса в процессе реализации цифровизации как стратегического направления в развитии экономики Азербайджана.

***Ключевые слова:*** *Цифровизация, экономика, стратегическое направление, трансакционные издержки, устойчивость, конкуренция, приоритеты, информация.*

## DIGITALIZATION AS A STRATEGIC DIRECTION FOR ECONOMIC DEVELOPMENT

***M. M. Sadigov[1], R. A. Balayev[2],***
*[1]Dr., prof., vice rector for strategic development, UNEC*
*[2]Dr., prof., Department "Digital Economy and ICT", UNEC*
*[1]mirdamads@icloud.com; [2]rasul.balayev@unec.edu.az*

**Summary**
The main goal of the study is to identify the opportunities for economic development in the digital environment, to determine the strategic role of digitalization. Research methods such as comparative analysis and logical generalization were at the heart of the study. The study comprehensively explores the key factors of economic development in the digital environment. The place and role of digital technologies in increasing the competitiveness of the national economy have been investigated. As a result of the study, the peculiarities of economic development in the digital environment were analyzed and the prospects for taking advantage of this environment were determined. The limitations of the study are the need for more complete and detailed data. The practical significance of the study lies in the implementation of proposals to reduce costs and increase competitiveness, to accelerate social progress in the process of implementing digitalization as a strategic direction in the development of the economy of Azerbaijan.

***Keywords:*** *Digitalization, economics, strategic direction, transaction costs, sustainability, competition, priorities, information.*

## Giriş

XXI əsrin çağırışları rəqəmsallaşma amilindən istifadənin yüksək səmərəsini tələb edir. Rəqəmsallaşmanı iqtisadi inkişafın strateji istiqaməti kimi qəbul edən qabaqcıl ölkələr bu amildən mühüm üstünlüklər əldə edir. Odur ki, dinamik inkişaf edən Azərbaycan iqtisadiyyatında rəqəmsallaşmanın üstünlüklərinin reallaşdırılması obyektiv zərurətdir. Bu məqsədlə müvafiq elmi təminat gücləndirilməlidir. Təqdim edilən məqalə rəqəmsallaşma şəraitində dinamik və dayanıqlı iqtisadi inkişafın təmin edilməsi imkanlarının aşkar edilməsi, habelə rəqəmsallaşmanın strateji rolunun əsaslandırılması məsələlərinə həsr olunmuşdur.

## Rəqəmsallaşma iqtisadi inkişaf strategiyasının prioritetidir

Azərbaycan iqtisadiyyatının dinamik və dayanıqlı inkişafı ona minilliyin çağırışlarına vaxtında və layiqli reaksiya vermək imkanı yaradır. Milli iqtisadiyyatın innovasiyalara açıqlığının təmin edilməsi, bütün sahələrdə innovasiya fəallığının təşviq olunması, inkişaf imkanlarının reallaşdırılması prosesində vətəndaşın daim öndə olması dövlətimizin sosial-iqtisadi inkişaf strategiyasının mühüm istiqamətləridir. Müasir dövrdə innovasiyalı fəaliyyətlərin zəruri atributu olan rəqəmsal texnologiyalardan fəal istifadə iqtisadi inkişafın və sosial tərəqqinin mühüm iqtiqamətidir. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin formalaşması və dayanıqlı inkişaf məqsədlərinə nail olunması üçün sistemli və davamlı tədbirlər həyata keçirilir. Ölkə başçısının 2003-cü il 17 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003 - 2012)" (1) və onun icrası ilə bağlı qəbul olunmuş dövlət proqramlarının həyata keçirilməsi nəticəsində sosial və iqtisadi sahələrdə informasiya texnologiyalarından istifadə səviyyəsi artmışdır. Azərbaycanda elektron xidmətlərin çeşidi dəfələrlə genişlənmiş, "elektron hökumət" üzrə layihələr uğurla həyata keçirilməkdədir.

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016 – 2020-ci illər üçün Dövlət Proqramı" (2) uğurla həyata keçirilir. Proqramın icrası sayəsində dayanıqlı inkişaf məqsədləri baxımından xüsusi əhəmiyyətə malik aşağıdakı nəticələrin əldə edilməsi nəzərdə tutulur: kosmik, nano və nüvə texnologiyaları, biotexnologiya, elektronika və yeni informasiya texnologiyaları üzrə elmi tədqiqatlar və onların nəticələrinin tətbiqinin genişləndirilməsi; yüksək texnologiyalar sektorunda rəqabət qabiliyyətli, ixracyönlü və innovativ iqtisadi potensialın gücləndirilməsi; distant təhsil, elektron elm, elektron ticarət, telesəhiyyə və digər fəaliyyət formalarının tətbiqinin genişləndirilməsi və i.a. Kosmik ölkələr sırasına qoşulmuş Azərbaycanda informasiya cəmiyyətinin potensialının dayanıqlı inkişaf məqsədləri baxımından istifadə imkanları artmışdır. Respublikada informasiya cəmiyyətinin formalaşdırılması sahəsində həyata keçirilən tədbirlər öz

müsbət nəticəsini verir. Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqının "İnformasiya cəmiyyətinin ölçülməsi" hesabatlarında inkişafın tempinə görə dünya dövlətləri sırasında ilk onluğa daxil edilmişdir.

Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün iqtisadi, sosial, habelə institusional nöqteyi-nəzərindən hərtərəfli yanaşmaya ehtiyac vardır. Odur ki, Azərbaycan Respublikasının Prezidenti 2030-cu ilədək dayanıqlı inkişaf baxımından gündəlikdə nəzərdə tutulan öhdəliklərlə əlaqədar dövlət strukturlarının üzərinə düşən bütün vəzifələrin icrasını əlaqələndirmək məqsədi ilə "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" Fərman (3) imzalamışdır. Bu fərmanın icrası üçün həyata keçirilən tədbirlər sırasında Birləşmiş Millətlər Təşkilatının 2030-cu ilədək nəzərdə tutulan Dayanıqlı İnkişaf Gündəliyində nəzərdə tutulan tədbirlər Azərbaycanda uğurla həyata keçirilir. Azərbaycanın qeyri-neft sektorunun yüksək inkişaf tempini dəstəkləməklə, ixrac imkanlarını genişləndirmək və rəqabət qabiliyyətini yüksəltmək, elektron ticarətin hüquqi və infrastruktur bazasını beynəlxalq tələblərə uyğunlaşdırmaq, regional əhəmiyyətli rəqəmsal ticarət qovşağı kimi Azərbaycan Respublikasının aparıcı mövqeyini bu əsasda daha da gücləndirmək məqsədilə mühüm işlər görülür. Artıq rəqəmsallaşma ölkə iqtisadiyyatının bir çox sahələrində səmərəli fəaliyyəti şərtləndirən mühüm amilə çevrilmişdir.

Rəqəmsallaşmanın sosial-iqtisadi inkişafın strateji istiqaməti roluna iddia etdiyi müasir dövrdə qolballaşma və dövlət münasibətlərinə diqqət artır. Bu baxımdan, aşağıdakı fikirlə razılaşmamaq çətindir - "Rəqəmsal iqtisadiyyat dövlətin iştirakı olmadan mümkün deyildir. Kommersiya şirkətləri faydasını başa düşərək özünün rəqəmsallaşması prosesinə başlayır, dövlət idarələrində isə vəziyyət başqadır, belə ki, burada dövlətin təşəbbüsü və qanunvericiliyin dəyişdirilməsi zəruridir" (4, s. 144).

Ölkəmizdə formalaşmış sivil bazar münasibətləri işgüzar fəallığı artırır və iqtisadi fəaliyyətin elmi əsaslarla təşkili zərurətini gündəliyə çıxarır. İqtisadiyyat sahəsində yeni çağırışlar və texnologiyalar barədə hər kəsdə təsəvvürün olması, nəinki iş adamlarının, hətta milli iqtisadiyyatın rəqabət qabiliyyəti və iqtisadi təhlükəsizliyi baxımından həyati əhəmiyyət kəsb edir. Strateji inkişaf imkanlarının reallaşdırılması baxımından rəqəmsallaşma əlverişli mühit yaradır. Həmin mühitin imkanlarının gerçəkləşdirilməsi üçün texnoloji inkişaf və riyazi dəqiqlik zəruri atributlardır. Belə ki, hazırda "rəqəmsal mühit dedikdə digər mühitləri riyazi qanunlar əsasında şərh etmək (modelləşdirmək) üçün istifadə edilən məntiqi obyektlərin formalaşdırdığı mühit nəzərdə tutulur. Texnologiyalar rəqəmsal mühitin nüvəsini təşkil edir. Bu mühitdə texnologiyalar sürətlə dəyişsə də, texnoloji və riyazi (hesabi) aspektlərin bir-birini tamamlamasının kəsilməz prosesi gedir" (5, s. 6).

Rəqəmsal ödəniş infrastrukturunun formalaşdırılmasının prioritet istiqamətləri müəyyən edilmiş, regionlarda maliyyə inklüzivliyinin artırılması zərurəti xüsusi qeyd edilmişdir. Azərbaycanda rəqəmsal ödəniş infrastrukturunun formalaşması və inkişafı ilə bağlı mühüm işlər görülmüşdür. Lakin rəqəmsal cəmiyyət quruculuğunun hazırkı mərhələsində yaranan yeni çağırışlara cavab verə bilmək üçün bu istiqamətdə tədbirlər davam etdirilməlidir. Azərbaycan Respublikasında rəqəmsal sektora aid ödəniş infrastrukturunun və inkişafı ilə əlaqədar olduqca mühüm işlər görülmüşdür. Bununla belə, rəqəmsal iqtisadiyyatın formalaşması və inkişafının müasir mərhələsində ortaya qoyulan yeni çağırışlara adekvat reaksiya vermək üçün müvafiq istiqamətdə tədbirlər davamlı olmalıdır. Azərbaycanın rəqəmsal iqtisadiyyatının ödəniş infrastrukturunun inkişafı üçün: rəqəmsal sektorda sahibkarlıq fəaliyyətinin və elektron sövdələşmələrin inkişaf etdirilməsi, elektron ödəniş xidmətlərinin hüquqi bazasının təkmilləşdirilməsi, mütərəqqi rəqəmsal ödəniş üzrə texnologiyaların fəal surətdə tətbiqi, Bank sektorunda rəqəmsal fəaliyyətin genişləndirilməsi, göstərilən elektron ödəniş xidmətlərinin səmərəliyi və təhlükəsizliyinin yüksəldilməsi, ölkədaxili regionlarda və paytaxtdan nisbətən uzaq ərazilərdə maliyyə inklüzivliyinin yüksəldilməsi rəqəmsal ödənişlərin təşviqinin əsas prioritet istiqamətləridir.

Rəqəmsal mühitdə fəaliyyət məkanının iş yerini əvəzləməsi, ofis anlayışının virtuallaşması üçün ölkəmizdə artıq bütün zəruri şərtlər mövcuddur və müvafiq potensial göz qabağında inkişaf edir. İş yoldaşları arasında əlaqələrin məkandan asılılığı azalır. Təcrübədən göründüyü kimi, azalmaya mane olan əsas amillərdən biri ənənəvi müəssisə modelidir. Həmin modelin dəyişməsi isə zaman məsələsidir. Məsələ ondadır ki, iş yerindən daha yaxşı fəaliyyət məkanında çalışmaqla işçi müəssisəyə verdiyi faydanı və onun özünün gəlirlərini artıra bilirsə, ofisin virtuallaşması sürətlənə bilər. İnsanların işə gedib və qayıtmaq vaxtına qənaət etməsi də azəhəmiyyətli amil deyildir.

Rəqəmsal iqtisadiyyat geniş mənada götürüldükdə rəqəm texnologiyalarının tətbiq edildiyi iqtisadi fəaliyyətləri əhatə edir. Bu halda, rəqəmsal iqtisadiyyatı mövcud (hazırda mövcud iqtisadiyyatı ənənəvi, analoq, artım iqtisadiyyatı və s. adlandırırlar) iqtisadiyyatın informasiya-kommunikasiya texnologiyaları (İKT) ilə əhatə olunan hissəsi kimi də təqdim edirlər. Formallaşan, yəni məntiqi sxemlərə çevrilə bilən iqtisadi fəaliyyətlərin rəqəmsal iqtisadiyyata aid edilməsi cəhdləri də vardır və zənnimizcə, bununla yalnız qeyd-şərtlərlə razılaşmaq olar. Ensiklopedik mənbələrdə rəqəmsal iqtisadiyyat anlayışına yanaşma, təbii ki, daha məqbuldur. “Rəqəmsal iqtisadiyyat fiziki infrastrukturu və proqram təminatını yaradan hərəkətləri əhatə etməklə, informasiyanın elektron qaydada işlənməsi, saxlanması və ötürülməsi əsasında iqtisadi fəaliyyəti nəzərdə tutur” (6, s. 478).

Qlobal şəbəkələrin insan həyatının mühüm amilinə çevrilməsi bu şəbəkənin digər əlaqə vasitələrinə nisbətən mühüm üstünlükləri ilə əlaqədardır. İlk növbədə bu üstünlüklər: çoxfunksiyalılıq; istifadəçi xərcinin az olması və onun daha da azaldılmasının dəstəklənməsi; bürokratik əngəlləri aradan qaldırmaq qabiliyyətinin gücləndirilməsidir. Rəqəmsal iqtisadiyyatın inkişafı əlverişli rəqəmsal mühitin yaradılmasını tələb edir. Həmin mühit isə, digər fəaliyyət istiqamətləri ilə yanaşı, dövlət-özəl bölmə tərəfdaşlığının dəstəklənməsini, ümumiyyətlə, dövlət strukturları, əhali, o cümlədən biznes subyektləri arasında səmərəli münasibətlərin qurulmasını nəzərdə tutmalıdır. İqtisadi münasibətlər sisteminin digər sektorlarına nisbətən rəqəmsal iqtisadiyyatda dövlət amilinin xüsusilə vurğulanması təsadüfi deyildir. Məsələ ondadır ki, rəqəmsal texnologiyaların tətbiqi arealını genişləndirmək imkanlarını, inkişaf etmiş ölkələrin təcrübəsindən göründüyü kimi, məhz dövlətin fəal iştirakı ilə gerçəkləşdirmək mümkün olur. Rəqəmsal iqtisadiyyatın təhlili məqsədilə, əksər hallarda dörd qiymətləndirmə meyarından istifadə edilir: məşğulluq, məkan, texnoloji, iqtisadi. Rəqəmsal iqtisadiyyatın səmərəliliyinin məşğulluq meyarı ilə qiymətləndirilməsinə əsaslanan yanaşmada rəqəmsal texnologiyaların məşğulluğun səviyyəsi və strukturuna təsiri araşdırılır. Məkan meyarı üzrə konkret halda rəqəmsal iqtisadiyyatın ərazi xarakteristikaları təhlilə cəlb edilməklə qiymətləndirilir. Rəqəmsal iqtisadiyyatın təhlili məqsədi ilə istifadə edilən texnoloji meyarla İKT sahəsində innovasiyaların geniş istifadəçi kütləsi üçün əlyetənliyi qiymətləndirilir. Rəqəmsal texnologiyaların inkişafının qiymətləndirilməsinin iqtisadi meyarına gəldikdə isə, bu halda səmərəlilik, ilkin yanaşmada məsrəf-buraxılış modeli üzrə müəyyən edilə bilər.

Rəqəmsal iqtisadiyyatın reallaşmasının əhatə dairəsi görünməmiş sürətlə genişlənir və iqtisadi fəaliyyətin bütün sahələrinə fərqli templərlə nüfuz edir. Bununla belə, gözlənildiyi kimi, elektron biznes və internet bankçılıq inkişaf tempinə görə daha irəlidədir. Rəqəmsal iqtisadiyyatın şəbəkə yaratma qabiliyyəti onun səmərəliyinin və inkişafının mühüm şərtidir. Həmin şəbəkədə İKT ilə dəstəklənən kommersiya fəaliyyətlərinin əhatə dairəsi günbəgün genişlənməkdə və sürəti artmaqda, kommersiya əməliyyatlarına xərclər isə azalmaqdadır. Bu azalma, ümumiyyətlə şəbəkə yaratma qabiliyyətinin görünməmiş sürətlə yüksəlməsi onu tərəqqi deyil, inqilab adlandırmağa bu və ya digər dərəcədə əsas vermişdir. Müvafiq sövdələşmələrdə xərclərin azalması təkcə elektron kommersiya vasitəçiliyi hesabına digər vasitəçilərin aradan götürülməsi ilə deyil, habelə və əhəmiyyətli dərəcədə tranzaksiya məsrəflərinin azalması ilə əlaqədardır. Odur ki, tranzaksiya funksiyası rəqəmsal platformanın əsas funksiyalarından biri hesab edilir. Eyni zamanda unutmaq olmaz ki, iqtisadi prosesləri sürətləndirən mühüm amillərdən biri rəqəmsal iqtisadi mühitdə bürokratik çərçivələrə etina edilməməsidir. Bu və digər səbəblərdən tənzimlənən bazar münasibətləri şəraitində rəqəmsal iqtisadi fəaliyyətin nizamlanmasının normativ-hüquqi bazasının yaradılması prosesinin

sürətləndirilməsi obyektiv zərurətə çevrilir. Əks halda, təcrübədən göründüyü kimi, beynəlxalq iqtisadi münasibətlərin nizamlanmasında ciddi problemlər özünü gözlətmir. Rəqəmsallaşma iqtisadi həyatda dinamizmini artırır. Kəskinləşən rəqabət mübarizəsi şəraitində formalaşmış institusional mühit artan dinamizmin tələblərinə uyğunlaşmaq məcburiyyətindədir. Bununla belə, ənənəvi rakursda müəssisə modelinin ətalətliliyi rəqəmsal mühitin yaratdığı genişlənən müxtəlifliyə adekvat reaksiya verə bilmir. Bu, xüsusilə rəqabət mübarizəsində özünü daha aşkar şəkildə göstərir. "Rəqəmsal iqtisadiyyatda rəqabət mübarizəsini rəqiblərdən deyil, hər yerdən gözləmək lazımdır. İnformasiya rəqəmsal olduqda və şəbəkədə birləşdikdə bütün sədlər dağılır və heç bir biznes təhlükəsiz olmur" (7, s. 20).

**Rəqəmsallaşma transaksiya xərclərinin azaldılması və rəqabət qabiliyyətinin yüksəldilməsi amili kimi**

Rəqəmsal iqtisadi mühit informasiya bazarında rəqabətin məkan aspektini aktuallaşdırır. Rəqabət mübarizəsində məqsəd informasiya bərabərsizliyi amilindən istifadə edərək informasiya rentasını əldə etməkdir. Rəqəmsal iqtisadi mühitdə iqtisadi agentin informasiya məkanında əldə etdiyi üstünlük ona vaxt məsrəflərini azaltmaqla, mənfəəti artırmağa imkan verir. Bu isə rəqəmsallaşmanın strateji inkişaf istiqaməti kimi statusunu bir daha önə çıxarır.

Rəqəmsal mühitin əsas indikatorlarından biri transaksiya xərcləridir. Mübadilə prosesində mülkiyyət hüququnun bir tərəfdən digərinə verilməsi ilə bağlı olan xərclər kimi transaksiya xərcləri tərəf-müqabillərlə qarşılıqlı münasibətlərin səmərəliliyinə mane olan amillərin aradan qaldırılmasına sərf olunur. Bu xərclər əsas etibarı ilə natamam informasiya mühitində meydana gəlir. İlkin yanaşmada transaksiya xərcləri bazarın fəaliyyəti üçün zəruri olan xərclər kimi qəbul edilmişdir. İlkin təcrübədən göründüyü kimi, transaksiya xərclərinin dinamika təhlilinin nəticələri rəqəmsal mühitdə biznes fəaliyyətinin xarakteristikalarında əhəmiyyətli təshihləri əsaslandırmaq və həyata keçirmək üçün istifadə oluna bilər. Böyük ehtimalla söyləmək olar ki, rəqəmsal mühitdə müxtəlif səviyyələrdə iqtisadi inkişaf məqsədlərinə çatmağın qiymətləndirilməsi məqsədi ilə transaksiya xərclərinin dəyişmə meyilləri ilə yanaşı, onların dinamikasının kəmiyyət ifadəsindən də istifadə ediləcəkdir.

Rəqəmsal transformasiyalar gücləndikdə mülkiyyət hüququnun müdafiəsi xərclərində əqli mülkiyyət hüququnun rolu artır. Məhz əqli mülkiyyət hüququnun müdafiəsi mexanizminin xarakteri və mükəmməlliyi rəqəmsal mühitdə opportunist davranışla bağlı xərclərin səviyyəsini şərtləndirən həlledici amilə çevrilir. Transaksiya xərclərinin yuxarı həddi rəqəmsal mühitdə iqtisadi fəaliyyətin məqsədəuyğunluğunu şərtləndirir. Başqa sözlə, qarşılıqlı əlaqədə göstərilən iqtisadi fəaliyyətin digər xərcləri məqbul olduğu halda, transaksiya xərclərinin azaldıla bilməməsi, həmin fəaliyyətin davamlığına təsir edən mühüm amilə çevrilir. Belə hesab olunur ki, transaksiya xərclərinin sıfra

bərabər olması üçün istehsal və gəlirlərin bölgüsü prosesləri kənar təsirlərdən asılı olmamalıdır. Bu mövqe Ronald Kouz teoreminə əsaslanır. Kouz teoreminə görə istehsalın strukturunun (resurslardan istifadə nisbətinin) optimallığı mülkiyyət hüququnun bölgüsündən asılı deyildir. Transaksiya xərcləri məhz mülkiyyət münasibətlərinin istehsal prosesinə təsiri halda sıfırdan böyük olur. Reallıqda isə bu, həmişə belədir və transaksiya xərclərinin sıfır halına rast gəlinmir. Onu da qeyd edək ki, transaksiya xərcləri fəaliyyət sahəsində qənaətə (vaxta qənaət də daxil olmaqla) xidmət edir. İnnovasiyaların, xüsusilə rəqəmsal innovasiyaların iqtisadi inkişafda artan rolu şəraitində transaksiya xərclərinin artacağı ehtimalı yüksəkdir. Belə ki, bir çox tədqiqatçıların fikrincə, "iqtisadi davranışın alternativlərinin axtarışı ilə əlaqədar xərclər transaksiya xərcləri adı altında əhatə edilir" (8, s. 123).

Ölkə rəqəmsal texnologiyaların inkişafında, onun texniki-texnoloji təminatının yaradılmasında idxalı əvəzləmə imkanına malikdirsə, bu ona rəqabət mübarizəsində ciddi üstünlüklər verir. Rəqəmsal bazarlarda rəqabətin xarakteri, həlledici dərəcədə bazarın informasiya texnologiyaları seqmentində vəziyyətdən və burada baş verən rəqabətin xüsusiyyətlərindən asılıdır. İlkin yanaşmada informasiya texnologiyaları bazarında rəqabətin xüsusiyyətlərinə aşağıdakılar aid edilir: beynəlxalq rəqabət şərtləri və qaydalarının güclü təsiri; qeyri-mükəmməl rəqabət, haqsız rəqabət hallarının tez-tez rast gəlinməsi; qiymətlərin volatilliyi, qiymətin əmələ gəlməsinin əsasən istehsal sferasında deyil, satış sferasında baş verməsi, qeyri-qiymət rəqabətinin geniş istifadə olunması və s.

İnformasiya rəqabəti şəraitində istənilən informasiyaya iqtisadi aspektdən yanaşmaq lazım gəlir. Belə ki, informasiya bütün hallarda ənənəvi bazarlarda mövqeni saxlamaq və möhkəmləndirmək məqsədi ilə istifadə olunur; ölkənin texnoloji imkanları artdıqca, digərlərinə nisbətən tam informasiya şəraitində fəaliyyət üstünlüyü əldə edir ki, bu da informasiya qeyri-bərabərliyini artırır; hər yerə nüfuz edən texnologiyalar vasitəsi ilə istənilən iqtisadi münasibətin gec-tez şəffaflaşması baş verir.

Rəqəmsal bazarların inkişafı ideya və təcrübələrin mübadiləsi prosesini sürətləndirir. Bu isə yeni biznes modellərinin yaradılması, yayılması və istifadəsi proseslərini də sürətləndirməkdə, rəqəmsal bazarlarda rəqabətə yeni yanaşmaları formalaşdırmaqdadır. Rəqəmsal bazarlarda rəqabətin özünəməxsus cəhətlərindən biri biznes modellərin öz aralarında və onlarla internet platformalar arasında rəqabət mübarizəsində üzə çıxmasıdır. İlkin təcrübənin təhlili böyük ehtimalla belə deməyə əsas verir ki, biznes modellər və internet platformalar arasında rəqabət gec-tez sonuncunun qələbəsi ilə başa çatır. Odur ki, platformada üstünlük qazanmağa yönəlmiş biznes model daha perspektivli hesab edilə bilər. Rəqəmsal bazarlarda rəqabətin digər özünəməxsusluğu bazarda əhəmiyyətli (və ya ümumiyyətlə) payı olmayan şirkətlərin üstünlük əldə edə bilməsindədir. Onların kreativliyi əsasən yeni çağırışlara əlüstü reaksiya verməkdə ifadə olunur.

Rəqəmsal mühit istənilən məqsədyönlü fəaliyyətə yeni tələblər qoyur. Gənc nəslin bu tələblərə vaxtında və adekvat reaksiya verə bilməsi onların təhsili ilə bilavasitə əlaqədardır. Müasir reallıqda təhsilin təkmilləşdirilməsi distant təhsil texnologiyalarından fəal istifadəni tələb edir. Azərbaycanda distant təhsilin əhatə dairəsinin genişlənməsi və mövcud texnologiyalardan yaradıcı istifadə istiqamətində həyata keçirilən tədbirlər pandemiya şəraitində daha da sürətlənmişdir. Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) bu istiqamətdə görülən işlər təhsildə rəqəmsallaşmanın bir çox aspektini sınaqdan çıxarmağa imkan verir. Əldə edilən nəticələr müsbət olmaqla yanaşı, yaxın perspektivdə istifadə baxımından diqqətəlayiqdir.

## Nəticə

Rəqəmsal iqtisadiyyat dövlətin iştirakı olmadan formalaşa bilməz. Rəqəmsal mühit dövlət-özəl bölmə tərəfdaşlığının dəstəklənməsini nəzərdə tutmalıdır. Ənənəvi rakursda müəssisə modelinin ətalətliliyi rəqəmsal mühitin yaratdığı genişlənən müxtəlifliyə adekvat reaksiya verə bilmir. Transaksiya xərclərinin dinamika təhlili rəqəmsal mühitdə biznesdə təshihləri əsaslandırmaq üçün istifadə oluna bilər. Biznes modellər və internet platformalar arasında rəqabət internet platformada üstünlük qazanmağa yönəlmiş biznes modelin daha perspektivli olduğunu göstərir. Rəqəmsallaşma prosesləri nə qədər qlobal olsa da, milli iqtisadi sərhədləri və iqtisadi himayədarlıq zərurətini aradan qaldırmayacaqdır. Azərbaycanda həyata keçirilən sosial-iqtisadi, institusional islahatların dərinləşdirildiyi hazırkı dövrdə rəqəmsal mühitin imkan və üstünlüklərindən daha fəal istifadə edilməlidir.

### Ədəbiyyat


1. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 17 fevral tarixli 1146 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003–2012-ci illər)". Bakı, 2003;
2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 sentyabr tarixli 2345 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı". Bakı, 2016;
3. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" 6 oktyabr 2016-cı il tarixli Fərmanı. Bakı, 2016;
4. Махалин В.Н., Махалина О.М. Роль государства и бизнеса в проведении цифровой трансформации в России // Научный форум: Экономика и менеджмент: сб. ст. по материалам XII Междунар. науч.-практ. конф. № 10(12). Москва, Изд. «МЦНО», 2017. с. 135-144;
5. Balayev R.Ə. Rəqəmsal mühitdə transaksiya xərcləri və rəqabət.//Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi xəbərləri. Cild 6, oktyabr-dekabr 2018, s.5-14;
6. The Internet Encyclopediya, 2003, 2 Volume Set, 854 pp.;
7. The Digital Economy: Rethinking Promise and Peril in the Age of Networked Intelligenc. McGraw-Hill Education; 2 editions (October 28, 2014), 448 pages;
8. Серова. Е.В. Аграрная экономика. Москва, ГУ ВШЭ, 1999, 480 с.

UNEC Elmi Xəbərləri, İl 8, Cild 8, iyul-sentyabr, 2020, səh. 14 - 27
Scientific Reviews in UNEC, Year 8, Volume 8, July-September, 2020, pp. 14 -27

# İNVESTİSİYADAN GƏLİRLƏRİN VƏ BORC KAPİTALINDAN İSTİFADƏNİN VERGİ ASPEKTLƏRİ

*Daxil olub: 29 iyun 2020-ci il;*
*Qəbul olunub:03 avqust 2020-ci il*
*Received: 29 June.2020;*
*Accepted: 03 August 2020*

**B.S.Əhmədov**[1]
[1]*dosent, i.e.n., "İqtisadiyyat və idarəetmə" kafedrası, UNEC*
[1]*bahmadov@gmail.com*

**Xülasə**

Tədqiqatın əsas məqsədi Azərbaycanda mövcud vergi rejiminin investisiya gəlirliyinə və borc kapitalından istifadənin səmərəliliyinə təsirinin qiymətləndirilməsidir. Tədqiqat işi iqtisadi-riyazi üsullar, elmi abstraksiya və məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatda firmalarda kapitalın strukturunun formalaşmasının nəzəri və praktik aspektlərinə baxılmış, vergilərin kapitalın strukturuna və qiymətinə təsiri, borc kapitalından istifadə hesabına xüsusi kapitalın gəlirliyinin artırılması məsələləri araşdırılmışdır. Tədqiqat nəticəsində investisiyadan gəlirlərdə vergi yükünün payı və mövcud vergi güzəştlərinin bu yükün azaldılmasına təsiri hesablanmış, mövcud vergi rejiminin borc vəsaitlərindən istifadə hesabına vergi üstünlükləri əldə etməyə imkan verdiyi müəyyən edilmişdir, habelə dividendlərə və investorun firmanın kapitalındakı payının qiymət artımından əldə olunan gəlirlərə görə tətbiq edilən vergi dərəcələri arasında fərqin investisiya fəallığına mənfi təsiri müəyyənləşdirilmişdir. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın nəticələri investisiya fəallığını stimullaşdırmaq üçün vergi rejiminin təkmilləşdirilməsində istifadə oluna bilər.

***Açar sözlər:*** *İnvestisiya, vergilər, kapitalın strukturu, borc kapitalı.*
***Jel Classification Codes:*** *E22, H21.*

# TAX ASPECTS OF İNVESTMENT INCOME AND THE USE OF BORROWED CAPITAL

**B.S.Ahmedov**[1]
[1]*Associate professor, Department of "Economy and business administration", UNEC*
[1]*bahmadov@gmail.com*

**Abstract**

The main objective of the research is is to assess the impact of the tax regime on investment returns and efficiency of using debt capital in Azerbaijan. The research was carried out on the basis of such research methods as economic and mathematical methods, scientific abstraction and logical summarization. The study examines the theoretical and practical aspects of the formation of capital structure in firms, the effect

of taxes on the structure and cost of capital, and the increase in return on equity through the use of debt capital. As a result of the study, the tax burden on investment income and the effect of existing tax incentives on reducing this burden were calculated, and it was found that the current tax regime allows tax benefits to be obtained through the use of debt capital. In addition, it was found that the difference between the tax rates on dividends and capital gains negatively affects investment activity. The practical significance of the study lies in the fact that the results of the research can be used to improve the tax regime in order to stimulate investment activity.

***Keywords:*** *İnvestments, taxes, capital structure, debt capital.*

## НАЛОГОВЫЕ АСПЕКТЫ ИНВЕСТИЦИОННОГО ДОХОДА И ИСПОЛЬЗОВАНИЯ ЗАЕМНОГО КАПИТАЛА

***Б. С. Ахмедов***[1]
[1]*доц., к.э.н., кафедра «Экономика и управление», UNEC*
[1]*bahmadov@gmail.com*

**Резюме**
Основная цель исследования - оценить влияние налогового режима на инвестиционную отдачу и эффективность заемного капитала в Азербайджане. Исследование проводилось на основе таких методов исследования, как экономико-математические методы, научная абстракция и логическое обобщение. В исследовании рассматриваются теоретические и практические аспекты формирования структуры капитала в фирмах, влияние налогов на структуру и цену капитала, повышение доходности собственного капитала за счет использования заемного капитала. В результате исследования были рассчитаны налоговое бремя на инвестиционный доход и влияние существующих налоговых стимулов на снижение этого бремени, и было установлено, что текущий налоговый режим позволяет получать налоговые выгоды за счет использования заемных средств. Кроме того, установлено, что разница между налоговыми ставками, применяемыми к дивидендам, и доходом от увеличения цены доли в капитале фирмы оказывает негативное влияние на инвестиционную деятельность. Практическая значимость исследования заключается в том, что результаты исследования могут быть использованы для совершенствования налогового режима с целью стимулирования инвестиционной активности.

***Ключевые слова:*** *инвестиции, налоги, структура капитала, заемный капитал.*

## Giriş

Firmada investisiya qəraralarının qəbulu üçün əsas olan kapitalın qiyməti ayrı-ayrı mənbələrdən cəlb edilən vəsaitlərin qiymətlərinin orta çəkili ölçüsüdür. Xüsusi kapital sahibləri firmanın əmlakından mülkiyyət hüququna malik olduqları halda, borc kapitalının sahibləri belə hüquqa malik deyillər. Bununla yanaşı, firma cəlb etdiyi borc vəsaitlərinə görə faiz ödənişlərini ödəyə bilmirsə, onda iflas olur, xüsusi kapital sahiblərinə dividend ödənmədiyi halda isə iflasa məruz qalmır. Bu baxımdan, borc kapitalının xüsusi kapitala nisbəti kimi hesablanan leveric əmsalının artması firmanın maliyyə risklərini artırır. Bununla belə, leveric əmsalının artması xüsusi kapitalın gəlirliyinin artmasına səbəb olur. Belə hal, xüsusi kapitala düşən gəlirlərin mənfəət vergisinə cəlb edildiyi halda, borc kapitalına görə ödənilən faiz ödənişlərinin istehsal xərclərinə daxil edilməsi ilə əlaqədardır.
İnvestisiya prosesində firmanın kapitalı formalaşır və bu baxımdan kapitalın qiymətinin dəyişməsi əlavə investisiyaya tələbatı müəyyən edən amillərdəndir. Firmada əlavə investisiya qoyuluşlarının hansı mənbələr hesabına həyata keçirilməsi son nəticədə kapitalın strukturunun dəyişməsinə səbəb olur.
Qeyd etmək lazımdır ki, leveric əmsalının səviyyəsi idarəetmə davranışı üçün ciddi intizamlaşdırcı təsirə malikdir. Belə ki, yüksək leveric əmsalı firmanın maliyyə riskinin artmasına səbəb olmaqla, onun menecmentindən firmanın iflasından qaçınmağa çalışmaqla mənfəəti maksimallaşdırmağa yaxın davaranış tələb edir. Beləliklə, borc kapitalından istifadə iflas ehtimalını artırdığı halda, firmanın dəyərini də yüksəldir. Bu baxımdan, firmanın gəlirliyinə borc kapitalı ilə xüsusi kapital arasında optimal nisbət əhəmiyyətli dərəcədə təsir göstərir.
Borc kapitalından istifadə etməklə xüsusi kapitalın gəlirliliyinin artırılmasına vergi rejimi birbaşa təsir göstərir. Bu baxımdan, məqalədə ölkədə vergi rejiminin kapitalın strukturuna və borc kapitalından istifadənin səmərəliliyinə təsiri araşdırılır.

## Nəzəri əsaslar

Firmanın kapitalı strukturunun müəyyən edilməsinə dair ilkin yanaşmaya əsasən borc kapitalının payı müəyyən optimal səviyyəyə qədər artdıqda, kapitalın orta çəkili qiyməti də azalır (9). Belə ki, xüsusi kapitalın borc kapitalından daha riskli olması onun qiymətinin borc kapitalına nisbətən yüksək olmasına səbəb olur. Məsələn, Mülki Məcəllənin 61-ci maddəsinə əsasən hüquqi şəxs ləğv edilərkən kreditorların tələbləri ödənildikdən sonra hüquqi şəxsin qalan əmlakı, hüquqi şəxsin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, onun təsisçilərinə (iştirakçılarına) verilir (2). Belə halda, xüsusi kapital borc vəsaitləri üçün təminat rolunu oynayır. Bundan başqa, borc vəsaitlərinə görə ödənilən faiz ödənişləri istehsal xərclərinə daxil edildiyindən, xüsusi kapi-

talın qiyməti ilə müqayisədə, borc kapitalının qiymətinin mənfəət vergisinin dərəcəsinə bərabər olan hissəsi vergilərdən azaldılmış vəsait hesabına ödənilmiş olur. Firmanın borc kapitalını D, faiz dərəcəsini *i*, faiz ödənişlərindən və vergidən əvvəl gəlirlərini (xalis əməliyyat mənfəətini, EBIT) P, mənfəət vergisini $w_c$ ilə işarə etsək, onda firmanın mənfəət vergisindən sonrakı xalis mənfəəti aşağıdakı kimi olar:

$$\pi_a = (1 - w_c)(P - iD) = (1 - w_c)P - (1 - w_c)\, i\, D,$$

burada $(1 - w_c)P$ firmanın kapitalı xüsusi kapital hesabına formalaşdığı halda ödənilməli verginin məbləğidir. Faiz ödənişləri edilərkən firmanın xalis əməliyyat mənfəəti $iD$ qədər deyil, $(1 - w_c)iD$ qədər azalır və borc vəsaitlərinə ödənilən faizlərin $w_c iD$ hissəsi vergidən qənaət hesabına ödənilir. Nəticədə, borc kapitalından istifadə xüsusi kapitalın gəlirliliyini artırır. Bunu aşağıdakı düsturdan da görmək olar. Belə ki, kapitalın orta çəkili qiyməti aşağıdakı kimi müəyyən olunur.

$$k_K = k_E E/K + (1 - w_c)iD/K, \qquad (1)$$

burada $k_K$ və $k_E$ – müvafiq olaraq ümumi kapitalın (kapitalın orta çəkili) və xüsusi kapitalın qiymətidir;
E – firmanın xüsusi kapitalıdır;
K – firmanın ümumi kapitalıdır, K = E + D.
(1) düsturunda dəyişikliklər aparmaqla aşağıdakı düsturu alırıq:

$$k_E = k_k + (k_k - (1 - w_c)i)D/E \qquad (2)$$

Göründüyü kimi, kapitalın orta çəkili qiymətini sabit saxladıqda, borc kapitalının payını artırmaqla, xüsusi kapitalın gəlirliliyini artırmaq mümkündür. Bununla belə, iqtisadi ədəbiyyatda fikir ayrılığı əsasən $(k_k - (1 - w_c)i)D/E$ ifadəsinin qiymətinin borcun artması hesabına maliyyə riski ilə bağlı mükafata bərabər olması ilə əlaqədardır.

Firmanın ümumi kapitalında borc kapitalının payının artması borclara görə ödəməmə riskinin yüksəlməsinə və xüsusi kapitalın qiymətinin artmasına səbəb olur. Bu baxımdan, ənənəvi yanaşmaya görə, investisiyanın maliyyələşdirilməsində borc vəsaitlərinin payının müəyyən həddən sonra artması nəticəsində borclara görə ödəməmə ehtimalının, yəni maliyyə riskinin yüksəlməsi hesabına həm xüsusi kapitala tələb edilən mənfəət norması, həm də faiz dərəcəsi artır. Bu da, son nəticədə kapitalın orta çəkili qiymətinin yüksəlməsinə səbəb olur. Beləliklə, ənənvi yanaşmaya görə firmada xüsusi kapitalla borc kapitalının müəyyən optimal nisbəti mövcud olur ki, bu optimal nisbətdə kapitalın qiyməti minimum olur (6).

Kapitalın strukturuna dair F.Modilyani və M.Miller yanaşmasına əsasən təkmil (effektiv) maliyyə bazarlarının mövcud olduğu şəraitdə kapitalın strukturu onun qiymətinə

təsir etmir (5). Təkmil maliyyə bazarı dedikdə, aşağıdakı şərtlərin ödəndiyi bazar strukturu nəzərdə tutulur (7):

1. Sövdələşmə xərcləri və vergilər yoxdur;
2. Bazarda çoxlu sayda alıcı və satıcı var və onlar bazar qiymətinə təsir etmirlər;
3. Bazar subyektlərinin bazara daxil olmaqda bərabər imkanları var;
4. İnformasiyanın əldə edilməsi ilə bağlı xərclər yoxdur;
5. Bazarda fəaliyyət göstərən subyektlər eyni gözləntilərə malikdirlər;
6. Maliyyə çətinlikləri ilə əlaqədar xərclər yoxdur.

Bu yanaşmaya əsasən yuxarıdakı şərtlər olduqda, firmada kapitalın gəlirliliyi kapitalın strukturundan asılı deyildir. Eyni gəlirli və enyi risk mühitində fəaliyyət göstərən firmaların səhmlərinin dəyəri kapitalın strukturundan asılı olmayaraq arbitraj nəticəsində bərabərləşir (7). Arbitraj risksiz gəlir əldə etmək məqsədilə bir bazarda aşağı qiymətləndirilmiş aktivin bu aktivə daha yüksək qiymət verildiyi bazarda satılmasıdır (4). Beləliklə, F.Modilyani və M.Millerə görə borc vəsaitlərindən istifadə hesabına kapitalın qiymətində üstünlük əldə edilmir və xüsusi kapital ilə borc kapitalı arasında optimal nisbət mövcud deyildir.

Qeyd edilənlərlə yanaşı, praktikada təkmil bazardan fərqli şəraitin formalaşmasına səbəb olan vergilər, sövdələşmə xərcləri, kredit hesabına firmada pay (səhm) almaqla bağlı məhdudiyyətlər, alınan borc vəsitlərinə görə faiz dərəcələrində fiziki şəxslərlə firmalar arasındakı fərqlər və s. mövcuddur. Modilyani-Miller yanaşması tamamilə arbitraja əsaslanır və borc vəsaitlərinin investisiyanın maliyyələşdirilməsində payının artması ilə əlaqədar olaraq riskin səviyyəsinin yüksəlməsini nəzərə almır. Belə ki, firmanın maliyyələşdirilməsində borc vəsaitlərinin payı artdıqda, borca görə ödəməmə riskinin yüksəlməsi firma üçün faiz dərəcəsini artırır. Məsələn, C.Stiqliz qeyd edirdi ki, Modilyani-Miler yanaşmasının əsas kritik nöqtəsi firmalar tərəfindən buraxılan istiqrazların iflas riskinin sıfıra bərabər qəbul edilməsidir (13). Bununla da, borc vəsaitlərinin payı artdıqca, kapitalın da qiyməti artır. Habelə, qeyri-təkmil maliyyə bazarında arbitrajdan əldə edilən gəlir informasiyanın toplanması, sövdələşmə xərcləri və s. ilə əlaqədar xərclərdən az olursa, onda arbitraj səmərəli olmur. Habelə, ayrı-ayrı firmalar üçün vergi üstünlükləri də fərqli olur. Bu da borc vəsaitlərinin cəlb olunmasından əlavə gəlir əldə edilməsinə səbəb ola bilər.

Xüsusilə, vergilər hesabına firmanın fəaliyyətinin borc vəsaitləri hesabına maliyyələşdirilməsi səmərəli olur (5). Belə ki, borc vəsaitlərinə ödənilən faiz ödənişləri istehsal xərclərinə daxil edildiyi halda, xüsusi kapital hesabına yaranan mənfəətdən vergi tutulur. Belə hal borc vəsaitləri hesabına investisiya layihələrinin maliyyələşdirilməsini səmərəli edir. Bununla əlaqədar kapitalın strukturuna dair kompromis nəzəriyyəsi yaranmışdır ki, onun da əsas mahiyyəti aşağıdakılardan ibarətdir (11):

1. Faiz ödənişləri istehsal xərclərinə daxil edildiyindən və borc verənlər investorlara nisbətən məhdud məsuliyyət daşıdığından borc kapitalından istifadə kapitalın orta çəkili qiymətini azaldır;

2. Borc vəsaitlərindən istifadənin iflas ehtimalını yüksəltməsi kapitalın orta çəkili qiymətini artırır;

3. Borc kapitalının qiyməti borclanmanın aşağı səviyyəsində aşağı olur. Firmanın ümumi kapitalında borc vəsaitlərinin payı artdıqca, iflas riskinin yüksəlməsi qeyd edilən üstünluklərə baxmayaraq kapitalın qiymətini artırır.

Beləliklə, borc kapitalı ilə əlaqədar iflas riskinin və vergi üstünlüklərinin təsiri nəticəsində firmanın kapitalının orta çəkili qiymətinin optimal səviyyəsi formalaşır (8). Firmanın iflası zamanı onun əmlakının bölünməsinə dair mübahisələr, bununla bağlı məhkəmə və inzibati xərclər, iflas prosesində yaranan qeyri-müəyyənliklər onun dəyərini azaldır və cəlb edilən vəsaitlərin qiymətinə təsir göstərir. Bu baxımdan, kapitalın strukturu ilə bağlı kompromis nəzəriyyəsi borc vəsaitlərindən istifadə hesabına vergi qənaəti ilə borclanmanın səviyyəsinin artması hesabına yarana biləcək iflas xərcləri arasında balansa əsaslanır (11).

Vergilərin kapitalın qiymətinə təsirinin birinci istiqaməti xüsusi kapitala tələb edilən gəlirlə (s) həmin kapitalın vergidən əvvəl gəlirliyi (p) arasında fərqin yaranması ilə əlaqədardır. Kapitalın artımına görə vergini $w_g$, investorun gəlirlərinə görə vergini $w_p$, firmada reinvestisiya əmsalını (mənfəətin bölüşdürülməyən hissəsini) *r* ilə işarə etsək, onda vergilərdən əvvəl mənfəət norması (p) ilə vergilərdən sonrakı gəlirlilik norması (s) arasındakı əlaqə aşağıdakı kimi olacaqdır:

$$s = p(1 - w_c)(1 - (w_g r + (1 - r)w_p)) \tag{3}$$

The purpose of the research is to study the modern methodics used in financial analysis and to compare these methodics and show their advantages and disadvantages. For this purpose, the article clarifies the concepts of methodology and methodic, and analyzes the methodics of analysis formed by local, Russian, Western and Turkish scholars. Systematic approach, scientific abstraction, comparative analysis, logical generalization methods were used in the research work. The limitation of the research is the need for extensive theoretical and practical information. The practical significance of the research is that it allows analysts to independently determine the methodics to be

applied in the analysis of various purposes and increase their theoretical and methodological knowledge. The scientific novelty of the research is the systematization of the methodics and directions of analysis of researchers who approach financial analysis from a narrow and wide aspect in a single context. In the end, as a result of the research, various methodics were evaluated and the methodic that is more suitable for research in our country was identified.

***Keywords**: Methodology, methodic, stages of analysis, directions of analysis.*
***UOT:** 303.7, 657.01; **JEL:** B49, M49*

## СОВРЕМЕННАЯ МЕТОДИКА ФИНАНСОВОГО АНАЛИЗА

***Э. Д. Зейналлы**[1]*
*[1]Докторант, ассистент, кафедра “Бухгалтерский учет и аудит”, АГАУ*
*[1]E-mail: elayzeynalli@yahoo.com*

**Резюме**
Цель исследования - изучить современные методики, используемые в финансовом анализе, а также сравнить эти методики и показать их преимущества и недостатки. Для этого в статье уточняются понятия методологии и методики, а также анализируется методика анализа, сформированная местными, российскими, западными и турецкими учеными. В работе использованы системный подход, научная абстракция, сравнительный анализ, методы логического обобщения. Ограничением исследования является необходимость обширной теоретической и практической информации. Практическая значимость исследования заключается в том, что оно позволяет аналитикам самостоятельно определять методику, применяемую при анализе различных целей, и расширять свои теоретические и методологические знания. Научная новизна исследования заключается в систематизации методики и направлений анализа исследователей, которые подходят к финансовому анализу с узкой и широкой стороны в едином контексте. В конце в качестве результата были оценены различные методики и определена методика, которая больше подходит для исследований в нашей стране.

***Ключевые слова:** Методология, методика, этапы анализа, направления анализа.*
***УДК:** 303.7, 657.01; **JEL:** B49, M49*

**Giriş**
Müasir dövrümüzdə müəssisənin effektiv idarə edilməsi və operativ qərarların qəbul edilməsi təqdim olunan informasiyaların doğruluğu ilə yanaşı, bu informasiyaların düzgün qiymətləndirilməsindən bilavasitə asılıdır.

Müəssisənin maliyyə menecmenti ilə bağlı düzgün qərarların alınması üçün isə müxtəlif hadisə və proseslərə ayrılıqda yanaşmaq, ona təsir edən amilləri qiymətləndirmək və alınan nəticələri doğru şərh etmək, bir sözlə, maliyyə təhlilinin imkanlarından istifadə etmək gərəkdir. Bu prosesin düzgün icrası üçün təhlilçi maliyyə təhlilinin metodologiyasını anlamalı, hadisələrin və müəssisənin fəaliyyət xüsusiyyətlərinin tələblərinə uyğun metodikanı təyin etməlidir.

**Metodologiya və metodika**

Metodologiya (*yunan μεθοδολογία – metod haqqında elm*) tədqiqatın ümumi istiqamətini, tədqiqat obyektinə yanaşmanın xüsusiyyətlərini, elmi biliklərin təşkili üsulunu müəyyənləşdirir. Metodologiyanın bir-biri ilə əlaqəli üç iyerarxik səviyyəsi - fəlsəfi metodologiya, ümumi elmi metodologiya və xüsusi metodologiya fərqlənir [1, s. 23-24]. Fəlsəfi metodologiya daha ümumi və ən yüksək səviyyədə fəaliyyət göstərir. Heraklit, Platon, Kant, Hegel və s. filosoflar tərəfindən inkişaf etdirilən bu metodologiya – dialektikanın qanunları, prinsipləri və kateqoriyaları mühüm əhəmiyyətə malikdir. Ümumi elmi metodologiya müxtəlif elmlər tərəfindən hadisələrin öyrənilməsinin metod və prinsiplərinin ümumiləşdirilməsidir. Xüsusi metodologiyaya isə fəlsəfi və ümumi elmi metodologiya ilə əlaqəli olan və digər elmlər tərəfindən də istifadə oluna bilən xüsusi elmi metodların məcmusudur.

Maliyyə təhlilinin metodologiyası onun öyrənilməsinin elmi əsasıdır. Nəzəriyyə nöqteyi-nəzərindən elmin metodologiyası onun prinsip, forma və metodlarının məcmusu kimi öz əksini tapmışdır.

Metodika (*yunanca μεθοδικός – nizamlı*) hər hansı bir işin əməli sürətdə icrası üçün təlimat, alqoritm və üsulların məcmusu, ciddi ardıcıllıq sistemidir. Maliyyə təhlilində metodika prosesin praktiki yerinə yetirilməsi metodlarının məcmusudur və konkret istiqamətlər üzrə tətbiq edilir.

Aydın məsələdir ki, maliyyə təhlili metodikası təhlilin növünə, məqsədinə, müəssisənin fəaliyyət xüsusiyyətlərinə, baş verən hadisələrin təbiətinə və təhlilçinin peşəkarlıq səviyyəsinə uyğun olaraq müəyyənləşdirilir.

Maliyyə təhlilinin predmetinə (dar və geniş mənada maliyyə təhlili yanaşmaları) olduğu kimi, onun metodikasına da tədqiqatçılar öz elmi fəaliyyətlərinə uyğun olaraq yanaşmış, onu müxtəlif mərhələlərə və istiqamətlərə bölmüşdür. Tədqiqatımızda hazırda maliyyə təhlilində istifadə olunan bir sıra metodikalara nəzər yetirəcəyik.

**A.D.Şeremet, E.V.Neqaşev və R.S.Sayfulin metodikası**

Heç şübhəsiz demək olar ki, təhlildə ən geniş yayılmış metodika A.D.Şeremet, E.V.Neqaşev və R.S.Sayfulinə aiddir. Onlar öz əsərlərində təhlilin metodikasını bir-biri ilə əlaqəli üç hissəyə - maliyyə vəziyyəti, maliyyə nəticələri və maliyyə-təsərrüfat

fəaliyyətinin səmərəliyinin təhlilinə ayırırlar [2, s. 8] . Həmçinin təhlilin aşağıdakı üç mərhələdə aparılmasını təklif edirlər:

- təhlilin məqsədinin və həyata keçirilməsinə dair yanaşmanın müəyyən edilməsi;
- təhlil üçün təqdim olunan məlumatların keyfiyyətinin qiymətləndirilməsi;
- təhlil metodlarının müəyyənləşdirilməsi, təhlilin həyata keçirilməsi və nəticələrin ümumiləşdirilməsi [3, s. 16].

A.D.Şeremet, E.V.Neqaşev və R.S.Sayfulin metodikasına görə təhlil istiqamətləri aşağıdakı kimi əks etdirilir:

<table>
<tr><td rowspan="4">1</td><td rowspan="4">Maliyyə vəziyyətinin təhlili</td><td>Aktiv və passivlərinin strukturunun təhlili</td><td>- Aktivlərin quruluşu və dinamikasının təhlili<br>- Aktivlərin formalaşması mənbələrinin quruluşu və dinamikasının təhlili</td></tr>
<tr><td>Likvidlik və ödəmə qabiliyyətinin təhlili</td><td>- Likvidlik əmsallarının hesablanması və qiymətləndirilməsi<br>- Ödəmə qabiliyyəti əmsallarının hesablanması və qiymətləndirilməsi</td></tr>
<tr><td>Maliyyə sabitliyinin təhlili</td><td>- Kapitalın mövcudluğu və adekvatlığının təhlili.<br>- Ehtiyatların təhlükəsizliyinin onların yaranma mənbələri ilə təhlili.<br>- Maliyyə sabitliyi əmsallarının hesablanması və qiymətləndirilməsi</td></tr>
<tr><td>Pul vəsaitləri hərəkətinin təhlili</td><td>- Pul vəsaitlərinin hərəkəti strukturunun təhlili<br>- Xalis mənfəət və pul axınının əlaqəsinin təhlili</td></tr>
<tr><td rowspan="3">2</td><td rowspan="3">Maliyyə nəticələrinin təhlili</td><td>Gəlirlərin təhlili</td><td>- Gəlirin quruluşu və dinamikasının təhlili<br>- Məhsul istehsalı və satışının həcminin təhlili<br>- İstehsal ehtiyatlarının istifadəsinin satışların həcminə təsirinin təhlili</td></tr>
<tr><td>Xərclərin və maya dəyərinin təhlili</td><td>- Xərclərin quruluşu və dinamikasının təhlili<br>- Maya dəyərinin formalaşmasının təhlili<br>- Xərclərin amil təhlili və satışdan mənfəətə təsirinin qiymətləndirilməsi</td></tr>
<tr><td>Maliyyə nəticələrinin təhlili</td><td>- Gəlirlərin və xərclərin təhlili<br>- Digər gəlir və xərclərin təhlili<br>- Mənfəət göstəricilərinin formalaşdırılmasının təhlili<br>- Satışdan əldə olunan mənfəətin, vergiyə qədər mənfəətin, xalis mənfəətin amil təhlili</td></tr>
<tr><td rowspan="2">3</td><td rowspan="2">Maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliyinin</td><td>Aktivlər və kapitalın rentabelliyinin təhlili</td><td>- Aktivlər və kapital üzrə rentabelliyin hesablanması<br>- Məhsulların rentabelliyin hesablanması<br>- Aktivlərin və kapitalın rentabelliyinin amil təhlili</td></tr>
<tr><td>Aktiv və öhdəliklərin dövriyyəsinin təhlili</td><td>- Aktivlərinin dövriyyəsinin təhlili<br>- Dövriyyə kapitalının istifadə səmərəliyinin qiymətləndirilməsi</td></tr>
</table>

**Sxem 1. A.D.Şeremet, E.V.Neqaşev və R.S.Sayfulin metodikasına görə təhlil istiqamətləri**

Tədqiqatçıların özlərinin də qeyd etdikləri kimi, bu metodika ilk növbədə maliyyə hesabatlarına əsaslanır və xarici istifadəçilər üçün nəzərdə tutulmuşdur. İdarəetmə məlumatlarından istifadə etmək mümkün olduqda, daha dərin təhlil üçün istiqamətlər müəyyənləşdirilə bilər.
Hesab edirik ki, təhlilin bütün istifadəçilərinə yönəlməsi, maliyyə vəziyyəti və maliyyə nəticələri haqqında geniş məlumat verməsi və sadə tətbiq alqoritminə malik olması bu metodikanın əsas xüsusiyyətlərinə aiddir. Tədqiqatçıların maliyyə təhlilinə "dar" çərçivədən yanaşmasını nəzərə alaraq, proqnozlaşdırma, investisiya və riskin qiymətləndirilməsi istiqamətlərinə metodikada yer verilməməsi təbiidir.
Metodikanın klassik istiqamətlərdə təhlilin həyata keçirilməsi idarəetmə və fəaliyyət səmərəliliyinin təhlili üçün kiçik və orta müəssisələr səviyyəsində istifadəsini mümkün hesab etmək olar.

**O.V.Yefimova metodikası**

O.V.Yefimova təhlilin aşağıdakı istiqamətlərini müəyyənləşdirib [4, s. 3-4]:

**Dövriyyə kapitalının qiymətləndirilməsi**
- Cari aktivlərin dövriyyəsinin təhlili
- Debitor borclarının hərəkətinin təhlili
- Ehtiyatların hərəkətinin təhlili
- Pul vəsaitlərinin hərəkətinin təhlili

**Maliyyələşmə mənbələrinin və uzunmüddətli ödəmə qabiliyyətinin təhlili**
- Şəxsi kapitalın təhlili
- Borc kapitalının təhlili
- Kapital dəyərinin təhlili
- Passiv strukturunun təhlili

**Maliyyə fəaliyyətinin nəticələrinin təhlili**
- Maliyyə nəticələrinin daxili və xarici təhlili
- Performans təhlili və kapital qoyuluşu
- Qərarların təhlili. "Məsrəf-Həcm-Mənfəət" əlaqəsinin təhlili
- Qiymətli kağızlar bazarında fəaliyyətin təhlili

**Perspektiv maliyyə təhlili və strateji qərarların əsaslandırılması**
- Təşkilatın inkişaf strategiyasının təhlili
- İnvestisiya qərarlarının təhlili
- Qiymətləndirmə və dəyər göstəriciləri

**Sxem 2. O.V.Yefimova metodikasına görə təhlilin istiqamətləri**

Maliyyə təhlilində istifadə olunan digər bir metodika O.V.Yefimova tərəfindən təklif olunub. Metodikaya görə maliyyə təhlilinin aparılması aşağıdakı dörd mərhələni əhatə etməlidir:

- məlumatın ilkin qiymətləndirilməsi. İlkin qiymətləndirmə özündə məlumatın etibarlığı, balans göstəricilərinin ümumi qiymətləndirilməsi və təhlilin detallaşdırılması istiqamətlərini cəmləşdirir;
- maliyyə əmsallarının hesablanması və nəticələrin şərhi əsasında mövcud maliyyə vəziyyətinin ekspres təhlili;
- subyektin fəaliyyətinin daxili və xarici məlumatlarla dərin təhlili;
- qəbul edilmiş qərarlar nəzərə alınmaqla əsas maliyyə göstəricilərinin proqnoz təhlili və maliyyə sabitliyinin qiymətləndirilməsi [4, s. 26-29].

Metodikanın əsas üstünlüyü perspektiv təhlil istiqamətin olması və informasiya bazasının yalnız maliyyə hesabatları ilə məhdudlaşmamasıdır, beləliklə, daha dərin təhlil aparılmasına zəmin yaradılır. Bundan əlavə, metodikada maliyyə təhlilinin nəticələrində investisiya və maliyyə qərarları əsaslandırılır, müəssisənin inkişaf məqsədlərinə uyğunluq dərəcəsi müəyyənləşdirilir və təşkilatın maliyyə strategiyasının ümumiləşdirilmiş qiymətləndirməsi verilir. Əmlak strukturunun və dinamikasının təhlilinə geniş yer verilməməsi isə metodikanın zəif cəhəti kimi qeyd olunur.

Nisbətən daha çoxyönlü və MHBS əsaslı olan bu metodikanın beynəlxalq standartlara əsaslanan uçot sistemi olan səhmdar cəmiyyətlər səviyyəsində tətbiqi olduqca müsbət səmərə verə bilər.

**V.V.Kovalyov metodikası**

Maliyyə təhlilində istifadə olunan digər bir metodika isə V.V.Kovalyovun təklif etdiyi metodikadır. O, maliyyə təhlilini ekspres təhlil və dərin maliyyə təhlilinə bölür. Ekspres təhlil maliyyə vəziyyəti haqqında ümumi bir fikir yaradır, dərin maliyyə təhlili isə ekspres təhlil prosedurlarını tamamlayır. Metodika ekspres təhlili aşağıdakı üç mərhələdə aparmağı təklif edir:

- hazırlıq - maliyyə hesabatlarının məlumat və rekvizitləri vizual olaraq yoxlanılır;
- maliyyə hesabatlarına ilkin baxış - hesabatlardakı keyfiyyət dəyişiklikləri, fəaliyyət göstəricilərindəki meyillər və izah qeydləri nəzərdən keçirilir;
- maliyyə hesabatlarının iqtisadi oxunuşu və təhlili - fəaliyyət nəticələrinin və maliyyə vəziyyətinin ümumiləşdirilmiş qiymətləndirilməsi aparılır [5, s. 227].

V.V.Kovalyov dərin maliyyə təhlili üzrə aşağıdakı təhlil istiqamətlərini müəyyənləşdirir [5, s. 290]:

**Sahibkarlıq subyektinin iqtisadi və maliyyə vəziyyətinə ilkin baxış**
- Maliyyə-təsərrüfat fəaliyyətinin ümumi istiqamətinin təsviri
- "Zəif" hesabat maddələrinin müəyyənləşdirilməsi

**Əmlak potensialının qiymətləndirilməsi**
- Analitik balansın qurulması
- Balansın şaquli və üfüqi təhlili
- Mülkiyyət potensialında keyfiyyət dəyişikliklərinin təhlili

**Maliyyə potensialının qiymətləndirilməsi**
- Likvidliyin və ödəmə qabiliyyətinin qiymətləndirilməsi
- Maliyyə sabitliyinin qiymətləndirilməsi

**Maliyyə və təsərrüfat fəaliyyətinin səmərəlilyinin qiymətləndirilməsi və təhlili**
- Cari fəaliyyətlərin səmərəliyinin qiymətləndirilməsi
- Mənfəət və rentabelliyin təhlili
- Qiymətli kağızlar bazarının təhlili

**Aktivlər, kapital və öhdəliklərlə bağlı maliyyə qərarlarının analitik əsaslandırılması**
- Uzunmüddətli aktivlərin təhlili və idarə edilməsi
- İnvestisiya qərarlarının analitik əsaslandırılması
- Maliyyə aktivləri ilə bağlı qərarların analitik əsaslandırılması
- Pul vəsaitlərinin təhlili və idarə edilməsi

**Maliyyə təhlilinin xüsusi bölmələri**
- İnflyasiya baxımından təhlilin xüsusiyyətləri
- Qeyri-qənaətbəxş balans quruluşunun proqnozlaşdırılması
- Maliyyə təhlilinin beynəlxalq aspektlərinin qiymətləndirilməsi

**Sxem 3. V.V.Kovalyovun metodikasına görə təhlilin istiqamətləri**

Metodikanın əsas xüsusiyyətləri ekspres və dərin təhlili özündə birləşdirməsi, inflyasiya amilinin təhlilə təsirinin və sektor üzrə göstəricilərin dinamikasının nəzərə alınması, həmçinin proqnoz və beynəlxalq uçot əsaslı modelin qurulmasıdır. Metodikanın zəif cəhəti isə tətbiq alqoritminin peşəkarlıq və vaxt tələb etməsidir.

O.V.Yefimova və V.V.Kovalyovun maliyyə təhlilinin predmetinə "geniş" kontekstdə yanaşdığını nəzərə alaraq qeyd etməliyik ki, təklif olunan hər 2 metodika MHBS-ə uyğunlaşdırılmış, xarici və daxili mühit amillərinin nəzərdən keçirilməsinə əsaslanan innovativ və peşəkarlıq tələb edən metodikalardır. Hesab edirik ki, hər iki metodika korporativ idarəetmədə istifadə oluna biləcək qədər detallıdır və maliyyə qərarlarının

UNEC Elmi Xəbərləri, İl 8, Cild 8, iyul-sentyabr, 2020, səh. 57 - 70
Scientific Reviews in UNEC, Year 8, Volume 8, July-September, 2020, pp. 57 - 70

qəbul edilməsi prosesində daha yüksək analitikliyə sahibdir. Sözsüz ki, bu metodikaların tətbiqi üçün müəyyən bir peşəkarlıq səviyyəsi də tələb olunur.

**S.İ.Krılov metodikası**

Zənnimizcə, maliyyə təhlilində təqdirəlayiq digər bir metodika S.İ.Krılova məxsusdur. Metodikaya görə təhlil dörd mərhələdə həyata keçirilməlidir:

- Ekspres maliyyə təhlili;
- Dərin maliyyə təhlili;
- Maliyyə nəticələrinin və maliyyə vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş tövsiyələrin hazırlanmasına daxil olan maliyyə təhlili nəticələrinin yekunlaşdırılması;
- Maliyyə nəticələrinin və maliyyə vəziyyətinin proqnozlaşdırılması [6, s. 7].

S.İ.Krılov metodikasına görə təhlilin aşağıdakı istiqamətləri var [6, s. 8-9]:

Təşkilatın maliyyə vəziyyətinin təhlili

- Əmlak vəziyyətinin təhlili
- Maliyyə sabitliyinin təhlili
- Ödəmə qabiliyyəti və likvidliyin təhlili
- İşgüzar fəaliyyətin təhlili
- Maliyyə vəziyyətinin reytinq qiymətləndirilməsi
- Maliyyə müflisləşməsinin qiymətləndirilməsi
- Maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün ehtiyatların müəyyənləşdirilməsi

Təşkilatın maliyyə nəticələrinin təhlili

- Vergidən əvvəl mənfəətin, satışdan mənfəətin təhlili
- Digər fəaliyyətlərdən mənfəətin təhlili
- Xalis mənfəətin və ümumi maliyyə nəticənin təhlili
- Maliyyə nəticələrini yaxşılaşdırmaq üçün ehtiyatların müəyyənləşdirilməsi

Maliyyə təhlilinin xüsusi bölmələri

- İnflyasiya şəraitində maliyyə təhlili
- Konsolidə edilmiş maliyyə hesabatlarının təhlili
- Seqment hesabatının təhlili
- BMHS-a keçid kontekstində maliyyə təhlili
- Proqnoz maliyyə təhlili

**Sxem 4. S.İ.Krılov metodikasına görə təhlilin istiqamətləri**

Sadə alqoritmin olması, konsolidə edilmiş və seqment hesabatların təhlilinə ayrıca yanaşma, müflisləşmə ehtimalının qiymətləndirilməsi metodikanın əsas üstünlüyüdür. Hesab edirik ki, müəllifin metodikası müəyyən mənada Yefimova və Kovalyov metodikalarının modifikasiya edilmiş məcmusudur.

Metodika mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən istifadə oluna biləcək universal xüsusiyyətlərə malikdir. Mikro və kiçik müəssisələrdə daha sadələşdirilmiş versiyasının (maliyyə vəziyyətinin və maliyyə nəticələrinin təhlili) tətbiqi faydalı olacaqdır.

**Y.Əhmədov metodikası**

Yerli alimlərimizdən Y.Əhmədov tərəfindən hazırlanmış metodika da təhlil üçün əlverişlidir. Tədqiqatçı maliyyə təhlilinin aparılması metodikası aşağıdakı mərhələlərini müəyyənləşdirmişdir:

1. Təhlilin məqsəd və vəzifələrinin formalaşdırılması;
2. Təhlil obyektlərinin seçilməsi;
3. Hər bir obyekt üzrə tədqiqat üsullarının təsviri;
4. Təhlilin əsasında məlumat mənbələrinin seçilməsi;
5. Təhlilin prosedur ardıcıllığı, müddət, vəzifə bölgüsü və s. müəyyənləşdirilməsi;
6. Təhlil prosesinin həyata keçirilməsi;
7. Təhlilin nəticələrinin yekunlaşdırılması və müvafiq istifadəçilərə təqdim edilməsi [7, s. 34-35].

Y.Əhmədovun metodikası təhlilə daha sistemli yanaşma tələb edir və nisbətən daha elmi biliklərə əsaslanan tətbiq alqoritminə malikdir. Metodikanın təhlil istiqamətləri isə S.İ.Krılov metodikasının istiqamətləri ilə oxşardır. Məhz buna görə bu metodika da milli iqtisadi xüsusiyyətlər kontekstində çıxış edərək mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən tətbiq olunacaq faydalı bir metodikadır.

**S.Müslümov və R.Kərimov metodikası**

Maliyyə təhlilinin metodikası barədə S.Müslümov və R.Kazımovun da fikirləri əhəmiyyətlidir. Tədqiqatçılar təhlilin keyfiyyətini bilavasitə onun metodikası ilə əlaqələndirsələr də, maliyyə təhlilinə dair ümumi metodika yox, konkret istiqamətlər üzrə - iqtisadi subyektin maliyyə vəziyyətinin reytinq qiymətləndirilməsi və ekspres təhlil üzrə metodikaları təklif etmişlər. Təklif olunan ekspres təhlil metodikası əvvəlki metodikalara bənzərdir. Reytinq qiymətləndirilməsi isə aşağıdakı 4 mərhələdə aparılır:

- İnformasiyaların toplanması və işlənməsi;
- Göstəricilər sisteminin müəyyənləşdirilməsi və təsnifləşdirilməsi;
- Yekun göstəricilərin hesablanması;
- Reytinqə görə təsnifləşdirmə [8, s. 101].

Tədqiqatçıların metodikasında aşağıdakı təhlil istiqamətləri fərqləndirilir:

**Müəssisənin maliyyə vəziyyətinin ümumi qiymətləndiriməsi**

- Mühasibat balansının iqtisadi oxunuşu və balansın valyutasının ümumi təhlili

**Müəssisənin maliyyə sabitliyinin təhlili**

- Müəssisənin maliyyə sabitliyinin göstəricilər sistemi və onların analitik qiymətləndirilməsi
- Xüsusi kapitalın artırılması - müəssisənin maliyyə sabitliyinin yaxşılaşdırılmasının təhlili
- Müəssisənin maliyyə vəziyyətinin qısamüddətli proqnozlaşdırılması

**Müəssisənin ödəmə qabiliyyətinin təhlili**

- Balansın likvidliyinin təhlili
- Müəssisənin ödəmə qabiliyyətinin təhlili
- Müəssisənin reytinqinin qiymətləndirilməsi
- Müəssisənin müflisləşməsi ehtimalının analitik qiymətləndirilməsi

**Kapitaldan istifadənin səmərəliyinin və intensivliyinin təhlili**

- Müəssisənin işgüzar fəallığının təhlili
- Dövriyyə kapitalından istifadənin təhlili
- Xüsusi və borc kapitalından istifadənin səmərəliyinin təhlili
- İstehsal-maliyyə levericinin təhlili

**Müəssisənin maliyyə nəticələrinin təhlili**

- Əməliyyat (balans) mənfəətinin tərkibi və dinamikasının təhlili
- Məhsul (iş, xidmət) satışından mənfəətin, vergi tutulan mənfəətin və mənfəətdən vergilərin təhlili
- Xalis mənfəətin formalaşması və istifadəsinin təhlili
- Rentabelliyin göstəricilər sistemi və onların amilli təhlili
- Mənfəət və rentabelliyin artırılması ehtiyatlarının qiymətləndirilməsi
- Müəssisənin divident siyasətinin təhlili

**Marjinal təhlil əsasında biznesdə idarəetmə qərarlarının əsaslandırılması**

- Satışın həcmi, maya dəyəri və mənfəət göstəriciləri arasında funksional əlaqənin təhlili
- İstehsalın zərərsizlik səviyyəsinin təhlili
- Məhsulun maya dəyərindən aşağı satış qiyməti ilə əlavə sifarişlərin qəbul edilməsi haqqında qərarın analitik qiymətləndirilməsi
- Yeni məhsul üzrə qiymət variantlarının əsaslandırılması
- Əmtəəlik məhsulun strukturunun əsaslandırılması
- İstismar dövründə şərti-sabit xərclərin örtülməsi variantlarının təhlili
- İstehsal gücünün artırılması haqqında qərarın əsaslandırılması
- "İstehsal etmək və ya satın almaq" qərarının əsaslandırılması

**Maliyyə təhlilinin xüsusi bölmələri**

- Mühasibat uçotu və hesabatının beynəlxalq standartları şəraitində mənfəət və rentabelliyin təhlili
- Qiymətli kağızlarla əməliyyatların təhlili
- Sahibkarlıq riskinin təhlili
- İnflyasiyanın maliyyə xarakterli qərarların qəbul olunmasına təsiri

**Sxem 5. S.Müslümov və R.Kərimov metodikasına görə təhlilin istiqamətləri**

Metodika dərin elmi biliklərə söykənir və böyük həcmli analitik informasiyaların işlənməsi zərurətini ortaya qoyur. Bu isə metodikanın əlçatanlığını məhdudlaşdırır.

Hesab edirik ki, metodikanın kompleks xüsusiyyətlərini, böyük təhlil bilikləri tələb etməsini və daxili maliyyə təhlilində dərin təhlilin aparılmasını tələb etməsi bu metodikanın korporativ idarəetmə sisteminə malik olan holdinq və müəssisələrdə tətbiq edilməsi zərurətini ortaya qoyur.

### C.M.Valen metodikası

Qərb mənbələrində maliyyə təhlilinin metodikası haqqında fikirlərdən biri Ceyms Valen və həmkarlarına məxsusdur. Onların təklif etdiyi metodika aşağıdakı kimidir:

1. Sənayedə iqtisadi xarakteristikaların və rəqabət dinamikasının müəyyənləşdirilməsi;
2. Şirkət strategiyalarının müəyyənləşdirilməsi;
3. Maliyyə hesabatlarının keyfiyyətinin qiymətləndirilməsi;
4. Rentabelliyin və riskin təhlili;
5. Gələcək maliyyə vəziyyətinin proqnozlaşdırılması;
6. Şirkətin investisiya dəyərləndirilməsi [9, s. 3].

Hesab edirik ki, təklif olunan metodika investisiya istiqamətli təhlilin həyata keçirilməsi üçün digər metodikalara nisbətən daha münasibdir və əsas məqsədi qiymətli kağızlara yatırımlar barədə qərar qəbul etməyə yardımçı olmaqdır. Məhz buna görə də, maliyyə bazarlarının inkişaf etdiyi ölkələrdə tətbiqi daha məqsədəuyğundur. Əsasən inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində tətbiq olunan metodika ölkəmizdə mühasibat uçotu sistemini MHBS əsasında quran, maliyyə bazarlarında aktiv iştirak edən, investisiya xarakterli əməliyyatlar həyata keçirən, beynəlxalq miqyasda fəaliyyət göstərən müəssisələr üçün tətbiqi səmərəli olacaqdır.

### S.H.Penman metodikası

Qərb mənbələrində təklif olunan digər bir metodika S.H.Penmana aiddir. O, aşağıdakı maliyyə təhlili metodikasını təklif etmişdir:

1. Maliyyə təhlilinin məqsədi və məzmununun müəyyənləşdirilməsi;
2. Müxtəlif mənbələrdən təhlil üçün lazım olan məlumatların toplanması;
3. Toplanan məlumatların sadə çeşidləmə və məlumatların şaquli, üfüqi və trend təhlilinin aparılması;
4. Emal olunmuş məlumatlar əsasında təhlilin aparılması və nəticələrin şərh edilməsi;
5. Aparılan təhlillərdən irəli gələn nəticələr fonunda tövsiyələrin hazırlanması;
6. Təhlil prosesinin təkrarlanması və ehtiyac olduqda nəticə-tövsiyələrin yenilənməsi [10, s. 321].

Metodikaya əsasən təhlilin əsas istiqamətləri aşağıdakı kimidir [10, s.17]:

Maliyyə hesabatlarının təhlili

- Maliyyə hesabatlarının ümumi qiymətləndirilməsi
- Səhmdarların kapitalı hesabatının təhlili
- Balans hesabatı və gəlirlər haqqında hesabatın təhlili
- Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın təhlili
- Rentabelliyin təhlili
- İnkişaf və davamlı qazancın təhlili

Proqnozlaşdırma və qiymətləndirmə təhlili

- Əməliyyatların dəyərləndirilməsi, səhmin katirovka və qiymət/mənfəət əmsallarının qiymətləndirilməsi
- Maliyyə hesabatları üzrə ilkin - sadə proqnozlaşdırma və sadə qiymətləndirmə
- Tam proqnozlaşdırma, qiymətləndirmə və biznes strategiyasının təhlili

Uçot informasiyalarının təhlili və dəyərləndirmə

- Maliyyə hesabatlarının keyfiyyətinin təhlili
- Mühasibat dəyərlərinin təhlili

Riskin təhlili

- Kapital riskinin təhlili
- Kredit riskinin təhlili

**Sxem 6. S.H.Penman metodikasına görə təhlilin istiqamətləri**

Fikrimizcə, metodika mahiyyət etibarı ilə ilkin və dərin təhlilin təcəssümünə əsaslanır. Dinamik biznes fəaliyyəti ilə əlaqədar cari məlumatlar əsasında təhlilin periodik olaraq yenilənməsi metodikanın əsas üstünlüyüdür. Maliyyə bazarında fəaliyyətin, kredit və kapital riskinin təhlilini nəzərdə tutan metodika maliyyə bazarları inkişaf etmiş ölkələrdə tətbiq olunur.

Türk iqtisadi ədəbiyyatında maliyyə hesabatlarına əsaslanan xarici maliyyə təhlili üstünlük təşkil etdiyi üçün istər Ö.Akgüc, istərsə də İ.Lazol və A.Çabuk maliyyə təhlilinin aparılması üçün metodika müəyyənləşdirməmişlər. Hər üç alim təhlilin istiqamətlərini maliyyə hesabatlarına uyğun olaraq təyin edərək, inflyasiyanın maliyyə təhlilinə təsirinin qiymətləndirilməsini ayrıca istiqamət olaraq qeyd etmişlər [11, s. 290].

## Nəticə

Tədqiqatımızda qeyd etdiyimiz bütün metodikalar maliyyə təhlilinin həyata keçirilməsi üçün olduqca əhəmiyyətli və etibarlı vasitələrdir. Hesab edirik ki, bu metodikaların mütləq əksəriyyəti ölkəmizdə hazırkı şəraitdə birbaşa tətbiq olunması maliyyə təhlilindən gözlənilən nəticənin əldə olunmasına müsbət təsir etməyəcək, maliyyə təhlilinin inkişafına təkan verməyəcəkdir.

Rus alimləri tərəfindən formalaşdırlan metodikalarda müəssisənin idarəetmə prosesində maliyyə xarakterli məlumatların əldə olunmasına yönəlmiş dövriyyənin, xərclərin, eləcə də maya dəyərinin təhlili nəzərə alınsa da, Qərb tədqiqatçıları tərəfindən formalaşdırılan

metodikalar maliyyə resurslarına olan tələbat və kapital bazarlarının da inkişafının təsiri ilə daha çox investisiya və kredit xarakterli təhlillərin aparılmasına yönəlmiş riskin və şirkətin dəyərinin təhlilini nəzərdə tutur. Yerli iqtisadçı alimlərimiz tərəfindən formalaşdırılan metodikalar isə hər iki yanaşmanın xüsusiyyətlərini özündə daşıyır.

Əksər metodikaların tətbiq alqoritmlərinin professional yanaşma tələb etməsi (real sektorda fəaliyyət göstərən müəssisələrdə bu fəaliyyəti həyata keçirən mütəxəssislərin sayı olduqca azdır) və Azərbaycanda maliyyə təhlilinin maliyyə (bank və sığorta) sektorunda istisna olmaqla, digər sahələrdə "iqtisadi həyat"ın aktiv üzvü olmaması bizə daha optimal, tətbiqi sadə olan və hamılıqla anlaşıla biləcək maliyyə təhlili metodikasının tətbiqi zərurətini bir daha xatırladır.

Ölkəmizdə fəaliyyət göstərən iqtisadi subyektlərin fəaliyyət xüsusiyyətlərini, mühasibat uçotunun təşkili vəziyyətini, maliyyə hesabatlarının tərtibat və təqdimatı, müəssisələrdə müvafiq mütəxəssislərin azlığı kimi məsələləri nəzərə alsaq, fikrimizcə, maliyyə təhlilində təklif etdiyimiz aşağıdakı metodikanın tətbiqi daha səmərəli nəticə verə və əksər müəssisələr tərəfindən rahatlıqla tətbiq oluna bilər:

1. Təhlilin təşkili aspektlərinin ( məqsəd, vəzifə və obyektin) təyini;
2. Təhlilin metod və informasiya bazasının seçilməsi;
3. Təhlil üçün yararlı informasiyaların toplanması və etibarlığının qiymətləndirilməsi;
4. Analitik cədvəllərin hazırlanması və metodlardan istifadə etməklə təhlilin aparılması;
5. Əldə olunmuş göstəricilər əsasında meyillərin müəyyənləşdirilməsi, müəssisədaxili (keçmiş dövr, normativ, plan) və xarici (digər müəssisə və sektor) məlumatları ilə müqayisəsi;
6. Nəticələrin yekunlaşdırılması və tövsiyələrin hazırlanması;
7. Analitik nəticələrə əsaslanaraq müəssisənin proqnozunun hazırlanması.

Təklif olunan metodikanın sadə alqoritmə malik olması, informasiyaların etibarlığının təyin edilməsi və gələcək fəaliyyətə dair proqnozların verilməsini onun əsas üstünlükləri kimi qiymətləndirmək olar. Həmçinin analitik cədvəllərin istifadəsi təhlil prosesini daha da sadələşdirmiş olacaq, milli iqtisadiyyatın bütün sahələrində fəaliyyət göstərən müəssisələrin sahə xüsusiyyətlərini neytrallaşdırmaqla vahid yanaşmanı təmin edəcəkdir. Beləliklə, müəssisələrdə təhlil üçün əlavə resurs istifadəsi problemi həll olunacaq və iqtisadi qərar vermənin analitik keyfiyyət təminatı daha da yüksələcəkdir, mikro, kiçik və orta sahibkarlıq subyektlərində istifadə olunacaq bir vasitəyə çevriləcəkdir.

**Ədəbiyyat**

1. Əliyev R. Elmi işlərin yerinə yetirilməsi metodikası. Elmi layihələrin, diplom və dissertasiya işlərinin uğurlu hazırlanmasına dair vəsait./ R.Əliyev -Bakı: "Alatoran yayınları" nəşriyyatı, -2016 -146 s.;
2. Шеремет А. Д. Методика финансового анализа / А. Д. Шеремет, Р. С. Сайфулин, Е. В. Негашев - М:«ИНФРА-М» - 2000 – 208 с.;

3. Шеремет А. Д. Методика финансового анализа деятельности коммерческих организаций 2-е изд./ А.Д. Шеремет, Е.В. Негашев – М.: ИНФРА-М –2008 – 208 с.;
4. Ефимова О. В. Финансовый анализ: современный инструментарий для принятия экономических решений:учебник/ О.В. Ефимова.—3-е изд.,испр.идоп. — М. : Издательство «Омега-Л» — 2010 — 351 с.;
5. Ковалев В. В. Финансовый анализ:Методы и процедуры/ В.В. Ковалев -М.:Финансы и статистика, -2002 -560 с.;
6. Крылов С. И. Финансовый анализ: учебное пособие / С. И. Крылов —Екатеринбург :Изд-во Урал. ун-та —2016 —160 с.;
7. Maliyyə-iqtisadi təhlil/ Y.B.Əhmədov, M.H.İsmayılov, M.M.Mehdiyeva [və b.] - Bakı: "Mütərcim" nəşriyyat poliqrafiya mərkəzi -2012-770 s.;
8. Müslümov S.Y. Maliyyə təhlili (dərslik)/ S.Y.Müslümov, R.N.Kazımov - Bakı: Azərnəşr -2011 -312s.;
9. Wahlen J.M. Financial Reporting, Financial Statement Analysis, and Valuation: A Strategic Perspective, Seventh Edition/ J.M.Wahlen, S.P. Baginski, M.T. Bradshaw – Natorp: Cengage Learning, - 2008 -1247;
10. Penman S.H. Financial statement analysis and security valuation/S.H. Penman – NY: McGraw-Hill -2013 – 740;
11. A. Çabuk. Mali Tablolar Analizi/ Çabuk A., Lazol İ. – Bursa: Ekin kitabevi yayinlari –2018 -340s.

# ƏMƏK RESURSLARININ BEYNƏLXALQ MOBİLLİYİNİN TƏNZİMLƏNMƏSİNİN TƏŞKİLATİ-METODOLOJİ ƏSASLARI VƏ ƏMƏK MİQRASİYASININ ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ GÖSTƏRİCİLƏRİ

*Daxil olub: 21 sentyabr 2020-ci il;*
*Qəbul olunub:05 noyabr 2020-ci il*
*Received: 21 September 2020;*
*Accepted: 05 November 2020*

***E.İ.Hüseynova***[1]
[1]*doktorant, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu*
[1]*elnuraziyali@gmail.com*

**Xülasə**
Məqalədə qeyd edilir ki, əmək resurslarının beynəlxalq mobilliyinə dair metodoloji yanaşmaları təhlil edib, bu sahədə istifadə edilən mexanizmləri dəqiqləşdirmək gərəkdir. Məqalədə qarşıya qoyulan əsas vəzifələrdən biri əmək resurslarının beynəlxalq mobilliyinə dair müxtəlif metodoloji yanaşmaları təhlil edərək, tənzimləmə vasitələrini açıqlamaq, təhlil edərək sistemləşdirməkdən ibarətdir.
Digər vəzifə isə əmək resurslarının beynəlxalq mobilliyinin qiymətləndirilməsi göstəricilərini müəyyən etməkdir. Məqalədə müəllif tərəfindən əmək resurslarının beynəlxalq mobilliyinin qiymətləndirilməsi göstəricilərinin xüsusiyyətləri şərh edilmişdir. Məqalədə təhlil və qruplaşdırma metodundan istifadə olunmuşdur. Tədqiqatda əmək resurslarının beynəlxalq mobilliyinin tənzimlənməsində məhdudiyyətlər və güzəştlər verilməklə Azərbaycanda həyata keçirilən tənzimləmə mexanizmləri açıqlanmışdır. Tədqiqat nəticəsində metodologiya və göstəricilər təhlil edilərək ümumiləşdirmə aparılmışdır.

***Acar sözlər**: Əmək ehtiyatı, əmək resurslarının mobilliyi, miqrasiya, metod, tənzimləmə.*

# ORGANIZATIONAL AND METHODOLOGICAL BASES OF REGULATION OF INTERNATIONAL LABOR MOBILITY AND INDICATORS FOR ASSESSING THE IMPACT OF LABOR MIGRATION ON THE ECONOMIC DEVELOPMENT OF THE COUNTRY

***E. İ. Huseynova***[1]
[1]*PhD student, İnstitute for scientific research on economic reforms*
[1]*elnuraziyali@gmail.com*

**Abstract**
The purpose of the study is to analyze methodological approaches to the international mobility of labor resources and to clarify the mechanisms used in this area. Research and grouping methods are used in the research. In the research work, various methodological approaches to the international mobility of labor resources were analyzed,

the means of purification were explained, analyzed and systematized. Also, indicators for assessing the international mobility of labor resources were identified, the features of the indicators for assessing the international mobility of labor resources were commented. The limitation of the study is that it requires more statistical information. As a result of the study, there are no restrictions or concessions in the regulation of international labor mobility. Regulatory mechanisms implemented in Azerbaijan have been announced. The practical significance of the research is the analysis and generalization of the methodology and indicators and the possibility of using the indicators.

***Keywords:*** *Labor force, labor mobility, migration, method, regulation.*

## ОРГАНИЗАЦИОННО-МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ РЕГУЛИРОВАНИЯ МЕЖДУНАРОДНОЙ МОБИЛЬНОСТИ РАБОЧЕЙ СИЛЫ И ПОКАЗАТЕЛИ ОЦЕНКИ ВЛИЯНИЯ ТРУДОВОЙ МИГРАЦИИ НА ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ СТРАНЫ

***Э. И. Гусейнова***[1]
*[1]Докторант, Научно-исследовательский институт экономических реформ*
[1]elnuraziyali@gmail.com

**Резюме**
Цель исследования - проанализировать методологические подходы к международной мобильности трудовых ресурсов и уточнить механизмы их использования в этой области. Одной из основных задач, поставленных в этом исследовании является анализ различных методологических подходов к международной мобильности рабочей силы, выявление и систематизация средств ее регулирования. Другой задачей является также выявление показателей оценки международной мобильности трудовых ресурсов, разъяснение особенностей показателей оценки международной мобильности трудовых ресурсов. В исследовании использованы методы анализа и группировки. Ограничением исследования является необходимость наличия более широкой статистической информации. В результате исследования выявлены механизмы регулирования международной мобильности трудовых ресурсов в Азербайджане, с учетом ограничений и льгот. Практическая значимость исследования заключается в обобщении путем анализа методологии и индикаторов, и демонстрации возможностей использования индикаторов.

***Ключевые слова:*** *Трудовые резервы, мобилизация трудовых ресурсов, миграция, методы, регулирование.*

## Giriş

Həm qəbul edən, həm də ixrac edən ölkələrin iqtisadiyyatına təsirinin birmənalı qiymətləndirilmədiyinə baxmayaraq, əmək resurslarının miqrasiyası və mobilliyinin sürətlənməsi tendensiyası dünya üzrə artmaqdadır və ölkələrin əmək bazarına təsir edir. İntensiv şəkildə davam edən əmək resurslarının miqrasiyası və mobilliyi ölkələrin iqtisadi, siyasi, sosial, demoqrafik və mədəni inkişafının aparıcı amilinə çevrilir. Dünya səviyyəsində nəinki konkret ölkələr, hətta regionlar iş yerlərinin, "ağılların" əldə edilməsi üçün beynəlxalq rəqabətə qoşulmaqla bu prosesi strateji hədəfə çevirib. Əmək resurslarının beynəlxalq mobilliyi prosesindən udan və uduzan tərəflərin olması halı ölkə səviyyəsində bu problemə daha həssas yanaşmanı tələb edir. Xarici işçi qüvvəsi ölkənin əmək qabiliyyətli əhalisinin tərkibində əhəmiyyətli çəkiyə malik olmadıqda, konkret əmək bazarına onun cəlb edilməsi ilə bağlı qərarın qəbulunda xüsusi ixtisaslı, peşəli xarici işçi qüvvəsinin cəlb edilməsində selektiv seçimin mövcudluğu iqtisadi səmərənin əldə edilməsi, əməyin məhsuldarlığının yüksəldilməsi baxımından mühüm rol oynayır. Əmək şərtləri və şəraitinin beynəlxalq standartları, işçi qüvvəsinin cəlbi müqavilələri təkmilləşdirilir. Yeni yanaşmalar və tələblər bir sıra normativ-hüquqi aktların qəbulunu və yenilənməsini zəruri edir.

## Əmək resurslarının beynəlxalq mobilliyinin tədqiqat metodologiyası

Əmək resurslarının beynəlxalq mobilliyinin tədqiqat metodologiyasına bir sıra nəzəriyyələr təsir etmişdir. Belə ki, ingilis alimi Ernest Georg Ravenşteynin əmək resursları miqrasiyası ilə bağlı təklif etdiyi 11 qanun əhəmiyyətli həcmli əmək resurslarının axınlarının hərəkəti və uyğunlaşmasını anlamaq və sistemləşdirmək üçün klassik nəzəriyyədə ilk cəhd idi [5; 14; 21]. Onlar qeyd etmişlər ki:

1. Miqrasiyanın əksəriyyəti qısa məsafələrdə həyata keçirilir.
2. Miqrasiya tədricən, addım-addım baş verir.
3. Uzun məsafəli miqrasiya əsasən böyük ticarət və sənaye mərkəzlərinə yönəlir.
4. Hər bir miqrasiya axınına uyğun əks axın var.
5. Şəhər sakinləri miqrasiya məsələsinə daha az meyillidir.
6. Qadınlar daxili miqrasiyada, kişilər isə beynəlxalq miqrasiyalarda daha fəaldırlar.
7. Miqrantların əksəriyyəti tək adamlardır, ailələr nadir hallarda vətənlərindən kənara miqrasiya edirlər.
8. Böyük şəhərlərin böyüməsi, təbii artımdan daha çox əhalinin miqrasiyası ilə əlaqədardır.
9. Miqrasiya miqyası sənayenin və ticarətin, xüsusilə də nəqliyyatın inkişafı ilə artır.
10. Kənd yerlərindən miqrantların əksəriyyəti böyük sənaye və ticarət mərkəzlərinə yönəlir.
11. Miqrasiyanın iqtisadi səbəbləri üstünlük kəsb edir.

Lakin gördüyümüz kimi, bu qanunların heç də hamısı günün tələblərinə cavab vermir və reallığa uyğun gəlmir.

Digər tədqiqatçı alim Samuel Stouffer miqrasiya axınlarına mane olan yerdəyişmə xərcləri, qanunvericilik, məlumatın olmaması və digər amilləri qeyd edərək bildirir ki, hərəkət edən insanların sayı perspektivlərin (onlar üçün yaradılan imkanların) sayı ilə düz və maneə (müdaxilə olunma) halların sayı ilə tərs mütənasibdir [14; 22].

Corc K.Zipf miqrasiyanın cazibə modelini nəşr etdirərək qeyd edir ki, "ən az səy prinsipi"nə görə seçim olarsa, insanlar ən az müqavimət və xərc tələb edən davranışı seçirlər [28; 22].

Qeyd etməliyik ki, hər iki müəllifin - Stouffer və Zipfin işləri müasir miqrasiya tədqiqatlarında mühüm rol oynayan riyazi modelləşdirmə metodlarının inkişafına zəmin yaratdı.

Everett S.Li 1966-cı ildə "Miqrasiya nəzəriyyəsi" məqaləsində miqrasiya fəaliyyətinə təsir edən müxtəlif amilləri araşdıraraq onları əmək resurslarının mobilliyinin aktivləşməsinə (cəlbedici) və bu proseslərə mane olan (itələyən) amillərə ayırmışdır [16]. Müəllif bu iqtisadi amilləri cəlbedici hesab edir:

- iqtisadi inkişaf səviyyəsi və əməkhaqqı,
- immiqrantlar üçün əmək bazarının əlçatanlığı,
- iqtisadiyyatın qeyri-rəsmi sektoruna sərbəst giriş.

Məhdudlaşdırıcı amillərin tərkibi daha müxtəlifdir və bunlara E.Li aşağıdakıları daxil edir:

- iqtisadi (aşağı əməkhaqqı, yüksək işsizlik, yoxsulluq, donor ölkələrdə yüksək vergi);
- sosial (səhiyyə və təhsilə çıxışda məhdudiyyət, ayrıseçkilik);
- siyasi (siyasi və dini səbəblərə görə təqib, inqilab və müharibə, daxili münaqişələr).

Bundan əlavə, müəllif miqrantın gedəcəyi məsafədən asılı olaraq nəqliyyat xərcləri kimi aralıq amillərin də nəzərə alınmalı olduğunu diqqətə çatdırır.

Əlbəttə ki, belə bir qiymətləndirmə rasional mülahizələr əsasında formalaşır, lakin irrasional və emosional davranış amilləri prosesə təsir edir və bu nəzərə alınmalıdır. E.Li nəzəriyyəsinin digər bir məhdudiyyəti "müdaxilə maneələri"nin kəmiyyətlə ölçülə bilən empirik indikator göstəricilər sisteminə çevrilməsində çətinliyin olmasıdır. Buna baxmayaraq, bu model miqrasiya proseslərinin araşdırılmasında geniş istifadə olunur.

Daha sonralar Villyam Artur Levisin tədqiqatında əmək bazarında ifrat əmək təklifi şəraitində biznes üçün əmək təklif və tələbinin mikroiqtisadi prinsiplərinin əsas olduğu qeyd edilir [17].

Miqrasiyanı qlobal miqyasda təhlil edən V.Zelinski, tədqiqatlarını ayrı-ayrı ölkələrin meyilləri əsasında qurur. Onun "mobil keçid konsepsiyası" tarixi yanaşma ilə yanaşı,

ərazi mobilliyi ilə əlaqələndirilən demoqrafik, sosial-iqtisadi amilləri də əhatə edir. Üstəlik, onun yanaşmasında qloballaşma proseslərinə daha çox diqqət yetirilir [27]. Lakin bu tədqiqatda son onilliklərdə son dərəcə güclənən qloballaşma proseslərinin miqrasiya axınlarının dinamikasına yüksək təsiri təhlil edilmir.

Mikro səviyyədə təhlillərin əsasını əmək resurslarını təklif edən donor və qəbul edən ölkələrdə əməkhaqqı səviyyəsinin təhlili təşkil edir. Bu əsasda Todoro - Harris modelini də qeyd etmək olar. Qadınların əməyini və mobilliyini, kənddən şəhərə əmək resurslarının axınının təhlili verilən bu modeldə qərarların qəbuluna təsir edən mənfi və müsbət halları hər miqrant mövqeyindən təhlil edilir [15].

Miqrasiyanın makroiqtisadi asılılıqlar və beynəlxalq səviyyə baxımından izah edən ilk nəzəriyyələrdən biri də M.Piore tərəfindən verilir və bu, seqmentləşdirilmiş (ikiqat) əmək bazarı nəzəriyyəsidir. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, işçilərə olan tələb müasir 4 fundamental xüsusiyyət (struktur inflyasiya, motivasiya problemləri, iqtisadi dualizm və işçi qüvvəsi demoqrafiyası) ilə əlaqəli olub, inkişaf etmiş sənayeləşmiş ölkələrin ehtiyacları ilə müəyyən edilir [20].

İ.Vallersteinin "ümumdünya miqrasiya sistemlərinin nəzəriyyəsi" [26] ölkələrin inkişaf baxımından müxtəlif qruplara: mərkəzi, yarı periferik, periferik və təcrid olunmuşlara bölünməsinə əsaslanır. Bu nəzəriyyəyə görə qloballaşmanın intensivləşməsi və ucuz işçi qüvvəsi ilə maraqlanan transmilli korporasiyalar tərəfindən stimullaşdırıcı tədbirlər nəticəsində işsizlərin periferik ölkələrdən mərkəzi ölkələrə axışması baş verir.

Beləliklə, əmək resurslarının beynəlxalq mobilliyi proseslərinin metodoloji əsaslarını təyin etməyə kömək edən müxtəlif nəzəri yanaşmaları [8;11] təhlil edərək aşağıdakı kimi qruplaşdıra bilərik.

**Cədvəl 1. Əmək resurslarının beynəlxalq mobilliyi proseslərinin metodoloji əsaslarına müxtəlif elmi yanaşmalar**

| Nəzəriyyələr | Problemə yanaşma |
|---|---|
| Merkantilizm (T.Men, J.B.Colbert) | Dövlət üçün rifahın mənbəyi əhali artımıdır, buna görə işçi qüvvəsi, xüsusən sənətkarlar üçün ölkəyə giriş imkanı artırılır və çıxış isə qadağan edilir. Ölkə daxilində işçilərin sayının artması daha çox əmtəə istehsalına, əmək xərclərini azaltmağa imkan verir ki, bu da mənfəət normasını artırır |
| Klassik siyasi iqtisad məktəbi (A.Smit, D. Ricardo, D.Mil, D.Stuart və başqaları) | Bazar qüvvələrinin təsiri altında beynəlxalq işçi qüvvəsinin sərbəst hərəkəti (kapital və mallarla birlikdə) ən çox ehtiyac duyulduğu sahələrə və sektorlara yönəlir. İşçilərin hərəkət istiqamətləri əməyin təklif və tələbi ilə müəyyən edilir və əməkhaqqı səviyyəsinin fərqlənməsi ilə əlaqələndirilir |
| Marksizm (K.Marks, F. Engels) | Fərqli əmək istismarı, iş şəraiti və əməkhaqqı ilə ifadə olunan dünya kapitalist iqtisadiyyatının qeyri-bərabər inkişafı əmək miqrasiyasını yaradır. Dünyada təkrar istehsalın qeyri-bərabər olması əcnəbi işçi qüvvəsinə olan tələbə və onun dünya iqtisadiyyatının mərkəzləri arasında qeyri-bərabər paylanmasına təsir göstərir. Bu da öz növbəsində donor ölkələrinin demoqrafik göstəricilərinə mənfi təsir göstərir |

| | |
|---|---|
| Keynsçilik (D.M.Keyns) | Bazar iqtisadiyyatı dövlət tənzimlənməsinə ehtiyac duyur, buna görə də, dünya əmək bazarı, beynəlxalq əmək miqrasiyası nəticəsində, ziddiyyətli milli maraqların toqquşma səhnəsidir |
| Neoklassik məktəb (C. Hicks, M.Fridman, P. Samuelson) | C.Hicksə görə ölkələr arasında qeyri-bərabər paylanan istehsal amilləri əməkhaqqı səviyyəsindəki fərqlərə səbəb olur ki, bu da digər ölkələrdəki əməkhaqqı haqqında tam və etibarlı məlumatlara güvənən bir işçini bu ölkələrdə işləmək perspektivlərini qiymətləndirməyə məcbur edir. Miqrasiya hərəkatı əməkhaqqı səviyyəsinin bərabərləşməsinə və dünya əmək bazarının sabitləşməsinə kömək edir.<br>M.Fridman və P.Samuelsona görə beynəlxalq miqrasiyanın hərəkətverici mexanizmi müxtəlif ölkələrdə müxtəlif səviyyələrdə əməkhaqqı ilə xarakterizə olunan əmək bazarıdır. Yüksək maaşlı ölkələr miqrantları cəlb edir. Maaş fərqlərinin aradan qaldırılması miqrasiya axınlarını dayandıracaqdır. Beləliklə, əmək bazarına təsir göstərməklə miqrasiya axınlarını idarə etmək imkanı var |
| İqtisadi tsiklların əks əlaqəsi nəzəriyyəsi (B.Tomas və başqaları) | Ölkədən ölkəyə əmək miqrasiyasının istiqaməti iqtisadi inkişafın dövri fazalarına əks olaraq müəyyən edilir (növbə ardıcıllığı əksinə düzülür) |
| Yeni miqrasiya iqtisadiyyatı anlayışı (O.Stark) | Miqrasiya, bir ailə (məişət) strategiyası olaraq qəbul edilir ki, bu da onların istehsal imkanlarının maliyyə məhdudiyyətlərinin aradan qaldırılması və gəlirlərin diversifikasiyası əsasında kəskin dəyişməsi riskini minimuma endirməyə yönəlmişdir. Tədqiqat obyekti miqrasiya etmək qərarı verən ailədir. Miqrantlar ölkələr arasındakı fərqlərdən istifadə edirlər və qlobal bərabərsizliyi öz mənfəət mənbəyinə çevirirlər. Daimi miqrasiyanın nəticəsi ya tam bərabərliyə nail olmaq, ya da daim mövcud olan miqrasiya hərəkəti ilə qeyri-sabit bir sistemin yaranması olacaqdır |
| Seqmentləşdirilmiş əmək bazarı nəzəriyyəsi, və ya ikili əmək bazarı nəzəriyyəsi (M.Piore, A.Portes, D. Solou, E.P.Pletnyov, C. Conston və başqaları) | M.Piore, A.Portes, D.Solouya görə beynəlxalq miqrasiya, iqtisadiyyatın struktur ehtiyacları səbəbiylə xarici işçi qüvvəsinə davamlı tələbin nəticəsidir.<br>E.P.Pletnyov, C.Constona görə dünya əmək bazarında dəqiq müəyyən edilmiş ərazi hüdudları yoxdur, hüdudlar əməyin ixracı və idxalı nəticəsində formalaşır və fəaliyyət göstərir, daim təkrarlanır, əmək bazarı dünyanın müəyyən bölgələrində xarici işçi qüvvəsinə tələb və təklifi, əməkhaqqının səviyyəsini müəyyənləşdirir, həmçinin siyasi, demoqrafik və digər proseslərdə dünya əmək bazarının dinamikası formalaşır |
| Ümumdünya (qlobal) miqrasiya sistemi konsepsiyası (I.Vallerstein) | Dünya sistemi çoxmədəniyyətli ərazi bölgüsüdür, burada istehsal və əsas malların mübadiləsi və istehsal amilləri bütün sakinlərinin gündəlik həyatı üçün zəruridir. Əmək bölgüsü coğrafi və mədəni xüsusiyyətlərinə görə fərqlənən dörd regional zonanın: mərkəz, yarı periferiya, periferiya və təcrid olunmuşlara bölünməsinə səbəb olur. Miqrasiya hərəkətinin səbəbi, əməkhaqqı səviyyəsindəki fərqdən əlavə, iqtisadi bərabərsizliyin ümumi şərtləri və periferik ölkələrdəki böhran vəziyyətidir |

| | |
|---|---|
| Yeni beynəlxalq iqtisadi qayda (D.Bhaqvati, V.Beninq və başqaları) | Konsepsiyanın mahiyyəti, immiqrasiya edən xarici işçilərin və hər şeydən əvvəl yüksəkixtisaslı kadrların istifadəsi üçün inkişaf etmiş ölkələrindən donor-inkişafda olan ölkələrə "daha tam və ədalətli kompensasiya mexanizmi"nin hazırlanmasıdır. Əcnəbi işçi qüvvəsinin təklifinə və müvəqqəti əmək miqrasiyasından bəhs edilsə də, diqqət qəbul edən ölkədə onun hərəkəti və istifadəsi ilə bağlı bütün xərclərin ödənilməsinə yönəlir |
| İnsan kapitalı nəzəriyyəsi (T.Şulz, G.Bekker) | Miqrasiya insan kapitalına qoyulan bir investisiyadır və o, bərpa olunan və artan bir resursdur. Miqrasiya ilə bağlı qərara aşağıdakılar təsir edir: vətəndə və potensial ölkədə məşğulluq şərtləri, yaş və miqrasiya xərcləri |

*Mənbə:müəllif tərəfindən tərtib edilib*

## Əmək resurslarının beynəlxalq mobilliyi prosesinə dövlət müdaxiləsi

Əmək resurslarının beynəlxalq mobilliyi prosesinə dövlət müdaxiləsi beynəlxalq bazarların tənzimlənməsindən daha əvvəl yaranmışdır. Müxtəlif dövlətlər tərəfindən artıq XIX əsrin sonlarında əmək resurslarının mobilliyini məhdudlaşdıran qadağalar, qanunlar qəbul edildi. Əksinə, iqtisadiyyatın perspektivli sahələri üçün mütəxəssislərin, nadir peşə nümayəndələrinin, elm, mədəniyyət, incəsənət və idman sahəsində dünyaca məşhur adamların, ölkənin iqtisadiyyatına sərmayə qoyan iş adamlarının mühacirəti təşviq edilirdi. Dünya dövlətlərində miqrantın hüquqi, siyasi və peşə statusu ilə bağlı qanunvericilik də daxil olmaqla, ölkələrarası əmək miqrasiyasını tənzimləmək üçün tədbirlər sistemi formalaşdırılmışdır. Miqrasiya siyasəti birbaşa əmək, ədliyyə və ya xarici işlər nazirliklərinin nəzdində yaradılan milli miqrasiya xidmətləri vasitəsilə birbaşa həyata keçirilir. İmmiqrasiya xidmətləri ölkəyə daxil olmaya nəzarət funksiyasını həyata keçirir. Onların vəzifələrinə əcnəbi işçilərin giriş vizalarının yoxlanması, icazələrin verilməsi, işəgötürənlərin işə qəbul üçün tələblərinin əcnəbi işçilərin əmək təklifləri ilə uyğunluğunun yoxlanması, onların işəgötürənlərlə əlaqələndirilməsi, habelə ölkədə keçirdikləri vaxta nəzarət edilməsi daxildir. Daim işçi cəlb olunmasına ehtiyacı olan əmək resursları idxal edən ölkələr immiqrasiya siyasətini ilk növbədə gələn immiqrant işçilərin sayının və keyfiyyətinin tənzimlənməsi tədbirlərinə əsaslanaraq həyata keçirir. Hər il üçün hesablanan və təsdiqlənən immiqrasiya kvotası tənzimləmə vasitəsi kimi istifadə olunur. Kvota müəyyən edilərkən ölkənin əcnəbi işçi qüvvəsinə olan ehtiyacı, cəlb edilmiş əhalinin müəyyən kateqoriyaları (gender tərkibi, yaş qrupları, təhsil və s.), həmçinin milli əmək və mənzil bazarlarının vəziyyəti, idxal edən ölkədəki siyasi və sosial vəziyyət nəzərə alınır.

Nəticə etibarı ilə əmək resurslarının beynəlxalq mobilliyinin xərcləri və faydaları inkişafın ümumiqtisadi dinamikasına uyğun olaraq, dövlət və ya regional yanaşmadan asılı olaraq təhlil edilir. Dünya iqtisadiyyatının və əmək bazarının qloballaşmasının ümumi tendensiyası ölkələrin sosial-iqtisadi inkişafına müasir çağırışlar qoyur, onların dünya iqtisadi münasibətlərində yerini və rolunu müəyyənləşdirir, əmək resurs-

larının beynəlxalq mobilliyi məsələlərində milli maraqların əlaqələndirilməsi problemlərini daha da artırır. Dəyişikliyin aparıcı amili kimi bu proseslərə iş qüvvəsini cəlb etmədən əhəmiyyətli iqtisadi dəyişikliklər etmək mümkün deyil. Əmək sahəsi daxili iqtisadiyyatın böyüməsi, səmərəliliyinin və rəqabətqabiliyyətlilik səviyyəsinin artırılmasının əsas elementidir. Bu səbəbdən "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasının qarşıya qoyduğu məqdəslərdən biri "üçüncü çağırış kimi - əsas siyasi və iqtisadi inkişaf amili kimi insan kapitalının rolunun artmasıdır. Bu baxımdan, aşağıdakı amillərin nəzərə alınması xüsusi zərurətdən irəli gəlir:

- ənənəvi iqtisadiyyat sahələrində fəaliyyət göstərən işçilərin sayının azaldılması, onların peşə ixtisas səviyyəsinin artırılması vasitəsilə daha mütərəqqi sahələrdə işlə təmin olunmasına şərait yaradılması;
- yerli kadr və isçi potensialının daxili və əcnəbi bazarlarda rəqabət qabiliyyətli sahələrdə fəaliyyət göstərməsinə imkan yaradan zəruri tədbirlər sisteminin həyata keçirilməsi;
- idarəetmə, elm, təhsil və səhiyyə sistemi işçilərinin beynəlxalq tələblərə uyğun qurulması və bu sahələrdə davamlı inkişafın təmin edilməsi" [4].

Bir çox müasir tədqiqatçılar (D.Yurkov, G.Bıçkov) artıq miqrasiyadan təsirlənən prosesləri deyil, miqrantın özü ilə bağlı prosesləri araşdırırlar, köçmək və ya köçməmək seçimini edə bilən şəxsi iqtisadi sistemin rasional agenti hesab edirlər [13]. Miqrasiyanı müşayiət edəcək fayda və xərclərin kəmiyyət göstəricilərinə əsaslanaraq fərdin qərar qəbul etməsi araşdırılır. Əhali hərəkətlərinin təhlili metodologiyasında inkişaf edən ölkələrdə və struktur dəyişikliyi olan ölkələrdə əhalinin hərəkətini həvəsləndirən struktur amillərin hərtərəfli təhlilində və yeni işçi qüvvəsinə tələbatın səbəblərinin müəyyənləşdirilməsində beynəlxalq miqrasiyanın çoxşaxəli modelinə əsaslanan Amerika sosioloqu D.Masseyin miqrasiya sintetik nəzəriyyəsi mühüm yer tutur. D.Massey miqrasiya motivlərini və beynəlxalq miqrasiya hərəkatının yaranma amillərini müəyyənləşdirmək, qiymətləndirmək və təhlil etmək üçün metodlar təklif etmişdir [19]. Artan miqrasiya yükü altında əmək miqrasiyasını idarə etmək getdikcə çətinləşir. Əmək miqrantlarının rast gəldiyi çətinlik, stimullar idarəetmə prosesində əksini tapır.

**Cədvəl 2. Ölkələr tərəfindən beynəlxalq əmək miqrasiyasına təsirlər**

| Əmək miqrantının növü | Maneələr | Güzəştlər |
|---|---|---|
| Emiqrantlar və immiqrantlar üçün | • dil maneəsi;<br>• dünyanın əksər ölkələri tərəfindən ali təhsil sənədlərinin tanınmaması;<br>• işçilərin və işçilərin ixtisaslarının aşağı olması; | • selektiv (seçim) miqrasiya siyasətinin formalaşması və təkmilləşdirilməsi, ölkələr (ərazilər) arasında ümumi iqtisadi zonaların (fəzaların) yaradılması; |

| | | |
|---|---|---|
| | • sosial xidmətlərin göstərilməməsi və ya kəmiyyət və keyfiyyətin aşağı olması;<br>• hökumət danışıqları həyata keçirmək, miqrasiya siyasətini məhdudlaşdıran və ya qadağan edən ("dəmir pərdə") və s. tədbirləri tətbiq etmək;<br>• adaptasiya problemi; miqrasiya ilə bağlı xərclərin (məsələn, nəqliyyat xərclərinin və s.) yüksək olması;<br>• informasiya çatışmazlığı və s. | • miqrantların hüquqlarını genişləndirən qanunların və digər qaydaların tətbiqi, ölkə sərhədlərinin açılması və miqrasiya siyasətinin tənzimləməsinin normativ bazasının formalaşdırılmasına liberal yanaşma |

*Mənbə:müəllif tərəfindən tərtib edilib.*

Bu gün xeyli sayda qlobal müəssisə və təşkilat (ilk növbədə BMT çərçivəsində), həmçinin regional qruplaşmalar əhalinin miqrasiyası və əmək ehtiyatları ilə bağlı problemlərlə məşğul olmaqda davam edir. Məsələn, BMT-nin Əhali yerləşdirilməsi Komissiyasında xüsusi fond var ki, onun bir hissəsi əhali miqrasiyası sahəsində milli proqramları subsidiya etmək üçün istifadə olunur. Beynəlxalq Əmək Təşkilatının (BƏT) fəaliyyəti, məqsədlərindən biri, ölkələrarası miqrasiyanın tənzimlənməsini təmin etməkdir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən qəbul edilmiş bir sıra beynəlxalq müqavilələrdə miqrant işçilərin fiziki vəziyyətlərinə aid xüsusi qaydalar mövcuddur. YUNESKO sənədlərində miqrant işçilərin və onların ailə üzvlərinin təhsillərinin yaxşılaşdırılmasına yönəlmiş müddəalar mövcuddur. Beynəlxalq Miqrasiya Təşkilatının məqsədli, nizamlı və planlı ölkələrarası miqrasiyanı, onun təşkilini, bu məsələlərdə təcrübə və məlumat mübadiləsini təmin etmək sahəsində rolu hər il artır. Bundan əlavə, Qərbi Avropada Hökumətlərarası Miqrasiya Komitəsi öz fəaliyyəti ilə miqrant işçilərin hüquqlarının təmin edilməsinə və qorunmasına öz töhfəsini verir [9].

Hazırda bir sıra MDB ölkələri risklərin qiymətləndirilməsi və milli əmək bazarlarının qorunması modelindən imtina etməyə hazırdırlar. Miqrasiya siyasəti sahəsində MDB ölkələri Vahid İqtisadi Məkan daxilində işçilərin sərbəst və məhdudiyyətsiz hərəkətinə razıdırlar. Vahid İqtisadi Məkan çərçivəsində, 2011-ci ildə iştirakçı dövlətlərin vətəndaşlarına hər birində hərəkət və işləmə azadlığına zəmanət verən miqrant işçilərin və onların ailə üzvlərinin hüquqi vəziyyəti haqqında saziş artıq qəbul edilmiş və təsdiq edilmişdir. Növbəti addım əmək və miqrasiya qanunvericiliyinin və gələcəkdə viza siyasətinin uyğunlaşdırılmasıdır [10].

Milli qanunvericiliyimizə nəzər salsaq, 28 oktyabr 1999-cu il tarixli 724-IQ nömrəli "Əmək miqrasiyası" haqqında Azərbaycan Respublikasının Qanunu 2 iyul 2013-cü ildə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi qüvvəyə mindikdən sonra ləğv edilmişdir. Hazırda əmək miqrasiyası "Azərbaycan Respublikasının Konstitusiyası,

miqrasiya və əmək qanunvericiliyi, bu sahədə digər normativ hüquqi aktları və ölkəmizin qoşulduğu beynəlxalq müqavilələrlə tənzimlənir” [2].

Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinin I hissəsində göstərilir ki, AR gələn əcnəbilər ölkə ərazisində olduğu müddətdə qanunveiciliklə başqa hal nəzərdə tutulmadığı təqdirdə ölkə vətəndaşları ilə bərabər bütün hüquqlardan yararlana bilər və bütün vəzifələri icra etməlidirlər [1]. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 75-ci maddəsində göstərilir ki, AR ƏM-də göstərilən hallardan başqa, əməkçi miqrantlara ölkə vətəndaşları ilə eyni əmək şərtləri və əməyin ödənilməsi qaydaları şamil edilir [2]. Həmçinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 13-cü maddəsində qeyd olunmuşdur ki, qanunvericilikdə nəzərdə tutulan hallardan başqa, əcnəbilərin və vətəndaşlığı olmayanların ƏM və digər normativ hüquqi aktlarla müəyyən edilən əmək hüquqlarının məhdudlaşdırılmasına icazə verilmir [3]. Nəzərə almaq lazımdır ki, beynəlxalq sənədlərdə “miqrant”, “miqrant işçi”, “qanunsuz miqrant” və digər anlayışlardan istifadə olunur. Eyni zamanda, milli qanunvericiliyimizdə “əcnəbi işçi” anlayışı BƏT Konvensiyalarında və tövsiyələrində, habelə digər beynəlxalq sənədlərdə istifadə olunan “miqrant işçi” termininin sinonimi kimi qəbul edilə bilər.

**Əmək miqrasiyasının ölkənin iqtisadi inkişafına təsirinin qiymətləndirilməsi göstəriciləri**

Hazırda əmək miqrasiyasının kəmiyyət və keyfiyyət göstəriciləri onun ölçülməsini təmin edir. Kəmiyyət göstəriciləri kimi aşağıdakılar tətbiq edilir:

- Ölkədən gedənlərin miqyası - iş üçün müəyyən müddətə ölkəni tərk etmiş emiqrantların sayıdır;
- Ölkəyə gələnlərin miqyası - müəyyən bir müddətdə iş almaq üçün ölkəyə gələn immiqrantların sayıdır;
- Miqrasiya saldosu (balansı) (yəni xalis miqrasiya) - təhlil edilən müddətdə ölkədən gedənlərin və ölkəyə gələnlərin sayı arasındakı fərqdir. Balans nisbi baxımdan (hər 100 nəfərə və ya 1000 əhaliyə), habelə mütləq ifadələrlə əks olunur.
- Məcmu miqrasiya (ümumi miqrasiya) - müəyyən bir dövrdə bir ölkəyə, regiona gələnlərin və gedənlərin sayının cəmidir.
- Əmək miqrasiyasının kəmiyyət göstəriciləri tədiyyə balansında qeydə alınan göstəricilərdir.
- Əmək gəlirləri, işçilərə ödəmələr - qeyri-rezident fiziki şəxslər tərəfindən rezidentlər üçün görülən və onlar tərəfindən ödənilən işlərə görə alınan əməkhaqqı və digər ödənişlərdir.

- Miqrantların yerdəyişmələri - başqa bir ölkəyə köçdükləri zaman miqrantların özləri ilə apardıqları əmlakın dəyərinin təxmin edilən pul ekvivalentidir. Eyni zamanda, emiqrantların əmlakının natura şəklində ixracı ölkədən malların ixracı və onun təxmin edilən pul ekvivalenti isə ixraca ödəmə kimi göstərilir.
- Miqrant işçilərin pul köçürmələri - miqrantlar tərəfindən doğma vətənlərinddə qalan qohumlarına pul və malların köçürülməsidir. Malların daşınması zamanı isə onların dəyəri nəzərə alınır.
- Potensial xalis miqrasiya indeksi (PNMI) - daimi yaşayış üçün ölkəyə köçmək istəyən böyüklərin sayı ilə (mümkün olduqda) və daimi yaşayış üçün getmək istəyənlərin sayı arasındakı fərqin ölkənin bütün yetkin əhalisinə nisbətidir.

Ölkəyə gələn işçi qüvvəsinin keyfiyyətinə tələblər qismində miqrantın təhsili və ya təhsili ilə bağlı sənədlərinin, habelə ixtisas üzrə iş təcrübəsinin tanınması, immiqrantlara yaş və digər seçim meyarlarının qoyulması çıxış edir. İşçi qüvvəsinin keyfiyyətinə dair digər tələblər arasında aşağıdakıları fərqləndirmək olar:

• gələn miqrantın sağlamlıq vəziyyəti (bir sıra Skandinaviya ölkələri və ABŞ üçün xarakterikdir);

• bir sıra ixtisas və ya peşə ilə bağlı əlavə tələblərin qoyulması;

• şəxsi və psixoloji durumla bağlı tələblər. Məsələn, Cənubi Afrika vətəndaşlığına müraciət edən şəxs "xoş bir xarakterə" sahib olmalıdır, ABŞ-a isə immiqrant kimi gələn şəxs totalitar tipli partiyaların nümayəndəsi olmamalıdır.

Eyni zamanda, immiqrantların keyfiyyət meyarları müxtəlif təsirlərin altında dəyişə bilir. Ancaq yaş, peşə, ixtisas sertifikatı və peşə hazırlığı kimi bir sıra xüsusiyyətlərə tələblər olduqca sabitdir və demək olar ki dəyişməyə bilir. Qeyd edək ki, inkişaf etmiş ölkələrdə məhdudlaşdırıcı immiqrasiya tədbirləri kütləvi miqrasiyanın qarşısını alan amillərdən biri olmuşdur. Əmək miqrasiyası prosesi əhatə dairəsinin geniş olması ilə fərqlənir ki, bu səbəbdən də müxtəlif səviyyəli orqan və təşkilatlar tərəfindən diqqətdə saxlanılır [18]. Bir çox cəhətdən əmək resurslarını ixrac və idxal edən ölkələrin maraqları bir-birinə sıx bağlıdır. Əgər işçi qüvvəsini idxal edən ölkə miqrantların gəlişi və onların istifadəsi üçün məsuliyyət daşıyırsa, işçi qüvvəsini ixrac edən ölkənin funksiyaları ilk növbədə xaricə miqrasiya edən vətəndaşlarının maraqlarının qorunmasını tənzimləyir. Qəbul edən ölkələrdə iş qüvvəsinə tələbatın azalacağını proqnozlaşdıran bir çox donor ölkələrin hökumətləri qlobal maliyyə və iqtisadi böhranın ilk aylarında xaricdə işlərini itirən və vətənlərinə qayıtmaq məcburiyyətində qalan həmvətənlərinə kömək etməyə hazır olduqlarını bildirirlər [12].

Ümumilikdə, tənzimləmə obyekti kimi miqrantların əmək potensialı və miqrasiyaya qarşı təhlükələrin qiymətləndirilməsi götürülür. Miqrantların əmək potensialının qiymətləndirilməsi aşağıdakı istiqamətlərdə aparılır:

1) əcnəbi işçi qüvvəsi (peşə ixtisas qrupları üzrə qruplaşdırmaqla) vasitəsilə əmək resurslarının çatışmazlığını aradan qaldırmaq;

2) yüksək və orta ixtisaslı əcnəbi mütəxəssislərin sayının aşağı ixtisaslı və ixtisası olmayan əcnəbi işçilərin sayına nisbəti;

3) miqrantların təhsil səviyyəsi.

Miqrasiyaya olan təhdidlərin səviyyəsinin qiymətləndirilməsi aşağıdakı istiqamətlər üzrə aparılır:

1) əmək bazarı;

2) iqtisadi vəziyyət;

3) qanunun aliliyi və ictimai təhlükəsizlik;

4) əhalinin etnik tarazlığı;

5) sanitar və epidemioloji rifah.

Əmək miqrasiyasının donor və qəbul edən ölkələrin iqtisadi inkişafına təsirini qiymətləndirmək üçün aşağıdakı göstəricilərdən istifadə edilir [7; 6]:

1. Emiqrasiyanın donor ölkənin daxili bazarına təsiri göstəriciləri:

- İqtisadi fəal əhalinin ümumi sayında emiqrantların xüsusi çəkisi;
- İqtisadi cəhətdən fəal əhalinin ümumi sayında emiqrantların payının iqtisadi cəhətdən fəal əhalinin ümumi sayında işsizlərin payına nisbəti;
- Ümumi əmək emiqrantlarının tərkibində ölkədən gedənə qədər işləyən emiqrantların sayının ölkədən gedənə qədər daimi iş yeri olmayan emiqrantların sayına nisbəti;
- Əmək miqrantlarını xaricə göndərməklə məşğul olan və bu fəaliyyət növü üçün rəsmi icazəsi olan özəl məşğulluq agentliklərinin (işəgötürmə agentlikləri) sayı;
- Özəl məşğulluq agentlikləri vasitəsi ilə işləyən əmək emiqrantlarının ümumi əmək emiqrantlarının sayında payı.

2. Əmək emiqrasiyasının donor ölkənin insan kapitalının inkişaf səviyyəsinə təsiri göstəriciləri:

- Orta ixtisas təhsili olan əmək emiqrantlarının əmək emiqrantlarının ümumi sayındakı nisbətinin orta ixtisas təhsilli iqtisadi fəal əhalinin ümumi iqtisadi fəal əhalinin sayına nisbətində payı;
- Ali təhsili olan əmək emiqrantlarının əmək emiqrantlarının ümumi sayındakı nisbətinin ali təhsilli iqtisadi fəal əhalinin ümumi iqtisadi fəal əhalinin sayının nisbətində payı;
- Aspirantura təhsili olan əmək emiqrantlarının əmək emiqrantlarının ümumi sayındakı nisbətinin aspirantura təhsilli iqtisadi fəal əhalinin ümumi iqtisadi fəal əhalinin sayının nisbətində payı;
- Əmək emiqrantlarının orta yaşının iqtisadi fəal əhalinin orta yaşına nisbəti.

- Ev təsərrüfatlarının təhsilə və tibbə xərclədiyi əmək miqrantlarının pul köçürmələrinin ölkəyə daxil olan ümumi pul köçürmələrinin həcmində payı;
- Əmək emiqrantlarının ümumi sayında ixtisaslarına uyğun işləyən əmək emiqrantlarının payı;
- Aspirantura, ali və orta ixtisas təhsilli, lakin aşağı ixtisaslı işlə məşğul olan emiqrantların ümumi əmək emiqrantlarında payı.

3. Əmək emiqrantlarının vətənlərinə pul köçürmələrinin donor ölkələrin iqtisadi inkişafına təsiri üzrə göstəriciləri:

- Əmək emiqrantlarının vətənlərinə pul köçürmələrinin ümumi miqdarı;
- Bir əmək emiqrantına düşən pul köçürməsinin orta miqdarı;
- Ev təsərrüfatlarının cari istehlaka xərclədikləri pul köçürmələrinin ölkəyə daxil olan pul köçürmələrinin ümumi həcmində payı;
- Ev təsərrüfatlarının yığıma yönəltdiyi pul köçürmələrinin ölkəyə daxil olan pul köçürmələrinin ümumi həcmində payı;
- Ev təsərrüfatlarının cari istehlaka xərclədikləri pul köçürmələrinin ölkəyə daxil olan pul köçürmələrinin ümumi həcmindəki payının ev təsərrüfatlarının yığıma yönəltdikləri pul köçürmələrinin ölkəyə daxil olan pul köçürmələrinin ümumi həcmindəki payına nisbəti;
- Əmək emiqrantlarının pul köçürmələrinin dövlətin ümumi daxili məhsuluna nisbəti;
- Ölkədə gələn pul köçürmələrinin ümumi həcminin xaricə mal və xidmətlər ixracından alınan pulların ümumi məbləğinə nisbəti.

4. Əmək emiqrasiyasının donor ölkənin büdcəsinin xərc və gəlirlərinə təsiri üzrə göstəriciləri:

- Əmək emiqrasiyasının nəticəsində sosial xərclər üzrə büdcə qənaətinin həcmi;
- Əmək emiqrasiyasından büdcəyə daxilolmaların miqdarı (özəl məşğulluq agentlikləri, işə qəbul mərkəzləri və s. tərəfindən ödənilən vergi və digər məcburi ödənişlər);
- Əmək emiqrantlarından büdcəyə daxil olan ümumi gəlirlərinin (fərdi məşğulluq agentlikləri, işə qəbul mərkəzləri və s. tərəfindən ödənilən vergi və digər məcburi ödənişlərin) həcminin emiqrantların vətənlərində işlədikləri təqdirdə verə biləcəkləri potensial fiziki şəxslərin gəlir vergisinin həcminə nisbəti;
- Xaricdə işləmək icazəsi ilə özəl məşğulluq agentliyi tərəfindən dövlət büdcəsinə ödənilən illik verginin orta həcmi;
- Ömrü boyu əmək emiqrantları üçün təhsil, tibb və sosial xidmətlərə çəkilən xərclərin miqdarı.

5. Əmək immiqrantlarının vətənlərinə pul köçürmələrinin qəbul edən ölkənin büdcə sisteminə təsiri üzrə göstəricilər:

- Əmək immiqrantlarının vətənlərinə pul köçürmələrinin həcmi;
- Əmək immiqrantlarının əməkhaqqı fondu ilə əmək immiqrantlarının vətənlərinə pul köçürmələrinin həcmi arasındakı fərq;
- Əmək immiqrantlarının pul köçürmələrinin əməkhaqqı fondunda payı;
- Əmək immiqrantlarının dövlət büdcəsinə ödəmələrinin həcmi ilə əmək immiqrantlarının vətənlərinə pul köçürmələrinin həcminin nisbəti.

6. Miqrant işçilər tərəfindən ödənilən məcburi büdcə ödənişlərinin təsirinin nəticələrini qiymətləndirmək üçün göstəricilər:

- Xarici vətəndaşların bütün gəlirləri üzrə vergi agentləri tərəfindən tutulan gəlir vergisinin miqdarı;
- Əmək miqrantı tərəfindən ödənilən bütün məcburi ödənişlərin (dövlət rüsumları, sabit avans ödənişləri və s.) məbləği;
- Əmək miqrantları tərəfindən ödənilən fiziki şəxslərin gəlir vergisinin Bütün səviyyələrin büdcələrinə daxil olan fiziki şəxslərin gəlir vergisinin ümumi miqdarında payı;
- Xarici işçilər tərəfindən ödənilən gəlir vergisi məbləğinin büdcəyə daxil olmuş gəlir vergisinin ümumi miqdarındakı payı ilə xarici işçilərin sayının işçilərin ümumi sayındakı nisbəti;
- Xarici işçi axınının idarə edilməsi üçün müvafiq infrastrukturun yaradılması və saxlanması üçün dövlət xərclərinin miqrant işçilərin məcburi ödənişlərinin nisbəti;
- Bir sənədli əmək miqrantına düşən pul daxilolmalarının həcmi.

## Azərbaycanda əmək resurslarının beynəlxalq mobilliyinin mövcud vəziyyətinin qiymətləndirilməsi

Azərbaycanda əmək resurslarının beynəlxalq mobilliyinin mövcud vəziyyətinin qiymətləndirilməsi üçün bəzi ölkələrdən gələn və bu ölkələrə gedənlər barədə məlumatları təhlil etmək vacibdir. Ümumiyyətlə vətəndaşlarımızın xaricə əmək miqrasiyasının vəziyyətini təhlil etmək üçün bəzi məlumatlara diqqət yetirək.




| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Miqrasiya artımı (azalması) | -53,6 | -9,8 | -7,4 | -8,2 | -5,1 | -4,3 | -5,5 | -0,9 | -0,4 | -1,1 | 1,1 | 0,9 | 1,4 | 1,7 | 2,0 | 2,3 | 1,1 | 1,1 | 1,5 | 1,2 | 1,6 |
| Ölkədən daimi yaşamaq üçün gedənlər | 137,9 | 16,0 | 13,2 | 15,7 | 10,5 | 9,1 | 9,9 | 2,9 | 2,6 | 3,1 | 2,5 | 1,4 | 0,8 | 0,5 | 0,2 | 0,8 | 0,8 | 1,6 | 1,7 | 1,9 | 1,6 |

**Qrafik 1. Əhalinin beynəlxalq miqrasiyası**

*Mənbə: https://www.stat.gov.az/source/demoqraphy/ 05.03.2020 tarixə.*

Qrafik 1-in məlumatlarından görünür ki, ölkədən daimi yaşamaq üçün gedənlərin sayı 1990 - 2018-ci illər üzrə (28 il ərzində) 457,3 min nəfər etmişdir. Ən yüksək axın 1990-cı ilə dələlət edir və onda ölkədən gedənlər cəmi gedənlərin 30,1 % təşkil etmişdir. Bu müstəqilliyin ilk illərində təkcə ölkədəki iqtisadi böhranla deyil, həm də ölkədə mövcud olan siyasi-hərbi qeyri-sabirliklə bağlı idi. Həmin il 20 yanvar hadisələri, kütləvi tətillər, hakimiyyətə və dövlətə olan inamsızlıq insanları ölkəni tərk etməyə məcbur etmişdi. Ən aşağı göstərici 2012-ci ilə düşür ki, bu da 200 nəfərin ölkədən getməsini göstərir. Ümumiyyətlə 1990-cı ildə 2012-ci ilə qədər ölkədən getmədə azalma müşahidə olunur. 2014-cü ildən ölkədən daimi yaşamaq üçün xaricə getmədə tədricən artımın olması dünyadakı maliyyə böhranın ölkəmizə təsiri və digər sosial-iqtisadi məsələlərlə (məsələn, kəndlərdə işsizliyin yüksək olması kənd əhalisinin gəlir əldə etmək üçün xaricə köçməsi ilə və s.) bağlı olmasından irəli gəlir.

Təhlil etdiyimiz 28 illik dövrdə əhalinin mobilliyinin artım tempinə baxaq. Nəzərə alaq ki, 1990-cı ildə ölkəmizdə əhalinin sayı 7131,9 min nəfər, 2018-ci ildə 9898,1 min nəfər olmuşdur.1990-cı ildə ölkədən gedənlərin sayı ümumi əhalinin sayında 1,9% təşkil etmişdir. 2018-ci ildə isə ölkədən gedənlərin sayı ümumi əhalinin sayında cəmi 0,02% olub. Bu göstərici 1990-cı ildəkindən 120 dəfə aşağıdır. Qeyd edək ki, əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhalinin sayı 1990-cı ildə əgər 3859,9 min nəfər idisə, 2018-ci ildə 6326,7 min nəfər olub ki, bu da 1,63 dəfə artım deməkdir. Ümumiyyətlə əmək ehtiyatları 1990-ci ilə nisbətən 2018-ci ildə 1,61 dəfə artaraq 6478,2 min nəfər təşkil etmişdir.

Coğrafi məkan baxımından ölkəyə gələn və gedənləri nəzərdən keçirsək aşağıdakı mənzərəni görəcəyik (bax: cədvəl 3).

**Cədvəl 3. Coğrafi məkan baxımından bəzi ölkələrdən gələn və bu ölkələrə gedənlər barədə məlumat**

| | Daimi yaşamaq üçün Azərbaycandan gedənlər | | Daimi yaşamaq üçün Azərbaycana gələnlər | |
|---|---|---|---|---|
| | 1990 | 2018 | 1990 | 2018 |
| ABŞ-a | 543 | 25 | … | 2 |
| Almaniyaya | 20 | 22 | … | 12 |
| Belarusa | 1904 | 59 | 549 | 21 |
| Gürcüstana | 1934 | 28 | 6637 | 914 |
| Qazaxıstana | 1975 | 306 | 3190 | 127 |
| Rusiya Federasiyasına | 77452 | 803 | 30857 | 1056 |
| Türkiyəyə | 2 | 84 | … | 359 |
| Türkmənistana | 1406 | 24 | 1336 | 129 |
| Ukraynaya | 12794 | 99 | 4355 | 150 |
| MDB ölkələrinə | 97333 | 1366 | 49197 | 1659 |
| Digər xarici ölkələrə | 40567 | 214 | 35082 | 1561 |
| C Ə M İ | 137900 | 1580 | 84279 | 3220 |

*Mənbə: https://www.stat.gov.az/source/demoqraphy/ 05.03.2020 tarixə*

Təhlildən belə nəticə çıxarmaq olar ki, 28 illik müddətdə hər iki istiqamətdə (Azərbaycandan gedən və bura gələnlərin) yekun göstəricilərində azalma var. 3 inkişaf etmiş ölkədən (ABŞ, Almaniya və Turkiyədən) Respublikamıza 1990-cı ilə nisbətən 2018-ci ildə gələnlərin olduğunu görürük. Bunun səbəbi kimi xarici ölkələrə gedənlər arasından geri qayıdanların olması, digər tərəfdən xarici ölkə vətəndaşları tərəfindən Respublikanın sosial-iqtisadi inkişaf vəziyyətinin müsbət qiymətləndirilməsi ola bilər.




| | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| MDB ölkələrinə | 97333 | 12849 | 9378 | 2849 | 755 | 429 | 205 | 651 | 652 | 1394 | 1474 | 1664 | 1366 |
| Digər xarici ölkələrinə | 40567 | 3184 | 569 | 57 | 44 | 55 | 21 | 130 | 143 | 163 | 237 | 237 | 214 |

**Qrafik 2. Daimi yaşamaq üçün Azərbaycandan gedənlər**

*Mənbə: https://www.stat.gov.az/source/demoqraphy/ 05.03.2020 tarixə.*

Azərbaycandan MDB dövlətlərinə gedənlərin sayı 2018-ci ildə 1990-cı ilə nisbətən 71,3 dəfə, digər xarici dövlətlərə isə 189,6 dəfə azalmışdır. Lakin təhlil edilən zaman kəsiyində MDB ölkələrinə axında 1990-cı ildən 2012-ci ilə qədər azalma müşahidə olunsa da, 2017-ci ildə 2013-cü ilə nisbətən, əksinə, 2,6 dəfə artım olmuşdur. Eyni proses digər xarici ölkələrə axında da müşahidə olunur və burada 2017-ci ildə 2013-cü ilə nisbətən artım 1,6 dəfə olmuşdur.

2019-cu il üzrə statistik məlumatlara görə xarici ölkələrdən Azərbaycana gələn və Azərbaycandan gedənlərin ölkələr üzrə BCG təhlili aşağıdakı qruplaşdırmanı vermişdir. Bu təhlilə əsasən ən agır vəziyyət Yunanıstan, Polşa, Estoniya və Litva üzrə müşahidə edilir.

Əmək bazarında axının əsas səbəbi əməkhaqqının səviyyəsi ilə bağlıdır. Bu baxımdan, MDB məkanında orta aylıq nominal əməkhaqqının təhlili, onun əmək resurslarının beynəlxalq miqrasiyasına təsirini müəyyən etməyə imkan verir.

**Cədvəl 4. 2019-cu il üzrə daimi yaşamaq üçün Azərbaycana gələn və Azərbaycandan gedənlərin ölkələr üzrə bölgüsü**

| | | | |
|---|---|---|---|
| Azərbaycana gələn | Yüksək | Böyük Britaniya, Şimali İrlandiya, İsrail, Latviya, İran, Əfqanıstan, Pakistan, Hindistan, Gürcüstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Moldova | ABŞ, Almaniya, Türkiyə, Rusiya Federasiyası, Qazaxıstan, Ukrayna |
| | Aşağı | Yunanıstan, Polşa, Estoniya, Litva | Belarusiya |
| | | Aşağı | Yüksək |
| | | Azərbaycandan gedən | |

*Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.*




| | 2005 | 2010 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 131 | 413 | 567 | 455 | 313 | 307 | 320 |
| Belarus | 215 | 407 | 590 | 413 | 361 | 426 | 476 |
| Qazaxıstan | 256 | 527 | 676 | 568 | 418 | 463 | 472 |
| Qırğızıstan | 64 | 156 | 229 | 209 | 212 | 228 | 239 |
| Ermənistan | 114 | 275 | 381 | 359 | 363 | 368 | 356 |
| Moldova | 105 | 240 | 291 | 241 | 251 | 302 | 384 |
| Rusiya | 303 | 682 | 856 | 561 | 549 | 672 | 699 |
| Tacikistan | 27 | 81 | 165 | 143 | 123 | 134 | 135 |
| Türkmənistan | 0 | 0 | 404 | 364 | 394 | 0 | 0 |
| Özbəkistan | 0 | 0 | 436 | 456 | 504 | 285 | 226 |
| Ukrayna | 157 | 282 | 293 | 193 | 203 | 273 | 328 |

**Qrafik 3. MDB dövlətləri üzrə orta aylıq nominal əməkhaqqı**

*Mənbə: https://www.stat.gov.az 05.03.2020 tarixə.*

Belə ki, 2005-2018-ci illər üzrə ən yüksək orta aylıq nominal əməkhaqqı artımı Tacikistanda (5 dəfə), Moldova və Qırğızastanda (3,7 dəfə), Ermənistanda (3,1 dəfə) və Azərbaycanda (2,5 dəfə) olmuşdur. Ancaq MDB dövlətləri arasında ən yüksək orta aylıq nominal əməkhaqqı Rusiyanın, Belarusiya və Qazaxıstanın payına düşür. Azərbaycan bu reytinqdə 11 ölkə içərisində 7-ci yerdədir.




| | 1990 | 1999 | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İqtisadi fəal əhalinin sayı - min nəfər | 3703,4 | 4335,4 | 4370,2 | 4380,1 | 4587,4 | 4626,1 | 4688,4 | 4757,8 | 4840,7 | 4915,3 | 5012,7 | 5073,8 | 5133,1 |
| Məşğul əhalinin sayı - min nəfər | 3703,4 | 3782,8 | 3855,5 | 4062,3 | 4329,1 | 4375,2 | 4445,3 | 4521,2 | 4602,9 | 4671,6 | 4759,9 | 4822,1 | 4879,3 |
| İşsiz əhalinin sayı, min nəfər | 0,0 | 552,6 | 514,7 | 317,8 | 258,3 | 250,9 | 243,1 | 236,6 | 237,8 | 243,7 | 252,8 | 251,7 | 253,8 |
| Məşğulluq xidməti orqanlarında rəsmi işsiz statusu verilmiş şəxslər, nəfər | 0 | 45211 | 43739 | 56343 | 38966 | 38330 | 36791 | 36206 | 28690 | 28877 | 32972,0 | 38481 | 20088 |
| onlardan işsizliyə görə müavinət alanlar | 0 | 2387 | 2768 | 2087 | 87 | 1002 | 934 | 636 | 1613 | 1543 | 1857,0 | 6974 | 1117 |

**Qrafik 4. Əmək bazarının bəzi əsas sosial-iqtisadi göstəriciləri**

*Mənbə: https://www.stat.gov.az 05.03.2020 tarixə.*

Təhlil zamanı müəyyən etdik ki, 2018-ci ildə ölkə üzrə işsizlərin sayı 1999-cu illə müqayisədə 2,2 dəfə, məşğulluq xidməti orqanlarında rəsmi işsiz statusu alanların sayında 2,3 dəfə, işsizliyə görə müavinət alanların sayında isə 2,1 dəfə azalma baş verib. Nəzərə alsaq ki, müqayisə edilən dövr ərzində əhalinin sayı demək olar ki, 2 dəfədən çox artıb, onda bu göstəricilər daha yüksək nəticəni ifadə edir. Lakin 2018-ci ildə 10 milyona yaxın əhalisi olan bir ölkədə 253,8 min nəfər işsizin olması bi işçiz ordusunun xaricə axını ilə nəticələnə bilir. Bu baxımdan, ölkədə mövcud olan işsizlik səviyyəsi 4-5% keçməsə də, əmək resurslarının miqrasiya etməsinə əsas səbəblərdən ola bilər.

**Cədvəl 5. 2009 - 2018-ci illər üzrə Azərbaycan Respublikasından daimi yaşamaq üçün gedənlər, nəfər**

| Yaş qrupları | Ölkədən daimi yaşamaq üçün gedənlər | | |
|---|---|---|---|
| | Cəmi | Kişilər | Qadınlar |
| Cəmi | 11207 | 4581 | 6626 |
| o cümlədən yaş qrupları üzrə: | | | |
| 15-19 | 806 | 280 | 526 |
| 20-24 | 1846 | 872 | 974 |
| 25-29 | 1992 | 920 | 1072 |
| 30-34 | 1531 | 729 | 802 |
| 35-39 | 1518 | 463 | 1055 |
| 40-44 | 953 | 355 | 598 |
| 45-49 | 659 | 244 | 415 |
| 50-54 | 434 | 203 | 231 |

| | | | |
|---|---|---|---|
| 55-59 | 254 | 105 | 149 |
| 60-69 | 302 | 113 | 189 |
| Əsas yaş qrupları üzrə: | | | |
| əmək qabiliyyətli yaşdan aşağı | 637 | 214 | 423 |
| əmək qabiliyyətli yaşda | 9990 | 4211 | 5779 |
| əmək qabiliyyətli yaşdan yuxarı | 580 | 156 | 424 |

*Mənbə: https://www.stat.gov.az/source/demoqraphy/ 05.03.2020 tarixə.*

Biz verilən cədvəl 5-də yalnız əmək bazarı üçün önəmli olan yaş qruplarını təhlil etmişik. Təhlil, birmənalı olaraq, gedənlər arasında cavanların və orta yaş qrupunun üstünlük təşkil etdiyini göstərir. Bunların arasında 20-49 yaş qrupuna daxil olanlar 8499 nəfər təşkil edir ki, bu da cəmi gələnlərin 75,8% təşkil edir. Əslində bu müddət ərzində ölkəyə 20-49 yaş qrupu üzrə gələnlər gedənlərdən 2,2 dəfə çoxdur. Bunu nəzərə alsaq vəziyyət o qədər də pis deyil. Ölkədən gedənlərin arasında əmək qabiliyyətli yaşda olanlar 89,1% təşkil etmişdir. Həmçinin gedənlər arasında gələcəkdə əmək bazarı üçün potensial işçi qüvvəsi hesab olunan əmək qabiliyyətli yaşdan aşağı olanlar 3,8% təşkil etmişdir. Ölkədən gedənlər arasında qadınlar kişilərə nisbətən 1,4 dəfə çox olmuşdur. 2009 - 2018-ci illər üzrə ölkədə cəmi əmək ehtiyatları 1,1 dəfə və ya 9,5 % artmış, əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhalinin sayı 5773,3 min nəfərdən 6326,7 min nəfərə qədər (1,1 dəfə və ya 9,6%) artmışdır. Yəni təhlil dövründə əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhalinin artımı ümumi əhalinin artımı səviyyəsindən bir qədər çox olmuşdur ki, bu da müsbət hal hesab edilir.

## Nəticə

Hazırda bir sıra ölkələr risklərin qiymətləndirilməsi və milli əmək bazarlarının qorunması modelindən imtina etməyə hazırdırlar. Əmək resurslarının beynəlxalq mobilliyinin mənfi nəticələrinin aradan qaldırılması və müsbət təsirlərini artırmaq üçün miqrasiya proseslərinin dövlət və dövlətlərarası tənzimlənməsi vasitələrindən istifadə edilir. Əmək miqrasiyasının tənzimlənməsində dünya birliyi və beynəlxalq təşkilatlar müəyyən rol oynayır. Beynəlxalq konvensiyaları ratifikasiya etməklə əmək miqrasiyası prosesini tənzimləyən ölkələr beynəlxalq hüququn həm ölkə üçün, həm də xaricdə hüquqları əhəmiyyətli dərəcədə genişlənmiş miqrantlar üçün vacib olan milli qanunvericilikdən üstün olduğunu qəbul edirlər.

Əmək miqrasiyasının ölkənin iqtisadi inkişafına təsirinin qiymətləndirilməsinin əsas göstəriciləri olan daxili bazara, insan kapitalının inkişaf səviyyəsinə, pul köçürmələrinin donor ölkələrin iqtisadi inkişafına təsiri, dövlət büdcəsinin xərc və gəlirlərinə təsir göstəriciləri ilə yanaşı, əmək resurslarının donor və qəbul edən ölkələrdə əmək məhsuldarlığının artmasına təsir edən amillərin nəzərə alınması və onların qiymətləndirilməsi də vacibdir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "Hüquq Yayın Evi", 2017, s. 22, 23;
2. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. Bakı, "Hüquq Yayın Evi", 2018 s.10;
3. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı, Qanun, 2015, s. 52;
4. Alıyev İ.H., Məmmədov Y.Ə. "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasının nəzəri-metodoloji əsasları". Bakı. "AVROPA" 2012, s.90, səh.16-17;
5. Адедиран А. М. Ключевые вехи становления современной теории миграции в работах западных ученых XX в. Вестник РУДН, серия Социология, 2015, № 1;
6. Алешковский И. А., Гребенюк А. А., Максимова А. С. Методологические подходы к оценке влияния внешней трудовой миграции на финансово-бюджетную сферу принимающих стран. Финансы: теория и практика. 2018;22(6):69-81. DOI: 10.26794/2587-5671-2018-22-6-69-81;
7. Гребенюк А. А. Методологические подходы к разработке системы показателей воздействия трудовой миграции на экономику государств, экспортирующих рабочую силу // Экономика труда. — 2017.— Том 4. — № 2. – С. 59–72. doi: doi: 10.18334/et.4.2.38185;
8. Гребенюк А. А. Теоретические подходы к изучению международной трудовой миграции // Миграция и социально-экономическое развитие. 2016. Т. 1. № 1.С. 17–38;
9. Гужва Е. Г., Лесная М. И., Кондратьев А. В., Егоров А. Н. Мировая экономика: учебное пособие /СПбГАСУ. – СПб., 2009. – 116 с.;
10. Кинасова Е. Д., Гребеник В. В. Актуальные вопросы оценки угроз безопасности рынка труда под влиянием иммиграции // Интернет-журнал «НАУКОВЕДЕНИЕ» Том 9, №2 (2017) http://naukovedenie.ru/PDF/86EVN217.pdf;
11. Колосницына М. Г., Суворова И. К. Международная трудовая миграция: теоретические основы и политика регулирования // Экономический журнал Высшей школы экономики. 2005. Т. 9. № 4. С. 543–555;
12. Нарочницкая Е. А. Иммиграционные потоки в Европу, экономический кризис и некоторые вопросы теории миграции;
13. Юрков Д., Бычков Г. «Неоклассические» теории экономики миграции //Экономист. 2017. № 10;
14. Яковлева Е. Б. Западные теории внешней трудовой миграции (критический анализ на основе европейских и российских реалий, Экономическая глобализация и проблемы национальной и международной безопасности;
15. Harris, John R. & Todaro, Michael P. (1970), «Migration, Unemployment and Development: A Two-Sector Analysis» // American Economic Review 60 (1): 126–142;
16. Lee E. A Theory of Migration // Demography. — 1966. — ¹3. — P. 47–57;
17. Lewis W.A. The Theory of Economic Growth. — N.Y., 1959. — P. 402.;
18. Massey D.S. The Social and Economic Origins of immigration // The Annals of the American Academy of Political and Social Science. 1990, July, vol 410. 367p., 263;
19. Massey, Douglas S. International migration and economic development in comparative perspective // Population and Development Review. 1989. C. 383–414;
20. Piore M. Birds of passage. Migrant labour and industrial societies. New York: Cambridge University Press. 1979.p.12;
21. Ravenstein E. The Birthplace of the People and the Laws of Migration // The Geographical Magazine. 1876. P. 173–233;
22. Stouffer S. Intervening Opportunities: A Theory Relating Mobility and Distance // American Sociological Review. 1940. P. 845–867;
23. The (P1P2/D) hypothesis: on the intercity movement of persons // American Sociological Review. 1946. P. 677–686;
24. The Laws of Migration // Journal of the Royal Statistical Society. 1885, P. 167–235;
25. The Laws of Migration: Second Paper // Journal of the Royal Statistical Society. — 1889. P.241–305;
26. Wallerstein I. The Modern World-System, vol. III: The Second Great Expansion of the Capitalist World-Economy, 1730–1840's. San Diego: Academic Press. 1989;
27. Zelinsky W. The Hypothesis of the Mobility Transition // Geographical Review. 1971. P. 219–249;
28. Zipf G. Human Behavior and the Principle of Least Effort. Cambridge: Addison-Wesley Press. 1949. 573p.

# ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ ПРИНЦИПЫ ИССЛЕДОВАНИЯ ПРОБЛЕМ ОБЕСПЕЧЕНИЯ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ СТРАНЫ

*Daxil olub: 07 avqust 2020-ci il;*
*Qəbul olunub: 03 sentyabr 2020-ci il*
*Received: 07 August 2020;*
*Accepted: 03 September 2020*

***Ф. Ф. Шамилов*[1]**
[1]*Докторант АГЭУ (UNEC)*
[1]*feshamilov@mail.ru*

## Резюме

Основная цель исследования заключается в изучении, систематизации и анализе существующих позиций различных авторов о сущности экономической безопасности с тем, чтобы на основе применяемых методов определить состояние национальной безопасности республики в современный период. Исследовательская работа проводилась на основе применения следующих научных методов: сравнительный, логический, исторический, систематизация и обобщение. В работе применены принципы пространственной и временной зависимости. Также в исследовании анализируется возможности рыночных и нерыночних методов ведения хозяйства и их влияние на современное состояние экономической безопасности страны. В результате исследования при анализе существующего категориального аппарата определена система показателей экономической безопасности, учитывающая классические и современные позиции в целях объективной оценки состояния экономики страны. Ограничения исследования: требуется больше практической информации. Практическая значимость исследования состоит в том, чтобы дополнить и улучшить систему показателей экономической безопасности, учитывая специфические особенности республики, использовать механизмы, обеспечивающие улучшение ее социально-экономического положения и отвечающие национальным интересам.

***Ключевые слова:*** *экономическая безопасность, экономический рост, национальные интересы, уровни и виды экономической безопасности, социально-экономическая ориентация.*

# ÖLKƏNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASI PROBLEMLƏRİNİN ÖYRƏNİLMƏSİNİN NƏZƏRİ VƏ METODOLOJİ PRİNSİPLƏRİ

***F.F.Şamilov*[1]**
[1]*Doktorant, ADİU (UNEC)*
[1]*feshamilov@mail.ru*

**Xülasə**
Tədqiqatın əsas məqsədi istifadə olunan metodlar əsasında müasir dövrdə respublikanın milli təhlükəsizliyinin vəziyyətini müəyyənləşdirmək üçün müxtəlif müəlliflərin iqtisadi təhlükəsizliyin mahiyyəti ilə bağlı mövcud mövqelərini öyrənmək, sistemləşdirmək və təhlil etməkdir. Tədqiqat işi aşağıdakı elmi metodların tətbiqi əsasında aparılmışdır: müqayisəli, məntiqi, tarixi, sistemləşdirmə və ümumiləşdirmə. İşdə məkan və zaman asılılıq prinsipləri tətbiq edilmişdir. Tədqiqat işində, həmçinin, idarəetmənin bazar və qeyri-bazar metodlarının imkanları və onların ölkənin iqtisadi təhlükəsizliyinin müasir vəziyyətinə təsiri təhlil edilir. Tədqiqat nəticəsində mövcud kateqoriya aparatlarını təhlil edərkən, ölkə iqtisadiyyatının vəziyyətini obyektiv qiymətləndirmək üçün klassik və müasir mövqelər nəzərə alınmaqla iqtisadi təhlükəsizlik göstəriciləri sistemi müəyyən edilmişdir. Tədqiqatın məhdudiyyətləri daha geniş praktik məlumat tələb olunmasıdır. Tədqiqatın praktiki əhəmiyyəti respublikanın spesifik xüsusiyyətləri nəzərə alınmaqla iqtisadi təhlükəsizlik göstəriciləri sisteminin təkmilləşdirilməsi, sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasını təmin edən və milli maraqlara cavab verən mexanizmlərinin istifadə edilməsindən ibarətdir.

***Açar sözlər:*** *iqtisadi təhlükəsizlik, iqtisadi artım, milli maraqlar, iqtisadi təhlükəsizliyin səviyyəsi və növləri, sosial-iqtisadi istiqamət.*

## THEORETICAL AND METHODOLOGICAL PRINCIPLES FOR STUDYING THE PROBLEMS OF ENSURING THE COUNTRY'S ECONOMIC SECURITY

***F.F.Shamilov*[1]**
[1]*PhD student , Azerbaijan State University of Economics (UNEC)*
[1]*feshamilov@mail.ru*

**Abstract**
The main purpose of the study is to study, systematize and analyze the existing positions of various authors on the essence of economic security in order to determine the state of national security of the republic in the modern period on the basis of the methods used. The research work was carried out on the basis of the application of the following scientific methods: comparative, logical, historical, systematization and generalization. In the article used the principles of spatial and temporal dependence. In the study also were analyzed the possibilities of market and non-market methods of economic management and their impact on the current state of the country's economic security. As a result of the study, analyzing the existing categorical apparatus, a system of indicators of economic security was determined, taking into account the classical and modern positions in order to objectively assess the state of the country's economy.

Research Limitations: more practical information required. The practical significance of the study is to supplement and improve the system of indicators of economic security, taking into account the specific features of the republic, to use mechanisms that ensure the improvement of its socio-economic situation and meet national interests.

***Keywords:*** *economic security, economic growth, national interests, levels and types of economic security, socio-economic orientation.*

В условиях открытости и возрастания взаимозависимости национальных экономик под влиянием глобализации мировой экономики и непредвиденности некоторых факторов экономического развития активизируется задача обеспечения экономического роста и безопасности.

Динамизм экономического и социального развития, глубокие качественные и количественные изменения в структуре экономики, необходимость более эффективного исследования природно-сырьевых, трудовых, финансовых ресурсов требуют развертывания научных экономических исследований по проблемам обеспечения экономической безопасности в различных этапах мирохозяйственного взаимодействия.

Термин безопасность имеет древнее происхождение и в переводе с греческого означает владеть ситуацией. Аристотель содержание безопасности сводил к проблеме самосохранения. Жан-Жак Руссо отмечал, что забота о самосохранении и безопасности есть самая важная из всех забот государств [1]. Основным содержанием для большинства определений экономической безопасности является термин защищенность.

Определение безопасности стало использоваться с XII века и подразумевает стабильность и защищенность. Но уже в XVII-XVIII веках почти во всех государствах под ним подразумевается общее благосостояние и безопасность. Безопасность - это отсутствие опасности, поэтому главной задачей экономической безопасности является обеспечение проведения независимой экономической политики, которая будет максимально удовлетворять индивидуальные и общественные потребности, способствовать устойчивости экономической системы к внешним и внутренним угрозам. Современные трактовки понятия безопасности появились в XX веке, в связи происходящими в этот период войнами, революциями, экологическими бедствиями. С 1934 года в Советском Союзе законодательно закреплен термин государственной безопасности. В мировой экономической практике термин экономической безопасности появился в XX веке, когда после великой депрессии появилось необходимость создания системы государственного регулирования экономики страны.

Проблемы экономической безопасности в постсоциалистическом пространстве стали особенно значимыми в связи с переходом от административно-командной системы к рыночной системе хозяйствования. Современная трактовка понятия безопасность берет начало в XVII-XVIII веках, когда практически во всех странах принимается положение о том, что главной целью государства является общее благосостояние и безопасность. Теоретическое значение понятий экономической и национальной безопасности - это определенные основы, раскрывающие их сущность, содержание, виды и понимание главных угроз, механизмов обеспечения, направлений эффективной экономической политики государства.

В течение последних столетий сформировались три основных концепций экономической безопасности, к которым относятся: 1) камералистская концепция защиты внешнеэкономической безопасности с середины XIX века, 2) кейнсианская концепция защиты от внутренних макроэкономических угроз (со второй половины XX века, 3) институциональная концепция защиты от административных барьеров (с конца XX века) [2].

Фридрих Лист является одним из первых критиков классической политической экономии А. Смита и Д. Рикардо и основоположником теоретического анализа национальной экономической безопасности. В 1841 году Ф. Лист в монографии «Национальная система политической экономии» впервые выступил как национальный экономист, отстаивая концепцию комплексного развития страны от конкуренции дешевых импортных товаров и предлагал проведение протекционистской политики [3]. Ф. Лист является ведущим представителем камералистики или научных теорий XIX века, посвященных проблемам государственного регулирования. Его теория отстаивает защиту национальных экономических интересов и национальной экономической безопасности от конкуренции развитых иностранных государств. В соответствии с этой концепцией целью борьбы за национальную экономическую безопасность является экономическая независимость, а основным методом за национальную экономическую безопасность служит протекционистская торговая политика.

Следующая базовая концепция экономической безопасности - это кейнсианская концепция национальной безопасности. Она появилась в 30-ые годы XX века, в период великой депрессии, как теория защиты от внутренних макроэкономических угроз. Эту теорию сформулировал английский экономист Дж. Кейнс в своем труде «Общая теория занятости, процента и денег» [4]. Главными угрозами национальной экономической безопасности в этой концепции считается не конкуренция иностранных товаров, а «провалы рынка», нестабильность экономического роста, безработица, депрессия, инфляция. Целью развития ставится

экономическая и социальная стабильность в обществе. Предыдущая, камералистская концепция национальной экономической безопасности Ф. Листа, с использованием протекционистских мер, предназначена для периферийных стран, кейнсианская теория, предназначенная для развитых стран, уделяет особое внимание внутренним макроэкономическим условиям национального экономического роста. При этом методами борьбы за национальную экономическую безопасность в кейнсианской теории принимается государственное регулирование производства, занятости и денежного обращения. По теории классиков для решения экономических проблем у рынка есть свои механизмы регулирования, т. е. действует принцип саморегулируемости экономики, инфляции, безработицы, денежного обращения, экономического роста. По кейнсианской же теории инфляция, безработица не проходят сами по себе и, поэтому, необходимо государственное вмешательство для проведения антимонопольной политики и участие профсоюзов для решения проблем безработицы, минимальной заработной платы и др.

Если термин «национальная безопасность» впервые был введен в1904 году, а «экономическая безопасность» - в 1932 году, то в 1934 году был создан Комитет по экономической безопасности при Франклине Рузвельте.

Третья концепция экономической безопасности - институциональная концепция национальной экономической безопасности, появилась в 80-ые годы XX столетия, в период возникновения кризиса неоклассической экономической школы, связана с именем перуанского экономиста Эрнандо де Сото. Эта концепция претендует на приоритетную роль по сравнению с другими. В опубликованной Эрнандо де Сото в 1989 году монографии «Иной путь» особое внимание уделяется исследованию проблем теневой экономики в современной рыночной экономике [5]. Основное значение институциональной концепции состоит в объяснении причин роста теневой экономики. Причиной массовой теневой активности согласно этой теории считается неэффективный правовой режим, когда развитие и процветание бизнеса зависит в большей степени от действующих законов и в меньшей степени от непосредственной предпринимательской деятельности. В таких условиях предприниматель лучше лавирующий действующими правилами, законами и связями оказывается в значительно лучшем положении, чем тот, кто занят производственной деятельностью. Поэтому главной угрозой национальной экономике являются не «провалы рынка», а «провалы государства». В таких условиях напрашивается вывод о том, что нужно признать собственность и труд людей, которых легальный сектор отторгает, и тогда заработает принцип сотрудничества.

Следовательно, по теории Э. де Сото главными угрозами национальной безопасности являются административные барьеры, законы или их плохое выполнение.

Подытоживая вышесказанное, отметим, что реальные угрозы экономической безопасности страны могут создаваться и зарубежными конкурентами (камералистская теория Ф. Листа), и «провалами рынка (Дж. Кейнс), и «провалами государства» (Э. де Сото). Рациональное функционирование национальной экономики требует устранения основных угроз.

Стало быть, в соответствии с институциональной концепцией, если угрозами национальной экономической безопасности являются провалы государства, административные барьеры, рентоискательство, безработица, инфляция, а целью – выполнение законов, защита прав собственности, то методами служат снижение регистрационных процедур и платежей, борьба с бюрократизмом и коррупцией.

Отметим также, что, несмотря на наличие трех основных концепций национальной экономической безопасности с их разветвлениями, они не исключают друг друга, а взаимодополняют и относятся к каждой стране в большей или в меньшей степени в зависимости от конкретной экономической социально-экономической динамики.

Конечно, понятие экономической безопасности не существует вне пространства и времени, является формой и отображением угроз экономического, экологического, политического, социального характера.

Так, западные ученые более узко определяют безопасность страны, подразумевая, прежде всего защищенность от внешних угроз. Американский ученый Дж. Киршнер важным аспектом государства считал «национальную жизненную силу», т. е. способность общества целеустремленно решать прежде всего социально-экономические проблемы [6].

Английский ученый В. Кейбл связывал понятие экономической безопасности с использованием военной силы [7]. Среди сильных азиатских государств, в Японии под экономической безопасностью подразумевается состояние экономики, при котором она защищена от угроз международного характера, прежде всего экономическими средствами.

В основе же китайской трактовки экономической безопасности, как утверждает ученый Джанг Ёнг, лежит экономический суверенитет или независимость в принятии решений [8].

Обобщая основные трактовки безопасности, появившиеся с позапрошлого столетия, можно отметить, что это «ситуация спокойствия, появляющаяся в результате отсутствия реальной опасности (как физической, так и моральной), а также

материальные, экономические, политические условия, соответствующие органы и организации, способствующие созданию данной ситуации» [9].

Среди известных российских ученых объективно относят «безопасность к идеально возможной в перспективе, но нереальной в прежних и нынешних конкретно-исторических условиях, так как в точном смысле она означает отсутствие опасностей и угроз» [10].

Несмотря на множество уровней и видов экономической безопасности: промышленной, продовольственной, сырьевой, сельскохозяйственной, финансовой, национальной, региональной, международной, военной, информационной, политической, социальной, все они предобусловливают друг друга и отметим особое значение экономической безопасности, как одной из основных структурообразующих частей национальной безопасности. Национальная безопасность является, таким образом, состоянием защищенности от внутренних и внешних, объективных и субъективных угроз страны на данный период времени. «Под национальной безопасностью понимается состояние страны, при котором отсутствуют или обеспечивается надежное устранение (парирование) внешних и внутренних угроз жизненно важным интересам личности, общества и государства» [11]. Проблемы национальной экономической безопасности периодически фиксируются в официальных правительственных документах.

В 1985 году Генеральной Ассамблеей ООН принята «Концепция международной экономической безопасности».

Национальная безопасность страны определяется системой ее национальных интересов. 29 июня 2004 года издан закон Азербайджанской Республики «О национальной безопасности». Согласно изданному закону к национальным интересам Азербайджанской Республики в экономической области относятся:

- наращивание экономического потенциала;
- развитие рыночной экономики, совершенствование ее правовых основ;
- обеспечение экономической стабильности;
- создание благоприятных условий для внутренних и иностранных инвестиций в целях развития экономики;
- защита и эффективное использование природных и материальных богатств;
- обеспечение свободного и равноправного участия в формировании и деятельности регионального и мирового рынка [12].

23 мая 2007 года Распоряжением Президента Азербайджанской Республики утверждена «Концепция национальной безопасности Азербайджанской Республики», посвященная задачам дальнейшего социально-экономического развития страны, определяются его пути и формы. Являясь собирательной, синтетической категорией, экономическая безопасность тесно связана со следующими

понятиями: экономическая стабильность, экономическое развитие, экономическая независимость, экономический рост, экономический суверенитет, национальные интересы, угрозы национальной безопасности и др.

Экономическая безопасность как экономическая категория является основной составляющей национальной безопасности. Впервые понятие национальной экономической безопасности появилось в США в середине 30-х годов в период «Великой депрессии» и менялось в зависимости от уровня развития экономики и международных отношений в соответствующие периоды. Первейшим условием обеспечения национальной безопасности государства является обеспечение экономической безопасности. В современный период проблемы экономической безопасности имеют особое значение в связи с тем, что взаимосвязанные национальные экономики глубоко интегрируются в мирохозяйственную систе-му и испытывают на себе внешнее воздействие ее положительных и негативных тенденций.

Среди множества определений экономической безопасности отметим следующие. Так, академик Л. И. Абалкин отмечает, что «обеспечение экономической безопасности - это гарантия независимости страны, условие стабильности и эффективности жизнедеятельности общества, человека. Таково общее правило, не знающее исключений. Поэтому обеспечение экономической безопасности принадлежит к числу важнейших национальных приоритетов. Это показывает мировой опыт» [13]. Также он подчёркивает, что экономическая независимость означает возможность контроля государства за национальными ресурсами, достижения такого уровня производства, эффективности и качества продукции, который обеспечивает ее конкурентоспособность на мировом рынке. Экономическая безопасность это «состояние экономики и институтов власти, при котором обеспечиваются гарантированная защита национальных интересов, социальная направленность политики, достаточный оборонный потенциал» [14].

Экономическая безопасность это «Состояние, в котором народ может суверенно, без вмешательства и давления извне, определять пути и формы своего экономического развития» [15].

Экономическая безопасность - это «способность экономики обеспечивать эффективное удовлетворение общественных потребностей» [16].

Несмотря на множество определений, можно отметить, что большинством авторов экономическая безопасность рассматривается как совокупность факторов, обеспечивающих независимость национальной экономики, устойчивую конкурентоспособность, способность к постоянному обновлению и совершенствованию.

Тем не менее, считаем, что по существу содержание экономической безопасности является многоуровневым, включающим индивидуальный, микро, мезо, макро или национальный и мирохозяйственный уровень.

Государство должно выступать гарантом, обеспечивающим экономическую безопасность. Носителем национальных интересов является народ, а выразителем их должно быть государство, защищая и обеспечивая условия жизнеобеспеченности всех его субъектов [17]. Государственная стратегия национальной экономической безопасности должна включать характеристику внешних и внутренних угроз экономической безопасности как совокупности условий и факторов, создающих опасность для экономических интересов населения страны. Помимо этого необходим учет факторов, подрывающих устойчивость социально-экономической системы государства. Также необходимо учитывать, что в современный период экономическая безопасность формируется в условиях развития процессов глобализации и рыночных отношений. При выявлении условий обеспечения экономической безопасности отдельной страны необходимо учитывать следующие основные свойства: 1. Сохранение единого экономического пространства, обеспечивающего соблюдение национальных интересов; 2. Способность экономики возобновлять процесс расширенного воспроизводства во всех секторах и отраслях; 3. Соблюдение принципа государственного контроля над стратегическими ресурсами; 4. Обеспечение независимости экономики страны от импорта основных видов продукции; 5. Стимулирование инвестиционной и инновационной деятельности; 6. Сохранение условий пропорционального развития отраслей и регионов страны; 7. Поддержание необходимых условий жизнедеятельности населения; 8. Удержание таких показателей, как инфляция, безработица, бедность на уровне, необходимом для поддержания стабильности в обществе.

Экономическая безопасность страны в современных условиях приобретает первостепенное значение, т. к. она дает ориентиры для принятия важнейших социально-экономических решений. Постоянно происходящие изменения в общественно-экономической динамике обусловливают возможность появления кризисных явлений, что в свою очередь актуализирует проблему обеспечения экономической безопасности [18].

При оценке уровня экономической безопасности основополагающим фактором является разработка системы показателей экономической безопасности на современном этапе развития. Для оценки уровня обеспечения экономической безопасности в республике приведем ряд показателей макроэкономического, отраслевого и социального характера в настоящее время (2018 год); отставание среднедушевого ВВП от среднемирового - 60%, доля в промышленном производстве обрабатывающих отраслей - 21,9%; доля машиностроения в обрабатывающей промышленности - 0,4%; расходы на научные исследования в процентах к ВВП - 0,15%; экспорт в использованном ВВП - 16,6%; доля минеральной продукции

в экспорте - 92,1%; доля новых видов продукции в промышленном производстве - 0,06%; доля доходов населения, ниже прожиточного минимума - 5,1%; уровень безработицы - 4,9%; соотношение минимальной и средней заработной платы - 33%; доля оплаты труда в ВВП - 19,4%; уровень инфляции - 102,3%; дефицит бюджета в процентах к ВВП –

-0,3%; расходы на экологию в процентах к ВВП - 0,3% и др. Множество показателей, характеризующих как положительную сторону, так и отрицательную сторону, т. е. состояние обеспеченности экономической безопасности в настоящее время требуют, конечно, улучшения социально-экономической динамики в последующем через продолжение рыночного реформирования с использованием потенциала рыночного и государственного регулирования.

Обобщая отметим, что экономическая безопасность страны это такое состояние экономики, которое создает условия для ее динамичного развития, повышения эффективности в реальном секторе на микро, мезо, макроуровне, для претворения в жизнь социальных и экологических задач, а также для повышения инновационного уровня национальной экономики.

Заслуживает внимания сопоставление понятий экономическое развитие и экономическая безопасность и как отмечают авторы «с философской точки зрения развитие и безопасность представляются двумя различными, но тесно взаимосвязанными условиями жизнедеятельности в любой сфере. При этом определяющим условием является все же развитие, а безопасность это развитие лишь обеспечивает. Таким образом, обеспечение экономической безопасности следует рассматривать в качестве необходимого условия нормального функционирования и прогрессивного развития экономики» [19].

Экономическая безопасность составляет основу всех видов, уровней и форм безопасности. Национальная экономическая безопасность объективно должна отражать всю многогранную взаимосвязанную систему интересов страны, выражая потенциал и возможности ее экономического развития, и, следовательно, экономического суверенитета, т. е. национальной экономической системы. Основным свойством системы является ее целостность, а целостность подразумевает тесное взаимодействие составных частей. Следствием же целостности системы выступает ее интегрированность, которая не сводится к простой сумме ее слагаемых. В экономическом разрезе интегрированность означает, что взаимодействие частей системы создает дополнительную производительную силу, большую, чем сила отдельных ее частей. В условиях открытости и возрастания взаимозависимости национальных экономик под влиянием глобализации мировой экономики и непредвиденности некоторых факторов экономического развития активизируется задача обеспечения экономического роста и безопасности.

## Заключение

Теоретическое значение понятий экономической и национальной безопасности исходят из множества взглядов, и предполагает определение их содержания, видов и понимание главных угроз, механизмов обеспечения, направлений эффективной экономической политики государства. Несмотря на наличие определенного количества позиций об экономической безопасности, они не исключают друг друга, а взаимодополняют и относятся к каждой стране в большей или в меньшей степени в зависимости от конкретной экономической социально-экономической динамики. Примененная система показателей экономической безопасности показывает на состояние безопасности республики, ее отличие от показателей других стран, а также на положительные и отрицательное их значение, указывающих необходимость достижения устойчивого роста и соответствия национальным интересам.

**Литература**

1. Лапуста М. Г. Предпринимательство. М. Инфра, 2008 г. с.608;
2. Латов Ю. В. «Российская теневая экономика в контексте национальной экономической безопасности.» ТЕРКА, 2007г. Т.5, №1.с.16-27;
3. Лист Ф. «Национальная система политической экономии» М.Европа, 2005г;
4. Дж. Кейнс «Общая теория занятости, процента и денег». М.1978г.;
5. Э. де Сото «Иной путь». Челябинск.2007г.с.408;
6. Kirshner, J. Political Economy in Security Studies aftter the Cold War. [Text] // Review of International Political Economy.- 1988.- Vol. 5, No 1. P. 64 – 91.;
7. Cable, V. What is International Economic Security?// International Affairs.- 1995.- Vol. 71, No. 2.- P. 312-317;
8. Jiang Yong. Economic Security: Redressing Imbalance.// China Sacurity.- 2008. – Vol. 3, No 2.-P. 66–85;
9. Емельянов Г. В. «Проблемы обеспечения информационной безопасности субъектов Российской Федерации». Информационное общество.1998г.№1.с.35-47;
10. Сенчагов В. К. «Экономическая безопасность: геополитика, глобализация, самосохранение и развитие». Книга четвертая,.М.ЗАО «Финстатинформ»-2002г.с.128;
11. Коршунов С. В. Национальная и международная безопасность: концептуальные основы. М.ГУ-ВШЭ.2007г.с.20;
12. Закон Азербайджанской Республики «О национальной безопасности». Баку, 29 июня 2004 года;
13. Абалкин Л. И. Вопросы экономики, М-1994г.,№ 12.стр.4;
14. Экономическая безопасность. Производство, финансы, банки-М-ЗАО «Финстатинформ». 1998г.;
15. Жандаров А. М., Пертов А. А. Экономическая безопасность России: определения, гипотезы, расчеты». Безопасность №3, 1994г.;
16. Архипов А., Городецкий А., Михайлов Б. «Экономическая безопасность: оценки, проблемы, способы обеспечения» Вопросы экономики,№12.1994г.;
17. Сенчагов В. «Экономическая безопасность как основа обеспечения национальной безопасности России», Вопросы экономики, 2001г., №8.стр.68;
18. Шаринова Г.А., Павлова Н.Ц. «Экономические аспекты национальной безопасности государства». Ж-л «Экономика и предпринимательство» 2016г.,№1.ч.2.стр.107;
19. Прохожев А., Корнилов М. «О проблеме критериев и оценок экономической безопасности» ж-л.Общество и экономика. 2003г,№4-5.с.228;
20. Статистические показатели Азербайджана, Азгоскомстат, Баку-2019 г.;
21. Национальные счета Азербайджана, Азгоскомстат, Баку-2019 г.

UNEC Elmi Xəbərləri, İl 8, Cild 8, iyul-sentyabr, 2020, səh. 102 - 112
Scientific Reviews in UNEC, Year 8, Volume 8, July-September, 2020, pp. 102 - 112

# ÖHDƏLİKLƏRİN YARANMASI, DƏYİŞİLMƏSİ VƏ TANINMASININ DAYANDIRILMASININ MÜHASİBAT UÇOTUNDA ƏKS ETDİRİLMƏSİ METODİKASI

*Daxil olub: 02 noyabr 2020-ci il;*
*Qəbul olunub: 19 noyabr 2020-ci il*
*Received: 02 November 2020;*
*Accepted: 19 November 2020*

***G.İ.Əkbərova***[1]
[1]*Dissertant, "Mühasibat uçotu və audit" kafedrası, UNEC*
[1]*guler.akbarova@gmail.com*

## Xülasə

Məqalədə debitor və kreditor borclarının yaranması, dəyişilməsi və tanınmasının dayandırılmasının mənfəətin kəmiyyətinə təsiri tədqiq edilmişdir. Göstərilmişdir ki, maliyyə nəticələrinin kəmiyyəti və tanınması real pul axınları ilə deyil, həmçinin həmin öhdəliklərin mövcudluğu və dinamikası ilə də müəyyən edilir. Debitor borclarının ödənilməsi (daxil olması) ödəmə qabiliyyətinin artımını xarakterizə edir. Əldə olunan pul şübhəsiz ki, debitor borcları ilə müqayisədə daha yüksək likvidlidir. Daha sonra müəyyən edilmişdir ki, kreditor borclarının ödənilməsi maliyyə levericini yüksəltməklə təşkilatın ödəmə qabiliyyəti haqqında məlumatları müsbət anlamda dəyişdirir. Bu cür dəyişiklik ödəmə qabiliyyəti əmsalının kəmiyyətinin artımını əks etdirir. Əgər təsərrüfatçılıq subyektində əmlak çoxdursa və borc azdırsa, onda borcun qaytarılması daha yüksək ödəmə qabiliyyətini sübut edir, əksinə, əgər müəssisədə əmlak azdırsa və borc çoxdursa, onların qaytarılması nə qədər paradoksal görünsə də, müflisləşmə deməkdir.

***Açar sözlər:*** *Öhdəlik, debitor borcları, kreditor borcları, likvidlik, maliyyə leverici, rentabellik, dekapitallaşma, rekapitallaşma, novasiya.*

# METHODS OF REFLECTING THE FACTS OF CREATION, CHANGE AND TERMINATION OF LIABILITIES IN FINANCIAL ACCOUNTING

***G. I. Akbarova***[1]
[1]*PhD Candidate, Department of "Accounting and Audit", UNEC*
[1]*guler.akbarova@gmail.com*

## Abstract

The article investigates the effect of accounts receivable repayment on profit margins, as recognition of financial results is determined by the dynamics of liabilities, and not by real cash flows, which means an increase in solvency. The money actually received is, of course, significantly more liquid than the debts of debtors.

It is further determined repayment of accounts payable by increasing the financial leverage ratio changes the solvency of the organization, depending on the value of the solvency ratio until the debt is repaid, or upwards.

This observation leads us to very interesting conclusions: if an economic entity has a lot of property and few debts, then repaying debts becomes even more solvent. If, on the contrary, the organization has little property and a lot of debts, their return, paradoxically, will mean bankruptcy.

***Keywords:*** *Innovation, capitalization, recapitalization, decapitalization, liquidity, financial leverage, profitability, commitment.*

## МЕТОДИКА ОТРАЖЕНИЯ В БУХГАЛТЕРСКОМ УЧЕТЕ ВОЗНИКНОВЕНИЯ, ИЗМЕНЕНИЯ И ПРЕКРАЩЕНИЯ ПРИЗНАНИЯ ОБЯЗАТЕЛЬСТВ

***Г. И. Акперова***[1]

*[1]Диссертант, кафедра «Бухгалтерский учет и аудит», UNEC,*

*[1]guler.akbarova@gmail.com*

**Резюме**

В данной статье исследовано влияние факта погашения дебиторской задолженности на величину прибыли, так как признание финансовых результатов определяется динамикой обязательств, а не реальным движением денежных потоков, что отражает рост платежеспособности. Действительно, полученные деньги, безусловно обладают значительно большей ликвидностью, нежели долги дебиторов. Далее определено, что погашение кредиторской задолженности повышая коэффициент финансового левериджа изменяет данные о платежеспособности организации, в зависимости от значения коэффициента платежеспособности до факта погашения долга, либо в сторону увеличения.

Проведенные исследования позволяют сделать вывод о том, что если у хозяйствующего субъекта много имущества и мало долгов, то, отдавая долги, субъект становится ещё более платежеспособным. Если же, наоборот, у субъекта мало имущества и много долгов, их возврат, как это не парадоксально, будет означать его банкротство.

***Ключевые слова:*** *Обязательство, дебиторская задолженность, кредиторская задолженность, финансовый левеpидж, рентабельность, декапитализация, рекапитализация, новация.*

## Giriş

Təsərüfatçılıq subyektlərinin maliyyə vəziyyətinə və hər şeydən əvvəl maliyyə nəticələrinin formalaşmasına öhdəliklərin yaranması, onların kəmiyyətinin dəyişilməsi və ödənilməsi faktları ciddi təsir göstərir. Öhdəliklərin dəyişilməsi dedikdə -öhdəliklərin hüquqi, iqtisadi və mühasibat mahiyyətinin dəyişilməsi üzrə faktların baş verməsi başa düşülür.

Öhdəliklərin hüquqi mahiyyətinin dəyişilməsi müqavilənin qüvvəyə minməsi nəticəsində baş verə bilər. Yeni qanun yeni qaydalar müəyyənləşdirməklə öhdəliyin kəmiyyətini dəyişdirmək imkanına malikdir. Məsələn, vergi haqqında qanunvericilikdə dəyişikliklər müəssisədə mövcud olan vergilərin büdcəyə ödənilməsi üzrə kəmiyyətlərini dəyişə bilər.

## Əsas hissə

Kontragent qarşısında müəssisənin öhdəlikləri və kontragentlərin müəssisə qarşısındakı öhdəlikləri dedikdə iqtisadi nöqteyi-nəzərdən müvafiq surətdə alınmış və verilmiş kreditlər və digər borclar başa düşülür. Belə borcların mövcudluğu bütün hallarda təsərrüfatçılıq subyektinin gəlirlərinin və xərclərinin mənbələrini təcəssüm etdirir.
Öhdəliklərin iqtisadi mahiyyətinin dəyişilməsi, onların formalaşdırdığı maliyyə nəticələrinin dəyişilməsinə gətirib çıxarır. Məsələn, əgər müəssisə ona verilən kreditin köməyi ilə kreditora ödədiyi faizdən çox mənfəət əldə edirsə, onda mövcud öhdəlik müəsisə üçün səmərəlidir. Əgər, əksinə, kredit üzrə ödənilən faiz alınan mənfəəti üstələyirsə, onda kredit iqtisadi cəhətdən səmərəli deyildir.
Müəssisə tərəfindən verilən və alınan pul vəsaitləri, digər əmlak növləri özlüyündə debitor (kontragentlərə verilən) və kreditor (kontragentdən alınan) borclarıdır. Bunlar təkcə kredit və borc müqavilələri üzrə öhdəlik deyil, həmçinin malalanlar, malsatanlar, müxtəlif debitor və kreditorlarla, büdcə ilə, işçilərlə və s. ilə hesablaşmalar deməkdir. Bu zaman gəlirlər və xərclər dedikdə, burada təkcə alınası və ödənilәsi məbləğləri deyil, həmçinin əldən verilən səmərəni də görmək lazımdır. Məsələn, işəgötürənin əmək ödəməsi üzrə borcu əmək qanunvericiliyinin normalarına görə həmin məbləğə faiz hesablanmasını nəzərdə tutmur və eyni zamanda günə-gün ödənilir (bəzən ayda iki dəfə). Beləliklə, daimi işçiləri daimi əsasda müəssisə kreditləşdirir (özünün əməkhaqqı məbləğində). Daha sonra aydın görünür ki, pulun qiymətdən düşməsi hallarında büdcə qarşısında öhdəliklərin dəyişilməsi vergi ödəyiciləri üçün əlverişli, dövlət büdcəsi üçün isə əlverişsizdir və i.a.
Öhdəliklərin mühasibat mahiyyətinin dəyişilməsi dedikdə, onun mühasibat uçotunun qaydalarının dəyişilməsi və həmin dəyişikliyin öhdəliyin yaranması anından ödənilməsi anınadək maliyyə hesabatında əks etdirilməsi başa düşülməlidir. Məsələn, qüvvədə olan metodologiyaya görə deponentləşdirilən əməkhaqqı adlandırılan borc, başqa sözlə, əməkhaqqını ödəmək üzrə öhdəlik (vaxtında ödənilməyən) 202-2 "İstehsalatla (işlə və xidmətlə) məşqul olan işçi heyəti ilə bağlı məsrəflər" adlı hesabda deyil, 538 "Digər qısamüddətli kreditor borcları" adlı hesabda əks etdirilir. Bu halda müəssisənin nə işçilər qarşısında öhdəlikləri, nə də onun məbləği dəyişikliklərə məruz qalır. Başqa sözlə, öhdəliklərin uçotu qaydası, daha konkret desək, onun xalis mühasibat

mahiyyəti dəyişikliyə uğrayır. Beləliklə, öhdəliklərin mühasibat mahiyyətinin dəyişilməsi dedikdə, öhdəliklər haqqında informasiyaların mühasibat uçotu hesablarında əks etdirilməsi və onun maliyyə hesabatlarında təqdim olunması metodikasının dəyişilməsi başa düşülməlidir.

Müəssisənin öhdəlikləri haqqında informasiyaların maliyyə hesabatında əks etdirilməsinin metodoloji priyomlarının seçilməsi onun maliyyə vəziyyətinin təhlilinin praktik olaraq bütün istiqamətlərinin nəticələrini müəyyənləşdirir. İlk növbədə öhdəliklərin uçotunun mövcud qaydası təsərrüfatçılıq subyektinin ödəmə qabiliyyətinin qiymətləndirilməsinin nəticələrinə təsir göstərir. Müəssisənin ödəmə qabiliyyətini qiymətləndirərək, biz onun daha yüksək likvid əmlakını kreditor borcları ilə müqayisə edirik. Əslində borc uzunmüddətli (bir ildən yuxarı) və qısamüddətli (bir ildən aşağı) borclara bölünür. Ödəmə qabiliyyətlərini hesablamaq üçün yalnız qısamüddətli borclara diqqət yetirilir, başqa sözlə aktivlər həmin ilin yalnız cari ödənişlərini təmin etməlidir. Eyni zamanda mühasibat uçotunda bu və ya digər öhdəliyin necə təsnifləndirilməsindən (əks etdirilməsindən) asılı olaraq müəssisənin ödəmə qabiliyyətinin mənzərəsi kəskin surətdə dəyişir. Bu onunla əlaqədardır ki, balans, bütün hallarda imzalandığı tarixə müəssisənin maliyyə vəziyyətini əks etdirməlidir. Odur ki, öhdəliklərin uzunmüddətli və qısamüddətli öhdəliklərə bölünməsi bilavasitə balansın tərtib edildiyi tarixə həyata keçirilməlidir. Bununla yanaşı, praktikada bəzən səhv üzündən, bəzən də düşüncəli surətdə ödəmə müddəti bir ildən yuxarı olan borc ödənildikdə balansda uzunmüddətli kimi nümayiş etdirilir, daha sonra ödəmə müddəti bir ildən az olduqda balansın qısamüddətli öhdəliklər bölməsinə köçürülür. Hesabatın bu qaydada saxtalaşdırılmasının nəticəsi olaraq müəssisənin mühasibat balansının məlumatları əsasında hesablanan ödəmə qabiliyyəti göstəricilərini əhəmiyyətli dərəcədə artırmaq olar.

Öhdəliklərin kəmiyyətindəki dəyişikliklər müəssisənin rentabelliyinin qiymətləndirilməsinə də təsir göstərir. Rentabellik göstəricisi bir manat xərcə neçə qəpik mənfəət gətirildiyini nümayiş etdirir. Göstəricinin şərhindən asılı olaraq xərc qismində ya aktivin orta kəmiyyəti, ya da xərclərin dövr ərzində dekapitallaşdırılan məbləği götürülür. Birinci halda xərc aktivlərin seçilmiş qiymətlərindən asılıdır. Obyektin qiyməti nə qədər yüksəkdirsə, rentabellik bir o qədər aşağıdır, ikinci halda, əksinə, dekapitallaşma nə qədər aşağıdırsa, rentabellik bir o qədər yüksəkdir.

Konkret desək, müəssisə öhdəliklərinin mühasibat uçotunun metodikasının onun rentabelliyinin qiymətləndiriməsinə təsiri özünü onda göstərir ki, müəssiənin gəlirləri faktik olaraq özlüyündə onun kontragentlərinin öhdəliklərinin məbləğində, xərcləri isə onun kontragentləri qarşısındakı öhdəlikləri məbləğində təcəssüm edir.

Burada hər şeydən əvvəl öhdəliklərin elə bir mühasibat qiymətləndirilməsi əhəmiyyət daşıyır ki, ondan asılı olaraq müəssiənin gəlir və xərcləri maliyyə hesabatında əksini

tapmış olur. Bu isə ilk növbədə mübahisəli borclar üzrə rezervlər hesablandıqda öhdəliklərin mühasibat qiymətləndirilməsindəki dəyişikliklərə aid edilir.
Öhdəliklərin mühasibat mahiyyətində olan dəyişikliklər təsərrüfatçılıq subyektlərinin cəlb olunmuş maliyyələşmə mənbələrindən asılılıq dərəcəsini əks etdirən göstəricilərin dəyişilməsi amili kimi də çıxış edir. Müəssisə vəsaitlərinin yaranma mənbələrinin xüsusi və cəlb edilmiş mənbələrə ayrılması maliyyə hesabatının əhəmiyyətini müəyyənləşdirir. Məsələn, məqsədli maliyyələşmə həm xüsusi vəsaitlərin tərkibinə, həm də cəlb olunmuş vəsaitlərin tərkibinə daxil edilə bilər. Bu həmçinin balansın passivində əks etdirilən rezervlərə də aiddir. Belə ki, rezervlər ya xüsusi vəsait mənbələrinin elementi kimi, ya da kreditor borcu kimi tanına bilər. Birinci halda hüquqi status, ikinci halda isə iqtisadi status nəzərdə tutulur. Əslində rezerv kreditor borclarının ödənməsi kimi aktivlərin qarşıdan gələn xaric olması deməkdir (mühasibat uçotunun mövcud metodikası anlamı baxımından).
Öhdəliklərin hüquqi mahiyyətinin dəyişilməsi faktlarının mühasibat uçotu məsələləri bir sıra alimlərin monoqrafiyalarında izah edilmişdir [1; 5; 6].
Öhdəliklərin tanınmasının dayandırılması özlüyündə onların balansdan silinməsi deməkdir. Əgər biz öhdəliklərin tanınmasının dayandırılmasına qədər onun (öhdəliyin) mövcudluğu barədə danışa biləriksə, tanınma dayandırıldıqdan sonra isə onun atıq mövcud olmaması fikri ilə razılaşmalıyıq.
Öhdəliyin şərtləri dedikdə onun mahiyyəti başa düşülür, başqa sözlə, tərəfləri arasında bağlanılan öhdəlik üzrə müqavilənin şərtləri anlaşılır. Məqalənin əvvəlində biz qeyd etmişdik ki, öhdəlik qismində bir şəxs (borclu) digər şəxsin (kreditor) xeyrinə müəyyən əməliyyatı həyata keçirir. Belə əməliyyatlara aiddir: əmlak vermək, iş yerinə yetirmək, pul ödəmək və s. Kreditor bütün hallarda borcludan öz vəzifəsini yerinə yetirməyi tələb etmək hüququna malikdir. Öhdəliyin predmeti kimi çıxış edən fəaliyyətin faktik yerinə yetirilməsi, yaxud borclu tərəfindən müəyyən fəaliyyətdən imtina edilməsi hər iki halda öhdəliyin icrası kimi başa düşülür. Məsələn, iki müəssisə - malgöndərən və alıcı təşkilat arasında bağlanan müqaviləyə görə malgöndərən müəyyən müddət ərzində müəyyən həcmdə mal göndərməyi öhdəsinə götürür, malalan isə malı aldıqdan sonra malsatana nəzərdə tutulan məbləğdə pul köçürməyi öhdəsinə götürür. Bu halda öhdəliyə görə tərəflərin bağladığı müqavilə əsasında malsatan debitor, malalan isə kreditor qismində çıxış edir. Malsatan tərəfindən müqavilə əsasında lazımi keyfiyyətdə və həcmdə malın alıcıya verilməsi həmin müqavilə üzrə öhdəliyin yerinə yetirilməsi kimi qəbul edilir.
Malsatan tərəfindən öhdəliyin icra olunması faktı mühasibat uçotunda müvafiq köçürmələr vasitəsi ilə rəsmiləşdirilir. Malsatanın mühasibat uçotunda satışın maliyyə nəticəsi müəyyən edilir (malın maya dəyəri ilə onun satış qitməti arasındakı fərq).

Malalan aldığı malın dəyərini ödəmək öhdəliyi üzrə debitor kimi çıxış edir. Bu öhdəliyin icrası dedikdə, malalan tərəfindən pulun malsatanın hesabına köçürülməsi başa düşülür. Köçürülən vəsait məbləğində malalanın mühasibat uçotunda həmin öhdəliyin icrasını əks etdirən müvafiq yazılış həyata keçirilir.

Öhdəliyə müəssisənin maliyyə vəziyyətinin mənzərəsinə təsiri mövqeyindən yanaşsaq, onun ödənilməsi faktı özlüyündə ya aktiv üzrə rekapitallaşma (debitor borclarının ödənilməsi), ya da passiv üzrə dekapitallaşma (kreditor borclarının ödənilməsi) deməkdir.

Debitor borclarının ödənilməsi faktı əslində mənfəətin kəmiyyətini dəyişdirmir, başqa sözlə, maliyyə nəticələrinin tanınması real pul axınları ilə deyil, daxil olmuş öhdəliklərin dinamikası ilə müəyyənləşdirilir. Bu isə özlüyündə ödəmə qabiliyyətinin artması deməkdir. Həqiqətən də alınan pullar, şüphə yoxdur ki, debitorların borcları ilə müqayisədə daha çox likvidlidir.

Kreditor borclarının ödənilməsi maliyyə leverici əmsalını yüksəltməklə müəssənin ödəmə qabiliyyəti haqqında məlumatları müsbət istiqamətdə dəyişdirmiş olur.

Borcun ödənilməsi faktınadək olan hallarda ödəmə qabiliyyəti müsbət xarakterə (≥1) malikdir, borcun ödənilməsi əmsalın surətini və məxrəcini kəmiyyətə bərabər səviyyədə saxlamaqla, onun əhəmiyyətini azaldır. Belə bir asılılıq şərti işarələrin qəbulunun köməyi ilə daha aşkar görünür. Məsələn, ödəmə qabiliyyətinin əmsalını surətdə A, məxrəci isə B adlandırsaq, onda ödəmə qabiliyyəti əmsalı bərabər olaraq: K=A/B. Öhdəliyin ödənilmə məbləğini şərti olaraq N adlandırsaq, onda borcun ödənilməsi faktından sonra hesablanılan ödəmə qabiliyyəti əmsalı belə olacaq: K=(A-N)/(B-N). Bu şərti işarələrdən istifadə etməklə, biz, növbəti asılılıq haqqında danışa bilərik. Əgər borc ödənilənədək A<B, onda K'<K; əksinə, A>B, onda K'>K olacaq.

Məsələn, fərz edək ki, müəssisənin dövriyyə aktivlərinin məbləği surətdə A=100000 man, öhdəliyin məbləği isə məxrəcdə B=200000 manat təşkil edir. Belə olduqda K=100000/200000=0,5-ə bərabərdir. Müəssisə 20000 manata bərabər olan borcu (N) ödəyir. Bu halda A-N=10000; B-N=110000; K'=1000/110000=0,09.

Daha sonra əks situasiyanı nəzərdə tutsaq, onda borc ödənilənədək N=90000, A=200000, B=100000, müvafiq surətdə K=2 olacaq. Borc ödənildikdən sonra K'=110000/10000=11 olacaq.

Deyilənlər aşağıdakı kimi nəticə çıxarmağa imkan verir: əgər təcərrüfatçılıq subyektində əmlak çox, borc azdırsa onda borcu ödəməklə müəssisənin ödəmə qabiliyyəti daha yüksək olur. Əgər əksinə, müəssisədə əmlak azdırsa, borc çoxdursa onların qaytarılması da müflisləşmə ilə nəticələnəcək. Bəzən tərəflərin razılığı ilə öhdəliklər geriyə çəkilmə yolu ilə (pul ödənilməsi, əmlakın verilməsi və s.) dayandırıla bilər. Belə geriyə çəkilmənin ölçüsü, müddəti və qaydası tərəflər tərəfindən müəyyənləşdirilir.

Geriyə çəkilmənin iqtisadi mahiyyəti bundadır ki, borclu onun icrasından imtina edərək, kreditorun zərərini ödəyir. Məsələn, biz mal göndərilməsi haqda müqavilə bağla-

maqla, alıcı qismində çıxış edirik. Müqaviləyə uyğun olaraq malgöndərən müəyyən dövrdə müqavilədə qeyd olunan qiymətlə bizə müəyyən həcmdə mal göndərilməsini öhdəsinə götürmüşdür. Müqavilə bağlamaqla biz bir tərəfdən digər malgöndərənlərlə müqavilə bağlamadan həmin malın alınmasını nəzərdə tuturuq, digər tərəfdən özümüzün pul axınlarımızı planlaşdırırıq ki, sərbəst pul vəsaitləri ilə gözlənilən malın dəyərini ödəyə biləк. Malgöndərənin özünün öhdəliyindən imtina etməsi malın vaxtında göndərilməməsi ilə bağlı bizim üçün zərər sayılır. Həmin zərərin ödənilməsi üçün biz malgöndərəndən müəyyən məbləğdə pul tələb edirik (müqavilədən geriyə çəkilməsinə görə). Beləliklə, əlavə xalis gəlirin – planlaşdırılmayan mənfəətin alınmasını necə bir geriyə çəkilmə kimi mühasibat uçotunda əks etdirmək səhv olardı. Əslində geriyə çəkilmə həmin öhdəliyin yerinə yetirilməsi ilə bağlı çəkilən xərclərin ödənilməsi haqqında kontragentlərin öhdəlikləri yerinə yetirməməsi ilə əlaqədar razılaşma kimi başa düşülməlidir. Belə bir halda geriyə çəkilmə ilə əlaqədar kreditorun ödəməyə razılaşdığı məbləğ aşağıdaki kimi ola bilər:

1. Kontragent tərəfindən öhdəliyin icra olunmaması üzündən çəkilən xərclərdən azalan məbləğ;
2. Həmin xərclərə bərabər olan məbləğ;
3. Kontragentin öhdəliyin yerinə yetirməməsi ilə bağlı çəkilən xərclərdən artıq olan məbləğ.

Kontragent tərəfindən öhdəliyin icra olunması ilə bağlı müəssisənin xərclərinin qiyməti ilə alınmış geriyə çəkilmə məbləğinin qiyməti arasındakı fərq öhdəliyin dayandırılması faktından alınan maliyyə nəticəsi kimi xarakterizə olunur [2].

Geriyə çəkilmə faktının maliyyə nəticələrinin mühasibat uçotunda əks etdirilməsi müəssisənin maliyyə vəziyyətinin mənzərəsinə də təsiri göstərir.

Geriyə çəkilmə faktı borclu müəssisədə müsbət maliyyə nəticəsinə gətirib çıxarırsa, onda verilən dəyərlərin qiymətləndirilməsi məbləğinin dekapitallaşmasını və mənfəət məbləğinin kapitallaşmasını göstərəcək. Buradan alınan nəticə ödəmə qabiliyyəti, rentabellik və maliyyə leverici göstəricilərinin artması deməkdir.

Əks situasiyada - öhdəliyin dayandırılması nəticəsində geriyə çəkilmədən alınan zərər müəssisənin maliyyə vəziyyətinin qiymətləndirilməsi göstəricilərinin aşağı düşməsi kimi anlaşılır.

Müvafiq olaraq ayrılıqla qeyd edilən hər iki situasiya borclu müəssisədə kreditor müəssisə ilə müqayisədə birbaşa əks mahiyyət daşıyacaq.

Bir sıra hallarda öhdəliklər ya tamamilə, ya da qarşılıqlı tələblər əsasında qismən dayandırılır. Mövcud qaydalara görə bunun üçün bir tərəfin ərizə ilə müraciəti kifayətdir. Məsələn, hər hansı müəssisə tərəfindən alınan bir partiya mal üçün mal göndərən təşkilat qarşısında 70000 manat məbləğində borc yaranmışdır. Ancaq əgər

nəzərə alınsa ki, həmin mal göndərənə əvvəlcədən 70000 manat məbləğdə avans ödənilmişdi, onda bu halda mal göndərənə həmin tələblərin əvəzlənməsi haqqında məlumatın verimməsi kifayət edir.

Tərəflərin müqaviləsi əsasında bəzi öhdəliklər eyni olmayan məbləğlər həcmində də əvəzlənə bilər (məsələn onların ödənilmə müddəti müxtəlif olduqda). Belə ki, müəssisə üçün tələblərin məqbul sayılması dedikdə, onun kontragent qarşısında kreditor borcunun həmin kontragent qarşısında debitor borcu ilə qarşılıqlı surətdə ödənilməsini nəzərdə tutulur. Qarşılıqlı məqbul faktı müvafiq hesablaşma hesabı üzrə açılan analitik hesabda qeydə alınır. Məqbul vasitəsilə öhdəliklərin dayandırılması debitor və kreditor borcları üzrə öhdəliklərin dekapitallaşması deməkdir.

Bütün hallarda debitor borclu ilə kreditor borcunun bir şəxsdə üst-üstə düşməsi onların tanınmasının dayandırılmasına səbəb olur. Belə bir hala müəssisə tərəfindən xüsusi veksellərin satın alınması misal göstərilə bilər. Müəssisə tərəfindən verilən, yaxud özü tərəfindən aksept olunan vekselin satın alınması anından borclu və kreditor müəssisə veksel verən şəxs kimi üst-üstə düşür. Əgər veksel verən satın aldığı sənədi gələcək dövriyyəyə buraxmaq istəmirsə, onda həmin qiymətli kağız üzrə öhdəlik borclu şəxsin və kreditor şəxsin timsalında üst-üstə düşdüyü üçün dayandırılır.

Öhdəliklərin tanınmasının dayandırılmasının həmin variantına münasibətdə qeyd etmək lazımdır ki, borclunun və kreditorun bir şəxsdə üst-üstə düşməsi faktı istənilən halda borclu tərəfindən xüsusi öhdəliklərin satın alınması zamanı ortaya çıxa bilər.

Mövcud qaydaya görə tərəflər arasında baş verən ilkin öhdəliklərin tanınması onların razılaşmaları vasitəsi ilə dayandırılır. Məsələn, A müəssisəsi özünün məhsulunu 200000 manata satır. Məhsulun alıcısının A müəssisəsi qarşısında öhdəliyi yaranır. A müəssisəsi, malalan müəssisə ilə mal göndərilməsi haqqında müqaviləyə əlavə olaraq yeni müqavilə imzalayır. Yeni müqaviləyə görə malalan pul vəsaiti ödəmək əvəzinə A müəssisəsinə 200000 manat dəyərində xidmət göstərməlidir. Bu sazişin imzalan-ması anında öhdəliyin novasiyası baş verir: pulun ödənilməsi haqqında malalanın öhdəliyi dayandırılır, onu yeni öhdəlik - xidmət göstərmək öhdəliyi əvəzləyir. Belə bir halda mühasibat uçotu mövqeyindən heç bir hadisə baş vermir - bir öhdəlik üzrə aktiv digərini əvəzləyir, eyni zamanda nə aktivlərin tərkibi, nə də onların qiymətləndirilməsi dəyişikliyə məruz qalmır - 200000 manat məbləğində ödənilməyən debitor borcu ortalıqda qalır. Odur ki, həmin əməliyyatlarla bağlı sintetik hesablar üzrə mühasibat köçürmələrinin tərtib edilməsinə ehtiyac olmur. Öhdəliklərin novasiyası faktı yalnız o halda mühasibat uçotunda xüsusi əksini tapır ki, tərəflərin razılıqları əsasında əvvəlki öhdəliyin məbləği ona bərabər olmayan yenisi ilə əvəzlənir. Belə olan halda mövcud olan öhdəliklər arasındakı fərq ya kreditorda zərər kimi (1), ya da borcluda mənfəət kimi (2) əks etdirilir. Əgər yeni öhdəliyin qiymətləndirilən məbləği əvvəlki məbləğdən azdırsa, aradakı fərq kreditorda mənfəət, borcluda isə zərər kimi təzahür edir.

Novasiya dedikdə öhdəliklərin məbləğinin rekapitallaşması başa düşülür. Əgər dayandırılan novasiya öhdəliyinn məbləği ilə yeni öhdəliyin məbləği üst-üstə düşürsə, onda novasiya faktının mühasibat uçotunda əks etdirilməsi müəssisənin maliyyə vəziyyətinin hesabatda nümayiş etdirilən mənzərəsini ümumiyyətlə dəyişmir. Novasiya zamanı öhdəliyin məbləğinin dəyişilməsi müvafiq surətdə mənfəətin kəmiyyətinin artımına (kapitallaşmasına), yaxud azalmasına (dekapitallaşmasına) gətrib çıxarır. Nəticədə müvafiq olaraq rentabellik və maliyyə leverici göstəriciləri dəyişikliyə uğrayır.

Borcun bağışlanması müəssisə-kreditor tərəfindən xeyirxahlıq fəaliyyətinin həyata keçirilməsi çərçivəsində baş tuta bilər. Tutalım ki, müəssisə uşaq baxçasına ərzaq məhsulları göndərir. Müəssisə rəhbərliyinin qərarı əsasında uşaq baxçasının sonuncu borcu ərzaq məhsulları göndərilənədək olan borcu bağlanır. Borcun bağlanılması üzrə öhdəliyin tanınmasının dayandırılması faktı uşaq baxçası üçün bağışlanan məbləğ həcmində alınan mənfəət kimi əks etdirilməlidir.

Borcu bağışlayan müəssisə üçün öhdəliyin tanınmasının dayandırılması faktı əslində düşünülmüş şəkildə xüsusi vəsait mənbələrinin hər hansı bir gəlir gətirməsini gözləmədən istifadəsi deməkdir. Müvafiq surətdə bağışlanılan borcun məbləği zərər şəklində deyil, bölüşdürülməmiş mənfəətin istifadəsi kimi silinməlidir.

Mühasibat uçotunda müəssisə üçün bağışlanma faktı özlüyündə aktivlərin dekapitallaşması (debitor borcları) və passivin dekapitallaşması (kreditor borcları), başqa sözlə, onun bütövlüklə maliyyə vəziyyətinin aşağı düşməsi deməkdir. Borclu üçün isə bu passiv öhdəlik məbləğinin rekapitallaşması mənasını daşıyır. Borclu üşün həmin faktın nəticəsi rentabellik, maliyyə leverici və ödəmə qabiliyyətinin artması kimi xarakterizə olunur [3, 4].

Bəzən elə hallar olur ki, öhdəlik icranın mümkünsüzlüyü üzündən dayandırılır və bu vəziyyətə tərəflərin heç birisi cavabdehlik daşımır. Məsələn, A müəssisəsi B müəssisəsi ilə binanın divarlarının rənglənməsi üçün müqavilə imzalamışdır. Həmin müqaviləyə əsasən A müəssisəsinin bir podratçı kimi B müəssisəsinin qarşısında divarın rənglənməsi üzrə öhdəliyi yaranır. Daha sonra güman edək ki, iş başlananadək binada yanğın baş vermişdir və buna görə də, binanı rəngləmək mümkün deyildir. Son nəticədə A müəssisəsi B müəssisəsi qarşısındakı öhdəliyini yerinə yetirə bilmir və icranın mümkünsüzlüyü ucbatından öhdəlik dayandırılır.

Belə bir halda öhdəliyin tanınmasının dayandırılması faktı mühasibat uçotunda əks etdirilməyəcək, başqa sözlə, müəssisənin müqavilədən irəli gələn öhdəliyinin icrasına başlanılmadığı üçün mühasibat uçotunda debitor yaxud kreditor borcu qismində qeydlər aparılmayacaq.

Əgər dövlət orqanlarının qərarı nəticəsində öhdəliyin icrası tam və ya qismən mümkünsüz olursa, öhdəliyin ya tam, ya da müvafiq hissəsi dayandırılır. Məsələn, A

müəssisə B müəssisəsi ilə gələcək inşaat obyekti üçün kotlovan qazılması barədə podrat müqaviləsi bağlamışdır. Bu zaman A müəssisəsi sifarişçi qismində, B müəssisəsi isə podratçı qismində çıxış edir. Bağlanılan müqaviləyə görə B müəssisəsinin A müəssisəsi qarşısında müəyyən müddət ərzində kotlovan qazılması üzrə işin yerinə yetirilməsi üçün öhdəliyi meydana gəlir. Lakin işin başlanılması müddətinədək yerli hakimiyyət orqanları tərəfindən kotlovanın qazılacağı ərazidə tikinti işlərini qadağan edən normativ akt imzalanır. Bu halda öhdəliyin icrası mümkün olmur. Əslində öhdəliyin baş verməsi faktının özü uçotda əksini tapmadığı üçün, onun ləğvi ilə əlaqədar olaraq hər hansı bir mühasibat yazılışının tərtibinə ehtiyac yoxdur.

Bəzən borclunun ölməsi ilə bağlı öhdəliyin tanınması dayandırılır. Əgər öhdəlik ölən borclunun iştirakına bilavasitə bağlıdırsa, onda onun şəxsi iştirakı olmadan öhdəliyin icrası qeyri-mümkündür. Məsələn, müəssisə M.İ.Kələntərovla binanın fasadının rənglənməsi üzrə podrat müqaviləsi bağlamışdır. Bu müqaviləyə görə M.İ.Kələntərovun binanın fasadının rənglənməsi üzrə müəssisə qarşısında öhdəliyi yaranmışdır. Lakin müqavilədə nəzərdə tutulan müddətdə işin yerinə yetirilməsinədək M.İ. Kələntərov qəflətən dünyasını dəyişir. Onun ölüm faktı işin yerinə yetirilməsi üzrə öhdəliyin tanınmasını dayandırır. Uçotda hər hansı bir köçürmənin aparılması lazım gəlmir.

Praktikada elə hallara təsadüf olunur ki, hüquqi şəxsin (borclu yaxud kreditor) ləğvi ilə əlaqədar öhdəliyin tanınması dayandırılır. Ləğv olunan hüquqi şəxsin öhdəlyinin qanunla, yaxud digər hüquqi akt vasitəsilə digər hüquqi şıxsə həvalə edilməsi halları istisna olunur (hüquqi şəxsin öhdəliklər üzrə məsuliyyəti nisbətən məhduddur. Mülkiyyət hüququ əsasında ona məxsus olan əmlakdan başqa). Hüquqi şəxs dedikdə mülkiyyətində ayrıca əmlak olan təşkilatlar nəzərdə tutulur. Hüquqi şəxs, müəssisənin mülkiyyətçisi tərəfindən maliyyələşdirilənlərdən başqa, ona məxsus olan bütün əmlaka görə olan öhdəliklərə cavabdehlik daşıyır. Standartda xüsusi olaraq qeyd edilir ki, hüquqi şəxsin təsisçisi (iştirakçısı), yaxud onun əmlakının mülkiyyətçisi hüquqi şəxsin öhdəliklərinə cavabdehlik daşımır, hüquqi şəxsin isə təsisçinin (iştirakçının), yaxud mülkiyyətçinin öhdəliklərinə məsuliyyət hüququ yoxdur [6].

Hüquqi şəxs cəlb edildikdə onun kreditorlarının tələbi Mülki Məcəlləyə uyğun olaraq növbəlilik əsasında həll edilir.

Müvafiq surətdə əgər bizim ləğv edilən hüquqi şəxsə qarşı bizim tələblərimiz növbəyə götürülmüşdürsə və həmin tələbləri ödəmək üçün ləğv edilən müəssisənin hər hansı bir əmlakı yoxdursa, onda biz borcun bir hissəsini ya ala bilərik, yaxud heç bir şey almaya bilərik. Bu zaman mövcud olan öhdəliyin tanınması dayandırılır.

Ləğv olunan hüquqi şəxsdən alına bilinməyən borc məbləği debitorun borcu kimi uçotda əks etdirilməlidir. Əksinə, hüquqi şəxsin - kreditorun ləğv olunması faktına

görə borclu müəssisənin öhdəliyinin tanınması dayandırılır. Kreditorun ləğv edilməsinədək ödənilməmiş məbləğ haqqında fakt öhdəlik qismində alınmış mənfəət şəklində borclu müəssisənin mühasibat uçotunda öz əksini tapır.

## Nəticə

Aparılan araşdırmalar yekun olaraq onu deməyə əsas verir ki, təsərrüfat subyektlərinin öhdəliklərinin mövcudluğu və dinamikası, başqa sözlə, öhdəliklərin meydana gəlməsi, dəyişilməsi və tanınmasının dayandırılması faktları müəssisənin maliyyə vəziyyətinin mənzərəsini formalaşdırır və son nəticə maliyyə hesabatı informasiyalarının təhlili istiqamətlərini müəyyənləşdirir.

**Ədəbiyyat**

1. Соколов Я. В. – История бухгалтерского учета: учебник/ Я. В. Соколов, В. Я. Соколов - Москва, Магистр, 2009-287 с.;
2. Малькова Т. Н. - История бухгалтерского учета учебное пособие / Т. Н. Малькова - Москва, Высшее образование, 2008-449 с.;
3. Соколов Я. В. – Бухгалтерский учет: от истоков до наших дней/ учебное пособие для вузов, Москва- аудит, ЮНИТИ, 1996 – 638 с.;
4. Мизиковский Е. А. – Оценка нефинансовых активов и достоверность финансовой отчетности, Аудиторские ведомости. Москва – 2011, №3 -65-68 с.;
5. Международные стандарты финансовой отчетности. Москва, Аскери – АССА, 2010, 984 с.
6. Səbzəliyev S.M. – Maliyyə hesabatı. Bakı- 2018. Az.DİU-nun nəşriyyatı, 311 s.

# KORONAVİRUS (COVİD-19) PANDEMİYASININ AZƏRBAYCANDA SAHİBKARLIĞA TƏSİRİ

*Daxil olub: 28 avqust 2020-ci il;*
*Qəbul olunub: 05 noyabr 2020-ci il*
*Received: 28 August 2020;*
*Accepted: 05 November 2020*

***N.N.Məmmədova*[1], *T.N.Nəriman*[2]**
[1]*müəllim, UNEC Biznes Məktəbi, UNEC*
[2]*magistrant, MBA, UNEC*
[1] *mnnigar@gmail.com;*
[2]*tabriznariman@gmail.com*

**Xülasə**

Tədqiqatın məqsədi müasir bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasında Covid-19 pandemiyasının sahibkarlığa təsirini təhlil etmək, bu sahədə yaranmış problemləri müəyyən etmək və problemdən çıxış yollarını araşdırmaqdır.

Tədqiqat obyektinin əsasında pandemiyadan əsasən zərər çəkmiş iqtisadi fəaliyyət sahələrini müəyyən etmək və dəymiş zərərin azaldılması istiqamətində dövlətin həyata keçirmiş olduğu tədbirlərin təhlili dayanır.

Tədqiqatın həyata keçirilməsində müxtəlif metodlardan, o cümlədən də müqayisəli təlil, analiz, sintez, eləcə də induksiya və deduksiya metodlarından istifadə olunmuşdur. Aparılmış tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, Pandemiya olmasından zərər çəkməsi ehtimal edilən əsas iqtisadi fəaliyyət sahələri üzrə işləyən muzdlu işçilərin sosial müdafiəsi, həmçinin onlara dövlət dəstəyi göstərilmiş, yaxın və orta müddət ərzində məşğulluq tədbirləri gücləndirilmişdir. Eyni zamanda, Mərkəzi Bank sədrinin rəhbərliyi altında yaradılmış işçi qrupu tərəfindən pandemiya mühitində Azərbaycan Respublikasında makroiqtisadi dəyişməzliyin qorunub saxlanması məqsədilə ayrıca tədbirlər görülməsi üzrə təkliflər irəli sürülmüş, pandemiyanın respublikanın bank sektoru ilə makroiqtisadi mühitinə ehtimal edilən mənfi təsirlərinin dəyərləndirilməsi həyata keçirilmişdi.

Tədqiqatın elmi və praktiki əhəmiyyəti əsasında COVİD-19 pandemiyasının sahibkarlıq fəaliyyətində yaratmış problemlərin həll olunması dayanır.

Tədqiqatın elmi yeniliyini aşağıdakılar təşkil edir:

- COVİD-19 pandemiyasının sahibkarlıq fəaliyyətinə təsiri istiqamətləri müəyyən olunmuşdur;
- Koronavirus pandemiyasının iqtisadi fəaliyyət sahələrində yaratmış olduğu problemlərin aradan qaldırılması istiqamətində dövlət siyasətinin əsas istiqamətləri müəyyən olunmuşdur.

***Açar sözlər:*** *COVİD-19, sahibkarlıq fəaliyyəti, dövlət dəstəyi.*

UNEC Elmi Xəbərləri, İl 8, Cild 8, iyul-sentyabr, 2020, səh. 113 - 127
Scientific Reviews in UNEC, Year 8, Volume 8, July-September, 2020, pp. 113 - 127

# THE IMPACT OF THE CORONAVIRUS (COVID-19) PANDEMIC ON ENTREPRENEURSHIP IN AZERBAIJAN

***N. N. Mammadova[1], T.N.Nariman[2]***
*[1]teacher, UNEC Business School, UNEC*
*[2]magistrant, MBA, UNEC*
*[1]mnnigar@gmail.com; [2]tabriznariman@gmail.com*

**Abstract**
The purpose of the research is to analyze the impact of the Covid-19 pandemic on entrepreneurship in the modern market economy of the Republic of Azerbaijan, to identify problems in this area and to explore ways out of the problem.
The object of the research is to identify areas of economic activity affected by the pandemic and to analyze the measures taken by the state to reduce the damage.
Various methods were used in the research, including comparative analysis, analysis, synthesis, as well as induction and duduction methods.
As a result of the research paper, it was found that social protection and state support were provided to employees working in the areas of economic activity that are likely to be affected by the pandemic, and employment measures were strengthened in the short and medium term. Also, the Working Group established under the chairmanship of the Central Bank prepared proposals on additional measures to maintain macroeconomic stability in Azerbaijan in the event of a pandemic, assessed the possible negative effects of the pandemic on the country's banking sector and macroeconomic environment.
The scientific and practical significance of the research is based on the solution of the problems created by the COVID-19 pandemic in business.
The scientific novelty of the research is as follows:
- The impact of the COVID-19 pandemic on entrepreneurial activity has been identified;
- The main directions of the state policy in the direction of overcoming the problems created by the coronavirus pandemic in the spheres of economic activity have been identified.

***Keywords:*** *COVID-19, entrepreneurship, state support.*

# ВЛИЯНИЕ ПАНДЕМИИ КОРОНАВИРУСА (COVID-19) НА ПРЕДПРИНИМАТЕЛЬСТВО В АЗЕРБАЙДЖАНЕ

***Н. Н. Мамедова[1], Т. Н. Нариман[2]***
*[1]преподаватель, Школа бизнеса, UNEC*
*[2]магистрант, MBA, UNEC*
*[1]mnnigar@gmail.com; [2]tabriznariman@gmail.com*

**Резюме**

Цель исследования - проанализировать влияние пандемии Covid-19 на предпринимательство в современной рыночной экономике Азербайджанской Республики, выявить проблемы в этой сфере и изучить пути решения проблемы.

В основе объекта исследования лежит выявление области экономической деятельности, затронутые пандемией, и анализ мер, принимаемых государством для уменьшения ущерба.

В исследовании использовались различные методы, включая сравнительный анализ, анализ, синтез, а также методы дедукции и индукции. Исследование показало, что социальная защита и государственная поддержка предоставлялись сотрудникам, работающим в сферах экономической деятельности, которые могут быть затронуты пандемией, а меры по обеспечению занятости были усилены в краткосрочной и среднесрочной перспективе. Также созданная под председательством Центрального банка рабочая группа подготовила предложения по дополнительным мерам по поддержанию макроэкономической стабильности в Азербайджане в случае пандемии, оценила возможные негативные последствия пандемии для банковского сектора страны и макроэкономической среды.

Научная и практическая значимость исследования основана на решении проблем, созданных пандемией COVID-19 в бизнесе.

Научная новизна исследования заключается в следующем:

- Определены направления воздействия пандемии COVID-19 на предпринимательскую деятельность;
- Определены основные направления государственной политики в направлении преодоления проблем, созданных пандемией коронавируса в сферах экономической деятельности.

***Ключевые слова:*** *COVID-19, предпринимательство, государственная поддержка.*

## Giriş

Bəlkə də, tarixdə ilk dəfədir ki, qeyri-iqtisadi bir hadisə bu qədər dərin böhran yaradır. Hazırda dünya iqtisadiyyatı dərin tənəzzül keçirir və bunun nə vaxta qədər davam edəcəyi ilə də bağlı fikir söyləmək çətindir. Bu böhran təkcə iqtisadiyyatı tənəzzülə uğratmamış, eyni zamanda psixoloji gərginliyin artmasına, rifahın azalmasına təsir göstərməkdədir. Hazırda virus dünyanın 200-dən çox ölkəsinə yayılmaqla bu ölkələrin iqtisadiyyatına, insanların sağlamlığına təhdid yaratmaqdadır.

COVID-19 virusunun qəfildən yayılması nəinki həyatı təhlükələr yaradır, eyni zamanda qlobal iqtisadi fəaliyyət üzrə misli görünməmiş təsir edir. Məsələnin ciddi olması bütün dünya üzrə sərhədlərin bağlanması, səyahətlərin qadağan edilməsi kimi hərəkət

məhdudlaşdırıcı tədbirlər tədbiq olunmasına və beləliklə də istehsal prosesinin ciddi şəkildə pozulması və iqtisadi itkiyə səbəbiyyət verdi. Azərbaycan da bu cür qabaqlayıcı tədbirlərın zəruriliyini başa düşərək yeni koronavirusun daha çox yayılmasının qarşısını almaq məqsədilə ölkə içərisində xüsusi karantin rejiminin tətbiq edilməsi həyata keçirildi. AHK üzvlərinin xeylisi pandemiya və müvafiq qabaqlayıcı, həmçinin nəzarət tədbirlərinin öz biznesləri üzrə kritik və ya orta təsirlərini hiss etmələrini qeyd edirlər. Təəccüblü deyildir ki, bu təsir özünü inşaat, pərakəndə satış, turizm, o cümlədən qonaqpərvərlik kimi bəzi bir sıra sahələrdə ayrıca kəskin göstərir.

Pandemiya dövrünün əsas çətinliyi bir-biri ilə ziddiyət təşkil edən, iqtisadi qanunauyğunluğa tabe olmayan 3 mühüm problemin paralel şəkildə həll edilməsi idi. Bir tərəfdən virusun yayılmaması, xüsusilə də qarşısının alınması üçün tətbiq edilən karantin rejimi insanların hərəkətinin və biznes sektorunun fəaliyyətinin məhdudlaşdırılmasını zəruri şərtə çevirmişdir. Digər tərəfdən də iqtisadi zərərin minimallaşdırılması, biznes subyektlərinin müflisləşməsinin qarşısının alınması, karantin səbəbindən işini itirən insanların sosial müdafiəsinin təmin edilməsi tələb olunur.

Nəticələrdən belə çıxır ki, şirkətlər əmtəə və xidmətlərə olan tələbatın ciddi şəkildə aşağı düşməsindən xeyli zərər çəkirlər. Bu virusun yayılmasının birbaşa nəticəsi kimi, AHK-nin hər üç üzvündən biri 2020-ci il üzrə biznes fəaliyyətinin hədəfini azaltmağı planlaşdırır. Bu nöqteyi-nəzərdən şirkətlər dövlətin dəstəyinə güvənmək niyyətindədir və sürətli iqtisadi bərpa üzrə şərait yaratmaq məqsədilə çevik siyasi müdaxilələrin zəruri olduğuna inanırlar. Azərbaycan dövlətinin biznesə dəstək verməsi üzrə tətbiq etməsi ən önəmli olan tədbirlər isə vergi tətilləri yaxud da ödənişlərin təxirə salınmasının təmin olunmasıdır.

**Təhlillər**

Koronavirus pandemiyası şəraitində hazırda qlobal iqtisadiyyat 1929-cu ildəki "Böyük depressiya"dan sonra ən böyük geriləməni yaşayır. Dünya iqtisadiyyatının əsas tərkib hissəsi olan karbohidrogen resurslarının qiymətindəki volatillik, hətta apreldə neftin qiymətinin mənfiyə enməsi, eləcə də aviasiya əlaqələrinin dayanmasının təsiri ilə turizm sektorunun çökməsi iqtisadiyyatı sadalanan amillərdən asılı olan ölkələrə mənfi təsir edir.

Dünya İqtisadi Forumu (WEF) yeni növ koronavirusla bağlı mövcud vəziyyəti qlobal tənəzzül adlandırıb və bunu ən böyük narahatlıq doğuran məqam kimi izah edir. Qarşıdakı müddətdə dünyada ən böyük narahatlıq doğuran məqam sözsüz ki, COVID-19 pandemiyası səbəbindən uzunmüddətli qlobal tənəzzüldür [1].

Hal-hazırda artıq dünya üzrə koronavirusa 13 milyondan çox insan yoluxub. Bu günə kimi - pandemiya şəraitində virusdan 6,7 milyondan çox insan sağalmış, 580 minə qədər şəxs isə həyatını itirmişdir [2].

COVİD-19 dünya iqtisadiyyatına da xeyli böyük ziyan yetirib. Dövlətlərin iqtisadiyyatı böyük tənəzzül ilə üz-üzə qalmışdır. Bir çox dövlətin iqtisadi inkişafı geriləmiş, işsizliyin sayı çoxalmışdır. Hazırda koronavirus pandemiyası insan sağlamlığına təhlükə yaratmaqla birgə, tarix üzrə ən böyük iqtisadi böhranı yaşatmaqdadır. Sözügedən böhran turizm, geyim, maşınqayırma sənayesi, xidmət sahələri, enerji sektoru və başqa əksər sahəyə təsir göstərib. Beləliklə aviasiya şirkətlərindən belə geyim istehsalçıları, həmçinin enerji şirkətlərinə kimi, əksər sektorlar çətinliklə üzləşib. Daha bir çox şirkət müflisləşdiyini, bir çoxu da gəlirlərinin azalma səbəbindən çalışanlarını ixtisar edəcəyini açıqlamışdır.

Ölkəmiz də sözügedən "taclı virus"la böyük mübarizə aparır. Təbiidir ki, pandemiya bizim iqtisadiyyatımız və gündəlik həyatımıza belə təsirsiz ötüşməyib. Odur ki, bu gün Azərbaycanda COVİD-19 pandemiyasından ən çox zərər çəkmiş iqtisadi fəaliyyət sahələri içərisində ictimai iyaşə sektoru, təhsil sektoru, xidmət sektoru, turizm fəaliyyətini həyata keçirən müəssisələr xüsusilə seçilir.

Aşağıda qeyd olunan cədvəldə son 3 ilin mart-iyul aylarında Azərbaycanda xidmət sektorunda vətəndaşlara göstərilmiş ödənişli xidmətlərin həcmi öz əksini tapmışdır (Cədvəl 1).

**Cədvəl 1. 2018-2020-ci illərin eyni dövrləri ərzində Azərbaycanda vətəndaşlara göstərilən ödənişli xidmətlərin həcmi**

| Göstərici | 2018 (mart-iyul) | 2019 (mart-iyul) | 2020 (mart-iyul) |
|---|---|---|---|
| Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri (min manat) | 9,131,758.6 | 9,607,258.7 | 3,405,298.40 |
| Hüquqi şəxslər tərəfindən əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri (min manat) | 6,615,302.6 | 6,953,898.1 | 2,163,676.70 |
| Fiziki şəxslər tərəfindən əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri (min manat) | 2,516,456.0 | 2,653,360.6 | 1,241,621.70 |
| Əhaliyə göstərilən ödənişli xidmətlərin həcmində dövlət mülkiyyətinin həcmi (min manat) | 1,863,832.2 | 1,935,318.2 | 1,816,987.30 |
| Əhaliyə göstərilən ödənişli xidmətlərin həcmində qeyri-dövlət mülkiyyətinin həcmi (min manat) | 7,267,926.4 | 7,671,940.5 | 1,588,311,10 |

*Mənbə: www.stat.gov.az.*

Cədvəl 1-dən də aydın olduğu kimi, 2020-ci ilin mart-iyul ayları ərzində Azərbaycanda əhaliyə göstərilən ödənişli xidmətlərin həcmində kəskin azalma müşahidə olunmuşdur ki, bunun da əsas səbəbi COVİD-19 pandemiyasının karantin rejiminin tətbiqinə yol açmasıdır. Belə ki, 2019-cu ilin mövcud dövrü ərzində əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 9.6 milyard manat həcmində olmuşdursa, 2020-ci ildə bu göstərici kifayət qədər azalaraq 3.4 milyard manat həcmində olmuşdur. 2019-cu ilin mövcud dövrü ərzində əhaliyə göstərilən ödənişli xidmətlərdə hüquqi şəxslərin çəkisi təxminən

7 milyard manat olmuşdursa, 2020-ci ildə bu göstərici 2.2 milyard manat həcminə enmişdir. 2019 və 2020-ci illərdə əhaliyə göstərilən ödənişli xidmətlərin həcmində dövlət mülkiyyətinin payı arasında böyük fərq olmasa da, həmin müddətlərdə əhaliyə göstərilən ödənişli xidmətlərin həcmində qeyri-dövlət mülkiyyətinin payı arasında çox böyük fərqin olduğunu müəyyən etmək olur. Bu isə onu da göstərir ki, pandemiya dövründə Azərbaycan qeyri-dövlət mülkiyyətində olan və əhaliyə ödənişli xidmət göstərən müəssisələr böyük itkiyə uğramışdır [6].

COVİD-19 pandemiyasının Azərbaycanda sahibkarlıq fəaliyyətinə vurmuş olduğu ziyan bununla bitmir. Eyni zamanda da digər iqtisadi fəaliyyət növlərinə də pandemiyanın çox böyük təsiri olmuşdur. Bu baxımdan, turizm müəssisələrinin fəaliyyəti birmənalı olaraq dayanmışdır. Uçuşların dayandırılması, rayonlara gediş-gəlişin məhdudlaşdırılması həm beynəlxalq turizm fəaliyyətini həyata keçirən müəssisələrin, həm də daxili turizm fəaliyyəti göstərən iqtisadi təsərrüfat obyektlərinin fəaliyyətinə öz təsirini göstərmiş, bir neçə turizm şirkəti pandemiyanın zərərləri qarşısında aciz qalaraq öz fəaliyyətini sona çatdırmışdır.

COVİD-19 pandemiyasının Azərbaycanda törətmiş olduğu fəsadlardan biri də özəl təlim, təhsil müəssisələrinin fəaliyyəti ilə əlaqədar olmuşdur. Belə ki, sosial məsafənin qorunmasının təmin olunması mümkün olmayan əsas sahələrdən biri kimi özəl təlim-tədris müəssisələri öz fəaliyyətini "onlayn" rejim əsasında həyata keçirmişdir ki, bu da son nəticədə əlavə xərclərin yaranmasına və gəlirlərin aşağı düşməsinə əsas səbəb olmuşdur.

Koronavirus pandemiyasının ən böyük təhlükə yaratdığı iqtisadi fəaliyyət sferası isə ictimai iyaşə müəssisələrinin fəaliyyəti ilə əlaqədardır. Belə ki, pandemiya bu sektor üzrə yalnız sahibkara deyil, eyni zamanda da muzdlu işçi qüvvəsinin fəaliyyətinə və gəlirlərinin azalmasına səbəb olmuşdur. Restoran, kafe və digər bu kimi ictimai iyaşə obyektlərinin fəaliyyətini dondurması sahibkarların qazancını sıfra endirməklə yanaşı, işsizlik kimi sosial problemlərin yaranmasına da yol açmışdır.

Mövcud pandemiyanın təsir etdiyi əsas iqtisadi fəaliyyət sahələrindən biri də bank sektoru hesab olunur. Məlum olduğu kimi, iqtisadiyyatda "domino effekti"nin mövcud olması bir sahədə yaranmış problemin digər sahələrə də təsir etməsinə səbəb olur. Bu səbəbdən də karantin rejiminin əsasən tətbiq edilməsi müxtəlif iqtisadi təsərrüfat subyektlərində işsizlik kimi sosial problemlərin yaranması ilə əlaqədar olaraq banklardan götürülmüş kreditlərin geri qaytarılmasını təhlükə altına qoymuşdur. Belə olan halda isə maliyyə dayanıqlığı kifayət qədər olmayan bankların proqnozlaşdırılmamış xərclər qarşısında çətinlik çəkdiyi aydın hiss olunmaqdadır.

Pandemiya dövründə bir çox bizneslər öz həcmini kiçildir və ya ümumiyyətlə bağlanır. Pandemiya bir növ bizneslərin dözümlülük yarışmasıdır. Depressiv əhvala qapılanlar və maliyyə itkisi ilə üzləşənlər isə bu sektorun uduzanları, son nəticədə isə müflis olanlarıdır.

Buna dünyanın nəhəng brendləri də aiddir. Dünyanın dəyərinə görə seçilən şirkətlərindən olan "Apple" ABŞ-dakı mağazalarını bağlamaqda davam edir. Pandemiya dövründə "Apple"nin bağlanan mağazalarının sayı 77-yə çatıb. "Victoria Secret", "Inditex Group" ("Zara", "Massimo Dutti") kimi şirkətlər satışların azalmasından əziyyət çəkir və nəticədə öz mağazalarını bağlayır.

Bu dövrdə dözümlülük və ağıllı manevr edən şirkətlər isə udur. Buna misal olaraq "Zoom" videokonfrans platformasını göstərmək olar. Belə ki, şirkətin bazarda dəyəri ilk dəfə 50 mlrd dolları ötüb. İnvestorların koronavirus pandemiyası dövrü bu proqramdan istifadə edilməsinin artmasının uzunmüddətli gəlir artımına səbəb olmasını gözlədiyinə görə şirkət səhmlərinin alınması sayəsində "Zoom"un səhmləri il ərzində 160 faizdən artıq dəyər qazanıb. Şirkət səhmlərinin dəyəri hal-hazırda "Zoom"un təqribi mənfəətindən 55 dəfə çoxdur. "Bloomberg" milyarderlər indeksinə əsasən, "Zoom" şirkətinin təsisçi və icraçı direktoru Erik Yuanın sərvəti 800 mln dollar yüksələrək 9,3 milyard dollara çatmışdır [3].

Pandemiya nəticəsində yaranmış vəziyyət digər ölkələrin olduğu kimi, Azərbaycanın da əsas iqtisadiyyatına təsirsiz ötüşməyib. İlin ilk 4 ayı ərzində ölkədə iqtisadi artım müşahidə olunmuşdur. Lakin əsasən may-iyun aylarından sonra iqtisadiyyat bir qədər tənəzzülə uğramışdır. Yarım ildə ümumi daxili məhsul istehsalı 2,7 faiz azalıb. İlin ilk 5 ayında inflyasiya səviyyəsi 2,9 faiz olub [3].

İstehlak tələbinin azalması, bunun sayəsində neft və neft məmulatlarının qiymətlərinin enməsinin cari il üzrə ölkə iqtisadiyyatında mənfi fəsadlar yaratmasına baxmayaraq, büdcə gəlirlərində proqnozlar artıqlamasıyla icra edilib. Dövlət büdcə gəlirləri proqnoza əsasən 2,9 faiz yaxud 338 mln manat artıq icra edilməklə 12 mlrd 23 mln manat təşkil etmişdir. Büdcədə 292 mln manat yaxud da proqnozdan 233 mln manat artıq profisit yaranıb. Həmçinin dövlət investisiya proqramı çərçivəsində investisiya layihələrinin gerçəkləşdirilməsi üçün ayrılan vəsaitin 44,3%-nin və ya 1 mlrd 835 mln manatının maliyyələşdirilməsi təmin olunub [3].

Cari ilin 6 ayı dövründə neftin orta aylıq qiymətinin əsas olaraq 38 dollar təşkil etməsi ilə, "OPEC+" sazişi çərçivəsində olan satış üzrə neft xərclərinin kəskin azalması və həmçinin koronavirus pandemiyası ilə mübarizə çərçivəsində tətbiq edilməsi qaçılmaz olan karantin və bununla yanaşı digər məhdudlaşdırıcı tədbirlərin iqtisadiyyata mənfi təsirləri həmçinin ilin sonuna yaxın neft gəlirlərinin, həm də ki, qeyri-neft sektoruna daxilolmaların da azalmasını şərtləndirə bilir.

İndiki mərhələdə pandemiyanın Azərbaycan iqtisadiyyatına vurduğu zərəri konkret rəqəmlərlə (operativ statistik məlumatın olmaması və pandemiyanın davam etməsi səbəbindən) ifadə etmək çətindir. Karantin rejiminin tətbiq edilə bilməsi ilə iyaşə, nəqliyyat, turizm və digər qarşılıqlı fəaliyyət sahələri ciddi mənfi təsirə məruz qalmışdır. Ən çox təsirə məruz qalan sahələrdən biri mikro və kiçik biznesdir.

Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq və insanların hərəkət intensivliyini minimallaşdırmaq məqsədilə biznes sektoruna tətbiq edilən məhdudiyyətlər makroiqtisadi göstəricilərə mənfi təsir göstərdi. Sərt karantin rejiminin tətbiq olunduğu aprel ayında məhsul və xidmətlər istehsalı kəskin şəkildə azaldı. 2020-ci ilin məhsul və xidmət istehsalının aylar üzrə dəyişməsinə nəzər salsaq, aprel ayında kəskin azalma müşahidə etmiş olarıq. Belə ki, cari ilin əvvəlki ayları ilə müqayisədə, mart-aprel ayları üzrə ÜDM istehsalında geriləmə olmuşdur.
Maliyyə Nazirliyinin məlumatlarına əsasən, 2020-ci il yanvar-aprel ayları üzrə dövlət büdcəsinə 9574,2 milyon manat vəsait daxil olmuş, büdcədən 7267,7 milyon manat vəsait xərclənmiş, büdcənin də əsas icrasında 2306,5 milyon manatlıq profisit yaranmışdır. 2020-ci il yanvar-aprel ayları üzrə dövlət büdcəsinin gəlirləri öncəki ilin eyni dövrünə nəzərən 27,6%, xərcləri isə demək olar 0,7% artmışdır. Büdcənin icrasında yaranmış profisit ÜDM-in 10,3%-nə bərabər olmuşdur [4].
Mart ayında 1,5 milyard manat vəsait neft fondundan transfer olunmuşdur. Ümumilikdə bu ilin yanvar ayı ilə müqayisədə, aprel ayında büdcə gəlirləri 3,1% azalmış, xərcləri isə 43,4% artmışdır. Neft fondundan transferti nəzərə almasaq, gəlirlərin daha çox azalmış olduğunu görə bilərik [4].
Cari ilin yanvar-aprel aylarında büdcə vəsaitlərinin 18,1%-i təhsil və səhiyyənin, 17,8%-i sosial müdafiə və sosial təminatın, 17,8%-i ümumi dövlət xidmətlərinin, 16,5%-i iqtisadi fəaliyyətin, 11,3%-i müdafiə və milli təhlükəsizliyin, 18,5%-i isə digər sahələrin maliyyələşdirilməsinə xərclənmişdir [4].
Beynəlxalq Valyuta Fondu hesablamalarına görə, pandemiya sayəsində ümumi iqtisadiyyat 2020-ci il üzrə 3 faiz, Orta Şərqin, həmçinin Mərkəzi Asiyanın neft ixrac etməkdə olan dövlətlərinin iqtisadiyyatı da 3,9 faiz azalması halında, Azərbaycanın iqtisadiyyatı cəmi 2,2 faiz kiçiləcəkdir. Orta Şərqin, o cümlədən Mərkəzi Asiyanın neft-qaz ixrac etməkdə olan 11 ölkəsi içərisində Azərbaycan iqtisadiyyatı pandemiya nəticəsində ən az zərər çəkən ölkələrin ilk üçlüyündədir [5].
Dünya Bankı Azərbaycanla bağlı açıqlamasında göstərir ki: “Ölkənin valyuta ehtiyatları (təqribən ÜDM qədər) və xarici borcunun az olması iqtisadi fəallığı bərpa etmək üçün imkanlar açır. Lakin məzənnəyə təzyiq artarsa və ya makroiqtisadi siyasət dəyişərsə iqtisadi böhran daha da dərinləşə bilər. Bundan əlavə, maliyyə sektorundakı mövcud risklərin aradan qaldırılması üçün elmi əsaslandırılmış tədbirlər həyata keçirilməlidir.
Hazırda dövlətlər (hökumətlər) insanların sağlamlığını qorumaqla yanaşı, böhrandan daha az zərərlə çıxmaq, iqtisadi fəallığı daha qısa müddətdə bərpa etmək üçün müxtəlif tədbirlər həyata keçirir, fundamental iqtisadi araşdırmalara əsaslanan proqram və konsepsiyalar hazırlayırlar. Azərbaycan dövləti də pandemiya dövrünü az zərərlə başa vurmaq (pandemiyanın bitməsi ilə bağlı qeyri-müəyyənlik davam edir) və post-pandemiya dövründə iqtisadi fəallığı daha qısa müddətdə bərpa etmək üçün yollar axtarır.

Azərbaycan Respublikası Prezidentinin 4 iyun 2020-ci il tarixli Fərmanına görə, sahibkarlara dövlətin zəmanəti ilə kredit alınması, həmçinin kreditlər üzrə faizlərdən bir qisminin subsidiyalaşdırılması, fors-major hallar üzrə restrukturizasiya edilməsi, kredit öhdəliyinin icra edilməsi möhlətinin uzadılması kimi səmərəli şərtlər yaradılıb.

Heç kimə sirr deyil ki, pandemiya yaranmasının ilk günlərindən respublikamız iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə qabaqlayıcı addımlar atmışdır. İlk addımı da ölkə rəhbəri özü edib. Odur ki, martın ortaları Prezidentimiz İ.Əliyev əhalinin sağlamlığının mühafizə olunması və koronavirus virusuna qarşı mübarizənin gücləndirilməsi üzrə tədbirlər barədə Fərman imzaladı. Həmin Fərmana əsasən də ölkəmizdə Koronavirusla Mübarizəyə Dəstək Fondunun əsası qoyuldu. Ölkə rəhbəri də ilk olaraq həmin Fonda 2020-ci ilin dövlət büdcəsində nəzərdə tutulan Prezidentin Ehtiyat Fondundan ilkin olaraq 20 mln manat ayırdı.

Eyni zamanda, İlham Əliyevin koronavirusun və bu səbəblə dünya enerji və səhm bazarları üzrə baş vermiş kəskin dərəcədə dalğalanmaların əsasən Azərbaycanın iqtisadiyyatına, makroiqtisadi sabitliyinə, respublikada məşğulluq məsələləri və sahibkarlıq subyektləri üzrə mənfi təsirinin azaldılması ilə əlaqəli bəzi sərəncamları oldu. Dövlət iqtisadiyyat sahəsində yarana biləcək neqativ tendensiyaları layiqincə qarşılamaq məqsədilə zəruri iqtisadi, həmçinin maliyyə imkanlarına sahib olduğunu sübuta yetirdi. Elə həmin imkanlara arxalanmaqla dövlət hər zaman ən çətin zamanlarda xalqın rifahının qorunması və özəl sektorun inkişafı üçün öz dəstəyini əsirgəmədi. Buna sübut kimi, 2020-ci ildə dünyada sürətlə yayılmaqda olan COVID-19 və bunun nəticəsində dünya enerji və səhm bazarları üzrə baş vermiş kəskin dalğalanmaların Azərbaycanın iqtisadiyyatı, makroiqtisadi sabitlik, ölkədə məşğulluq məsələləri və sahibkarlıq subyektlərinə neqativ təsirinin azaldılması ilə əlaqəli tədbirlərin maliyyələşdirilməsi məqsədilə 2020-ci il dövlət büdcəsindən Nazirlər Kabinetinə 1 mlrd. manat ayrılmışdır.

Bu sərəncama görə, pandemiyanın iqtisadiyyatımıza təsirini dəyərləndirmək məqsədilə İqtisadiyyat, Maliyyə, həmçinin Əmək və Əhalinin Sosial Müdafiə nazirlərinin, o cümlədən Mərkəzi Bankın sədr rəhbərlikləri ilə ayrı-ayrı İşçi qrupları yaradılmışdır.

Məmləkətimizin bu ağır günündə pandemiya nəticəsində zərər çəkmiş sahibkarlara belə dövlət maliyyə dəstəyini əsirgəmədi. Odur ki, Prezident sərəncamının icrası ilə əlaqəli Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş Tədbirlər Planına görə, bu günə kimi İqtisadiyyat Nazirliyinə muzdlu işçilərdən hamısının əməkhaqqının müəyyən hissəsinin verilməsi üçün COVİD-19 nəticəsində zərər çəkən 28 709 vergi ödəyicisi, maliyyə dəstəyini almaq üçün də 117 031 fərdi (kiçik) sahibkar, ümumilikdə 145 750 vergi ödəyicisi müraciət etmişdir [3].

Muzdlu işçilərin əməkhaqqılarının müəyyən hissəsinin ödənməsi çərçivəsində 210 152 işçini əhatə edən əsasən 24 492 sahibkarın müraciətləri araşdırılmaqla təsdiqlənib

və veriləcək maliyyə vəsaitlərin bank hesablarına köçürülməsi məqsədilə Maliyyə Nazirliyinə təqdim olundu. Ancaq bununla belə, hazırda başqa vergi ödəyiciləri üzrə araşdırmaların aparılması davam edir.

İndiyə qədər təsdiq olunmuş müraciətlər əsasında maliyyə dəstəyinin məbləği 96,28 milyon manat, eyni zamanda 2-ci mərhələ əsasında ödənilməsi nəzərdə tutulmuş vəsaitin məbləği 48,14 milyon manat təşkil etmişdir. Maliyyə Nazirliyi Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən 24 017 vergi ödəyicisi, 205 137 şəxs muzdlu işçinin əməkhaqqısı üzrə 92,54 milyon manat, eyni zamanda, 2-ci ay üçün (50%) 44,68 milyon manat vəsait köçürülməsi təmin olunub.

Fərdi (mikro) sahibkarlar üçün maliyyə dəstəyinin edilməsi proqramı əsasında 117 031 vergi ödəyicisindən müraciətlər daxil olmuş, 109 283 müraciət araşdırılmaqla təsdiqlənmiş, maliyyə dəstəyinin bank hesabları üzrə köçürülməsi məqsədilə Maliyyə Nazirliyinə təqdim olunub. Təsdiq olunmuş müraciətlər əsasında maliyyə dəstəyinin məbləği 62,91 milyon manat təşkil etməkdədir. Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən hazırda 62,68 milyon manat pulun 105 052 fərdi (mikro) sahibkarların bank hesablarına köçürülməsi təmin olunub [7].

Dövlətin sosial sahə üzrə etdiklərini də unutmaq mümkün deyil. Əlbəttə ki, dövlət tərəfindən aztəminatlı ailələrə məxsus problemlər də unudulmadı. Dövlət başçısı ilk olaraq 200 min belə ailələrə 190 manat məbləğində birdəfəlik ödəmələr edilməsi ilə əlaqəli sərəncam imzaladı. Bu cür müraciət edənlər də sayca kifayət qədər artdığı üçün bu rəqəm yüksəldildi, 600 min nəfərə çatdırıldı. Bu isə dövlət iqtisadiyyatının inkişaf etdirilməsi üçün bir dəstək oldu.

Pandemiya dövründə dövlətin ən iri şirkəti, həmçinin ən çox vergi ödəyicisi Azərbaycanın Dövlət Neft Şirkətinin (SOCAR) ölkə iqtisadiyyatına vermiş olduğu dəstəyi də ayrıca vurğulamaq gərəkdir. Nəzərə alsaq ki, sözügedən dövrdə insanlar tibbi spirt və maskadan daha artıq istifadə edirlər, SOCAR şirkətinin bu sahədəki dəstəyi əvəzsizdir. Odur ki, qlobal pandemiyayla əlaqədar bazarlardakı spirtə tələbat xeyli artdığından, bu dövr ərzində SOCAR şirkətinin “Azərkimya” İstehsalat Birliyinə məxsus “Etilen-Polietilen” zavodu daxilində dezinfeksiya vasitələrinin əsas xammalı sayılan izopropil spirtinin istehsal edilməsi bərpa edildi. İstehsalatın fəaliyyətə başlaması EP-300 qurğusu üzrə davam edən rekonstruksiya işlərinin tamamilə bitməsindən sonraya planlaşdırılmaqda idi. Müəssisə üzrə MİPS məhsulunun sutkadakı istehsal həcmi təxminən 60 tona qədərdir [8].

Bundan əlavə, may ayı “SOCAR Polymer” dünya üzrə davam etməkdə olan koronavirus pandemiyası ilə mübarizədə başlıca fərdi mühafizə olunma vasitəsi hesab edilən qoruyucu maskanın istehsalı üzrə də aparıcı xammal sayılan HB 2662 FS marka homopolimer propilenin ilkin sınaq-sənaye partiyasının istehsal edilməsinə başladı. Bu homopolimerdən qoruyucu maska, respirator və həkimlərə birdəfəlik tibbi geyimlər və

başqa məhsulların hazırlanması zamanı istifadə edilən toxunmamış materialların istehsal olunması məqsədilə istifadə edilir.

Odur ki, may ayında “SOCAR Polymer” MMC-yə məxsus Sumqayıt Kimya Sənaye Parkı ərazisində yerləşməkdə olan Polipropilen zavodu daxilində 611 tona qədər tibbi maska istehsalı məqsədilə yararlı sayılan HB 2 662 FS polipropilen növünün istehsalı təmin olunub. Həmin polimer növünün sonrakı sınaq partiyasının istehsal edilməsindən sonra, avqust ayı daha ən azı 1500 - 2000 ton həcmli istehsalı planlaşdırılır [8].

Bütün sözügedən proseslər fonunda ölkədə pandemiyadan zərərçəkən sahələrə dəstək paketləri reallaşdırıla bilər. Pandemiyadan zərərçəkmiş sahibkarlara dəstək mexanizmi vasitəsilə büdcədən demək olar ki, 1 milyard manat vəsait ayrılıb və ümumi dəstək paketinin də əsas məbləği 3,5 milyard manata çatdırılıb.

İlk növbədə pandemiyadan zərərçəkmiş sahibkarlara birbaşa verilən kompensasiyalar verilir. Belə ki, 6 ayda muzdlu işçilərin əməkhaqqılarının kompensasiyası çərçivəsində 24 min 300 vergi ödəyicisindən 210 min muzdlu çalışana 95 mln manat vəsait ödənilib. Həmçinin fərdi, o cümlədən də qeyd edə bilərik ki, mikrosahibkarlara maliyyə dəstəyi paketi dairəsində 105,6 min vergi ödəyicisi üçün 63 milyon vəsait verilib.

Bundan başqa, Sahibkarlığın İnkişafı Fondunun sahibkarlığın güzəştli kreditləşdirilməsinin təzə mexanizmləri də tətbiq edilir. Bunlar postpandemiya dövründə iqtisadi artıma dəstək verə biləcək sahələri əhatə edir. Bu mexanizmlərin biri daşınmaz əmlak girovu sayılmayan sahibkarların güzəştli kreditlər üzrə çıxış imkanlarının yaradılması üçün avadanlıqların alınması məqsədilə güzəştli kreditlər verilməsidir. Mexanizmin mahiyyəti bundan ibarətdir ki, güzəştli kredit təzə avadanlıqların alınması üçün yönəldilir və bu avadanlıqlar da girov olaraq qəbul edilir. Həmin mexanizm üzrə banklarda faiz dərəcəsi 7 faiz təşkil etməkdədir [7].

Bundan əlavə, kənd təsərrüfatı üçün uzunmüddətli yatırım tələb edən sahələrdə kiçikhəcmli kreditlər üzrə kreditin müddəti 3 ildən 5 il, ortahəcmli kreditlərdə 5 ildən 7 ilə kimi artırılıb, o cümlədən kredit dövrünün yarısı güzəştin müddəti olaraq təsbit olunub. Təsdiq olunmuş başqa mexanizm fors-major hadisəylə əlaqəli şəraitin dəyişməsinin səbəbindən Sahibkarlığın İnkişafı Fonduna məxsus Müşahidə Şurasının müəyyənləşdirdiyi formada kredit təşkilatlarının fond qarşısında olan borc öhdəliyinin vacib hallarda restrukturizasiya edilməsi, kredit öhdəliyinin icra edilməsinə möhlət verilməsidir.

Biznes kreditləri üzrə dövlət zəmanətinin verilməsi, həmçinin həmin kreditlər üzrə faizin subsidiyalaşdırılması mexanizminə görə, 500 mln manat məbləğində yeni biznes kredit portfelinin 60 faizə qədər hissəsinə dövlətin zəmanəti verilir, eyni zamanda bu kreditlərin illik faiz dərəcəsindən 50 faizi hökumət tərəfindən maliyyələşdirilir. Həmin mexanizmin müddəti 3 ilə qədər, illik faiz dərəcəsi 15 faizdən artıq olmayan kreditlərə şamil olunur. Sözügedən kreditlər üzrə güzəştin müddəti 12 aya kimidir.

Tətbiq olunan digər yeni mexanizmə müvafiq olaraq, pandemiya səbəbindən zərərçəkmiş sahələrdə fəaliyyətdə olan sahibkarların dövlət zəmanətli olmayan mövcud 1 mlrd manat kredit portfeli əsasında 2020-ci ilin mart ayının10-dək manatla əldə etdikləri kreditlərin illik faiz dərəcələrinin 10 faiz bəndi martdan etibarən 12 ay müddətində hökumət tərəfindən maliyyələşdirilir. Həmin mexanizm kreditlərin müddəti və faiz dərəcəsindən asılı olmadan tətbiq olunur.

Qeyd edilən mexanizmin tətbiq olunmasında sahibkarlıq subyektlərinin maliyyə ehtiyatlarına çıxış imkanlarının daha çox asanlaşdırılması, kredit sifarişlərinə qısa zamanda baxılması, müraciətlərin qəbul edilməsi, kredit təşkilatları və Sahibkarlığın İnkişafı Fondu tərəfindən zəruri təhlillərin həyata keçirilməsi və qərarların sahibkarlar üzrə çatdırılması kimi proseslərin hər biri İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış və birinci dəfə tətbiq edilən Elektron Kredit Platforması (www.e-edf.gov.az) vasitəsilə gerçəkləşdirilir.

Covid 19-dan sonra qlobal nizam, gündəlik həyat, hər şey çox dəyişəcək. Davamlılıq və dəyişiklik hər zaman həyatımızın bir hissəsi olmuşdur. Ancaq sanki dünya tarixində dəyişiklik son zamanlarda daha davamlı olmuşdur. Covid 19 virusunun yayılması, 2008 qlobal böhranı kimi dünya iqtisadiyyatı üçün bilinməyən bir böhrandır. Bunlar bir çox insanın gözləyə bilmədiyi və hesablamalarına gözləntilərinə daxil edə bilmədiyi böhranlardır. Bununla birlikdə, Covid 19 virusu epidemiyası, 2008 qlobal maliyyə böhranı ilə müqayisədə daha çox qeyri-müəyyənliklərə yol açdı. 2008-ci il böhranı əsasən maliyyə böhranı olduğundan, maliyyə bazarlarına inam yarandıqda dünya iqtisadiyyatı sürətlə bərpa oluna bildi. Covid 19 - virus böhranına görə etibar itkisi yalnız maliyyə bazarlarında yaşanmır. İnam problemi indi həyatımızın hər tərəfindədir. Dövlətlər bir-birinə etibar etmir. Hava limanlarını başqa ölkələrdən gələn sərnişinlərin üzünə bağlayırlar və ya uzun müddət karantin altına alaraq onları izləyirlər. Qlobal həmrəylik və inam, ölkələrin problemlərini təkbaşına həll etməyə çalışdıqları reaksiyalarla əvəzlənir. Sahibkarların bu dövrlərdə analiz ağlına gəlmir. Bununla yanaşı, dünya iqtisadiyyatı və qlobal idarəetmənin hara gedəcəyi barədə planlar qurmaq, əlaqəli fikirləri oxumaq, dinləmək və konfranslara qatılmaq sahibkarlar üçün, əlbəttə, çox vacibdir. Lakin praktik hallər barədə düşünmək və ortamüddətli planlar qurmaq şirkətlərimiz üçün xüsusilə faydalı olacaqdır. Əlbəttə ki, bu qlobal böhran ilk növbədə sahibkarlıq müəssisələrinə mənfi təsir göstərəcəkdir. Hər şeydən əvvəl bu böhran əhəmiyyətini göstərdi. Günümüzdə bir çox sahibkarlıq müəssisəsi respirator istehsal etmək üçün səfərbər oldu.

Hər böhran, insan davranışı, təbii fəlakətlər və ya iqtisadi mexanizmlər tərəfindən olsa da, sahibkarlara və təşkilatlarına çətinlik gətirir. Şəxsi və ictimai həyatın bir çox aspektləri onlayn şəklə köçürülməli idi. Bunda sahibkarlar istisna deyildi. Ticarət fəaliyyətlərini onlayn şəkildə aparmağa başlamalı idilər. Lakin, hər şey rahat bir şəkildə

onlayn həll edilə bilməz. COVID-19 öz-özünə işləyən şəxslərin təşəbbüskar əlaqələrini əhəmiyyətli dərəcədə təsir etmişdir. Bəzi sahibkarlar dövlətin məhdudiyyətləri nəticəsində işlərini müvəqqəti bağlamalı oldular. Digərləri tədbir görməli və fəaliyyətlərini az miqdarda aparmalı idilər. Pandemiyanın nəticələrinin uzandığı üçün sahibkarlıq fəaliyyətlərinin bütün aspektlərində yenilikçi həll yolları tapmaları lazım idi. Sahibkarların yeni vəziyyətə yönəlməsindən əvvəl vaxt tələb olundu və hökumətlər onlara məlumat, məsləhət və maliyyə dəstəyi verməyi hədəfləyən müəyyən siyasət tədbirləri ilə kömək etməyə başladılar. Pandemiya, çox güman ki, ənənəvi təşəbbüskar qərar qəbul etmə proseslərinə təsir edəcəkdir. Buna görə qərarların qəbulu COVID-19 pandemiyasının müxtəlif səviyyələrdə sahibkarlığa təsirini yaxşılaşdırmaq, sahibkarlara öz işini davam etdirən insanlara böhrandan çıxmağa kömək edən ən yaxşı fərdi və siyasət təşəbbüsü tətbiq etmələri haqqında məlumat toplamaq məqsədi daşıyır.
Sahibkarların fəaliyyətlərində vacib olan sosial davranış qaydaları və həmçinin sanitar-epidemioloji tapşırıqlara riayət edilməsindən əlavə, yeni həyat tərzində rəqəmsal həllərin həyata keçirilməsinin zəruruliyini, məsafəli xidmətin imkanlarının genişləndirilməsinin əsas olduğu vurğulanmışdır. Baxmayaraq ki, bu qaydaların bir hissəsi hələ təzədir, indiyədək yerli sahibkarların diqqətini çəkməyib, amma indi fəaliyyəti elə etməkdə fayda var. Hərçənd ki, məsafədən fəaliyyət sahibkarları geniş satış və bununla yanaşı, xidmət şəbəkəsi həyata keçirmədən dövriyyələrini yüksəltməyə, məsrəflərini önəmli dərəcədə azaltmağa imkan verməklə birliklə məhsul və bununla yanaşı, xidmətlərin də maya dəyərini azaltmağa yol açır. Belə baxanda bu cür iş rejiminə üstünlük verilməməsinin əsasında mental xüsusiyyətlər də xüsusi rol oyanyır. Yəni ki, sahibkar etibarlılığı vacib sayaraq yerində ticarət və xidməti mühüm sayır. O cümlədən əhali arasında maarifləndirici və hətta qeyd edə bilərik ki, stimullaşdırıcı fəaliyyətlərin edilməməsi mənfi təsirlərdən biridir. Mövcud məsafədən ticarət və həmçinin xidmət infrastrukturunun üsulları çox vaxt istehlakçının ehtiyacını ödəməyə çatmır. Məsələn, pandemiya belə xidmətə ehtiyacı yüksəltsə də, bir sıra sahibkarların məsafədən ticarət və bununla birlikdə, xidmət infrastrukturunun mövcud olmaması, olsa belə, təcrübə çatışmazlığı həmin sahənin yüksəlişinə tələbin olmasından xəbər verir. Bunların hər biri ölkədə hələ ki, yerində ticarət və xidmətin vacibliyini şərtləndirir. Ancaq pandemiya zamanı məsafədən fəaliyyətin inkişafının vacib olmasını bir daha göstərir. Bildiyimiz kimi, 2005-ci ildə Azərbaycanda "Elektron ticarət haqqında" qanun təsbit edilib.
KOBİA dəstəyi ilə COVID-19 virusu vəziyyətində və postpandemiya vaxtında sahibkarların motivasiya olunması, beynəlxalq praktikanın qavranılması və indiki pandemiya vaxtında sahibkarların üzləşdikləri çətinliklərin müzakirəsi üçün yaradılmış "Sahibkarların I Beynəlxalq onlayn forumu - Bakı 2020" fəaliyyətə başlamışdır. Ölkə-

mizdə sahibkarlığın yüksəlişi və özəl sektora dövlət dəstəyi fəaliyyətləri, əsasən pandemiya vaxtında sahibkarlara edilən dəstək, gənclərin sahibkarlıq işinə çağırılması, pandemiyanın mənfi təsirlərindən əlavə, ərsəyə gətirdiyi yollar haqqında müzakirələr aparılmışdır. Forum çərçivəsində "Krizin gətirdiyi imkanlar və problemlər" mövzusunda söhbətlər aparılıb. İclasda pandemiya vaxtında COVID-19-un biznesə, sahibkarlığa və şəxsi inkişafa təsiri haqqında iş adamları vasitəsilə müzakirələr keçirilib, mövzu ətrafında analizlər aparılıb, tədbir iştirakçıları üçün önəm daşıyan suallara cavablar tapılıb.
2018 - 2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin yayılması üzrə Dövlət Proqramı"nın məqsədlərindən biri də elektron ticarətin yüksəlişidir. Yəni ki, elektron ticarət nağdsız ödənişləri əsas sayaraq, iqtisadiyyatda dövriyyələrin düzgünləşməsinə yol açır. Elektron ticarətin yüksəlişi həm pandemiya dövründə, həm də sonrakı müddətdə aktualdır. Pandemiya zamanı məhdudlaşdırıcı proseslər sahibkarları məsafədən fəaliyyət göstərməyə məcbur edir. Belə olmadıqda, pandemiyanın hansı müddətə qədər olacağının bilinməməsi çərçivəsində məhdudlaşdırmaların bu subyeklərin maliyyə vəziyyətlərini pisləşdirməyə davam edəcəyi təsdiqlənmişdir. Sahibkarların fəaliyyəti üçün bəzi qərarlar verilmişdir ki, bu da mövcud vəziyyətin sahibkarlığa pis təsirlərini aşağı salmaq və məşğulluğun müdafiəsinə dəstək üçün pandemiyadan əziyyət çəkən sahələrdə işləyən vergi ödəyicilərinə işçi miqdarına davranışda bir aylıq əməkhaqqı fondu miqdarında, fərdi (mikro) sahibkarların ehtiyacı çox olan hissəsinə yenidən 250 manat həcmində maliyyə yardımı göstəriləcək. Pandemiya bitdikdən sonrakı dövrə gəlincə isə, məsafədən xidmət yenidən sahibkarların işinin əsaslarından birini təşkil edə bilər. Statistika Komitəsinin informasiyasına görə, pandemiya dövründə ölkədə elektron ticarətin səviyyəsi 2019-cu ilin birinci yarısı ilə müqayisədə 1,8 dəfə yüksəlib ki, bu da əhalidə məsafədən məhsul və hətta xidmət qazanmaq bacarıqlarının yaranmasına yol aça bilər. İndiki vaxtda əhalidə daha az istehlak bacarığı formalaşdığını düşünsək, postpandemiya vaxtında sahibkarlıq subyektlərinin rəqabətinin pik həddə çatacağı gözləniləndir. Bununla da sahibkkarlarların olduğu yerdən fəaliyyətlə bərabər, məsafədən də fəaliyyət göstərmələrinə tələb yaranacaq.

## Nəticə

Bütövlükdə, maliyyə sistemində ən həssas hissə sayılan banklar 2008-ci ildəki vəziyyətlərindən xeyli yaxşı vəziyyətdə olsalar belə, maliyyə sisteminə fokuslanmış istənilən siyasi addımın tənəzzülə uğraması mümkündür. Ona görə ki, indiki vəziyyət təkcə maliyyə sektoru ilə əlaqəli deyil. 2020-ci il dünya iqtisadiyyatında müşahidə olunan şok tamamilə fərqli olmaqdadır, məhdudlaşdırma siyasətinin özü istehsaldan tutmuş xidmətə kimi əksər sahəni əhatə etməklə ciddi şəkildə əngəl törədir. Buna görə

də, COVID-19 epidemiyasının iqtisadi nəticəsi 2007 illə 2009-cu il arasındakı vəziyyətdən daha pis görünür, ona görə ki, bu qədər qısa vaxtda iqtisadiyyatın bu cür sürətli çökməsi baş verməkdədir. Hətta altı ay müddətində müəyyən məqbul səviyyə üzrə gəlir əldə edilsə belə, bir sıra firmaların iflas etməsinin, işsizlikdən tutmuş bank balansında olan mənfi borclara kimi, əksər problemlərin olmasına yol açacağı ehtimal edilir. COVID-19 böhranının dağıdıcı iqtisadi və tibbi şokunu nəzərə alaraq, indi əsas prinsip - "iqtisadi çapığ"ın yığılmasını təmin etməkdir. Burada fərdi və korporativ iflas hallarının sayını azaltmaq, insanların işləməmələrinə baxmayaraq pul xərcləmələrini davam etdirmələrini əsas götürmək lazımdır. Həmçinin epidemioloji əyri səviyyəsini düzəltmək üçün lazım olan karantin növünə subsidiya verilməsi ehtimalı da nəzərdən keçirilə bilər.

Bütün bu görülən tədbirlər onu deməyə əsas verə bilər ki, qarşıdakı dövrdə qeyri-neft sahəsi ilə əlaqəli tədbirlər davam etdiriləcəkdir. Bu isə imkan verəcək ki, ölkəmiz növbəti aylarda, xüsusilə postpandemiya dövrü üzrə əsas iqtisadi artımı qeyri-neft sektorunun sayəsində formalaşdıra bilsin. Bu, iqtisadiyyat sahəsininin inklüzivliyi və dayanıqlılığı nöqteyi-nəzərindən xeyli önəmlidir. Azərbaycan Respublikasında dərinləşdirilən islahatlar aparılmasının davam etdirilməsi ilə əlaqəli siyasi iradə vardır. Bu da növbəti dövrlərdə belə iqtisadiyyatın şaxələnməsi, həmçinin sahibkarlığın inkişafı ilə əlaqəli dərinləşdirilən islahatların davam etməsindən xəbər verir.

**Ədəbiyyat**

1. COVİD-19 pandemiyasının iqtisadiyyata təsiri. www.iqtisadiislahatlar.org;
2. COVİD-19-un iqtisadiyyata təsiri. Böhrandan çıxış yolu. www.report.az;
3. COVİD-19-un reklam bazarına təsiri. www.adra.gov.az;
4. COVİD-19 pandemiyasının dünya iqtisadiyyatına təsiri. www.banco.az;
5. AHK Azerbaijan member companies assessed the economic impact of the coronavirus pandemic. https://www.aserbaidschan.ahk.de/en/newsroom/news-details/ahk-azerbaijan-member-companies-assessed-the-economic-impact-of-the-coronavirus-pandemic;
6. www.stat.gov.az;
7. www.smb.gov.az;
8. www.socar.az.

# KƏND TƏSƏRRÜFATINDA İSTEHLAK MƏHSULLARI BAZARININ İNKİŞAF PERSPEKTİVLƏRİ

*Daxil olub: 14 sentyabr 2020-ci il*
*Qəbul olunub: 15 dekabr 2020-ci il*
*Received: 14 September 2020*
*Accepted: 15 December 2020*

**F.V.Süleymanov[1]**
[1]*Doktorant, ADAU*
[1]*farizsuleymanov649@gmail.com*

**Xülasə**

Məqalədə istehlak məhsulları bazarının ölkənin iqtisadi inkişafında əhəmiyyəti haqqında zəruri məlumatlar yer almışdır. Odur ki, məqalədə etibarlı ərzaq təminatının yaradılması məqsədi ilə bazarda tarazlıq halının qorunub saxlanılmasına, müxtəlif alıcılıq qabiliyyətinə malik əhali qrupları üçün uyğun məhsulların istehsalının zəruriliyi vurğulanmışdır. Burada həmçinin, bazarda həyata keçirilən diferensial qiymət siyasətinin vacibliyi ön plana çıxarılmışdır. Tədqiqat işinin məqsədi istehlak məhsulları bazarının ölkənin iqtisadi inkişafında rolunun vacibliyini vurğulamaqla, milli iqtisadiyyatın gələcək inkişafına təkan verəcək, bazarın idarəetmə mexanizminin təkminləşdirilməsinə yönəlik təkliflər verməkdir. Tədqiqatın məhdudiyyəti istehlak bazarının ökənin iqtisadi inkişafında rolunun bütün sahələr üzrə iqtisadi qiymətləndirilməsini əks etdirə bilməməsidir. Burada yalnız bazarın inkişafının milli iqtisadiyyatın spesifik, bazarla əlaqəli sahələrə təsiri nəzəri formada təsvir edilmişdir. Tədqiqatın nəticə hissəsində istehlak məhsulları bazarının günün tələblərinə, müasir istehlakçının istehlak tələblərinə uyğunlaşdırılmasının vacibliyi vurğulanmışdır. Bazarın fəaliyyət mexanizminin təkminləşdirilməsi məqsədi ilə istər maliyyə institutlarının, istərsə də hüquqi institusional bazanın daim yenilənməsinin zəruriliyi ön plana çəkilmişdir.

***Açar sözlər:*** *milli iqtisadiyyat, aqrar sektor, kənd təsərrüfatı istehlak məhsulları bazarı, bazarın tənzimlənməsi, qiymət siyasəti.*
***Jel Classification Codes:*** *Q10, Q13.*

# ROLE OF AGRICULTURAL CONSUMER PRODUCTS MARKET IN THE ECONOMIC DEVELOPMENT OF THE COUNTRY

**F. V. Suleymanov[1]**
[1]*Doctoral student, ASAU*
[1]*farizsuleymanov649@gmail.com*

**Summary**

The article contains the necessary information about the importance of the consumer market in the economic development of the country. Therefore, the article emphasizes

the need to maintain a balanced market in order to create a reliable food supply, the production of products suitable for different groups of the population with different purchasing power. It also highlights the importance of differential pricing policies in the market. The purpose of the study is to emphasize the role of the consumer market in the economic development of the country, to stimulate the future development of the national economy, to make proposals to improve the management mechanism of the market. The urgency of the issue is that the consumer goods market not only provides a reliable food supply to the population, but also plays a fundamental role in the development of many market-related sectors of the economy. Here, the consumer goods market manifests itself as a kind of unit of development of the national economy and consumer welfare. This proves the importance of the market as an economic category that promotes the development of both vital sectors and other important sectors of the economy. The limitation of the study is that it does not reflect the economic assessment of the role of the consumer market in the economic development of the country in all areas.In the article only theoretically described the impact of market development on market-related areas of the national economy. The final part of the study emphasized the importance of adapting the consumer goods market to the needs of the day. In order to improve the functioning of the market, the need to constantly update both the financial institutions and the legal institutional framework was highlighted.

***Keywords:*** *national economy, agrarian sector, agricultural consumer product market, market regulation, price policy.*

## РОЛЬ РЫНКА СЕЛЬСКОХОЗЯЙСТВЕННЫХ ПОТРЕБИТЕЛЬСКИХ ТОВАРОВ В ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ СТРАНЫ

**Ф. В. Сулейманов [1]**
[1]*Докторант, АГАУ*
[1]farizsuleymanov649@gmail.com

### Резюме

В статье содержится необходимая информация о значении рынка потребительских товаров в экономическом развитии страны. Поэтому в статье подчеркивается необходимость поддержания баланса на рынке с целью создания надежного продовольственного снабжения, производства продуктов, подходящих для разных групп населения с разной покупательной способностью. Здесь также выдвигается на передний план важность дифференцированной

ценовой политики на рынке. Основная цель исследования - подчеркнув важность роли рынка потребительских товаров в экономическом развитии страны, формировать предложения, которые дадут импульс дальнейшему развитию национальной экономики, а также направленные на усовершенствование механизма управления рынком. Актуальность вопроса заключается в том, что рынок потребительских товаров не только обеспечивает надежное снабжение населения продуктами питания, но и играет фундаментальную роль в развитии многих секторов экономики, связанных с рынком. Здесь рынок потребительских товаров проявляет себя как своеобразная единица измерения развития национальной экономики и благосостояния потребителей. Это доказывает важность рынка как экономической категории, которая способствует развитию как жизненно важных секторов, так и других важных секторов экономики. Ограничения исследования состоит в том, что оно не отражает экономическую оценку роли потребительского рынка в экономическом развитии страны по всем отраслям. Здесь теоретически описывается только влияние развития рынка на специфические, связанные с рынком области национальной экономики. В заключительной части исследования подчеркивается важность соответствия рынка потребительских товаров к нуждам современного периода, потребительским нуждам современного потребителя. Для усовершенствования механизма функционирования рынка была подчеркнута необходимость постоянного обновления как финансовых институтов, так и институциональной правовой базы.

***Ключевые слова:*** *национальная экономика, аграрный сектор, сельскохозяйственный рынок потребительских товаров, регулирование рынка, ценовая политика.*

Bazar münasibətlərinin formalaşdığı, inkişaf etdiyi müasir dövrdə ölkə daxilində fəaliyyət göstərən istehlak məhsulları bazarının milli iqtisadiyyatın inkişafına verdiyi töhfə əvəzolunmazdır. İqtisadi tarazlığı müəyyən edən əsas amillərin məhz bazarda formalaşması, istehlak məhsulları bazarının ölkənin iqtisadi inkişafı baxımından lazımınca tədqiq edilməsini zəruri edir. Burada daxili əmtəə istehsalçılarının maraq və mənafelərinin təmin edilməsi, istehlakçıların iqtisadi maraqlarına uyğun qiymət sisteminin formalaşması, kənd təsərrüfatı mənşəli məhsul istehsalının yüksəlməsinə və dövlətin bazardakı istehlak təyinatlı məhsulları üzrə iqtisadi təhlükəsizliyinin təmin olunmasına imkan verir. Bundan başqa, bazarda istehsalçı və istehlakçı arasında qarşılıqlı əlaqələrin bazar qanunlarına uyğunlaşdırılması burada dəyər qanununa əsaslanan ekvivalent mübadilə münasibətlərinin qurulmasına şərait yaradır.

İstehlak məhsulları bazarının inkişafı bazarda tələb və təklif tarazlığının qorunub saxlanılmasına şərait yaratmaqla bazar konyunkturunun köməyi ilə onun tənzimlənməsinə imkan verir. Bu həmçinin bazarda mövsümilik şərti nəzərə alınmaqla məhsul istehsalının həcminə, onun satışına, mövsümlər üzrə qiymət səviyyələri arasında kəskin fərqlərin olmamasına nəzarət etmək imkanı yaradır. Odur ki, bazar müxtəlif gəlir səviyyəsində olan əhali qruplarını alıcılıq qabiliyyətlərinə uyğun məhsullar ilə təmin edir. Bundan başqa, bazarın tarazlıq vəziyyəti müəssisələrin istehsal edəcəyi məhsul həcmini müəyyən etməyə imkan verir və istehsal zamanı bu həcmdən kəskin şəkildə kənarlaşmaların qarşısını alır. Bununla da, bazarda tarazlığın qorunub saxlanılması məqsədi ilə yerli istehsalın artırılması əsas hədəf kimi müəyyənləşdirilir. Belə ki, özünütəminat imkanlarının yerli istehsal hesabına yaradılması uzunmüddətli dayanıqlı ərzaq balansının formalaşdırılmasına imkan verir. Bu isə öz növbəsində, istehlak məhsulları bazarında kənd təsərrüfatı təyinatlı məhsulların rəqabət qabiliyyətliyinin yüksəldilməsi hesabına idxaldan asılılığın bu və ya digər dərəcədə qarşısını alır.
Bazarın ölkənin iqtisadi inkişafındakı inikasından danışarkən, tanınmış Amerikalı iqtisadçı alim M.Ensmingernin sözləri xüsusi əhəmiyyətə malikdir. Onun sözləri ilə ifadə etsək – "istehlak olunan ərzaq məhsulları həm məsuliyyət, həm silah rolunda çıxış edir". İstehlak dövlət üçün məsuliyyətdir, ona görə ki, əhalinin yaşaması, qidalanması üçün lazım olan miqdarda ərzağa günlük tələbatın təmin edilməsi onun öhdəliyindədir. Başqa tərəfdən isə o, iqtisadi-siyasi təhlükəsizliyin təmin edilməsi meyarı kimi çıxış etməklə, yüksək gücə malik olan silah rolunu oynayır [9, s.15]. Odur ki, bir çox iqtisadi mütəfəkkirlərin də qeyd etdiyi kimi, ölkədə istehlak məhsulları üzrə vahid mərkəzdən idarə olunan ərzaq kompleksinin yaradılmasına ehtiyac var. Belə ki, dayanıqlı ərzaq kompleksinin formalaşdırılması, ərzaq təminatında həm keyfiyyət, həm də kəmiyyət irəliləmələrinə şərait yaradır.
Mövzunun aktuallığı ondan ibarətdir ki, istehlak məhsulları bazarı təkcə ölkə əhalisinin etibarlı ərzaq təminatına imkan vermir, o həmçinin iqtisadiyatın bir çox bazarla əlaqəli sahələrinin inkişafı üçün də özül rolunda çıxış edir. Burada istehlak məhsulları bazarı bir növ milli iqtisadiyyatın inkişafının və istehlakçıların rifahının ölçü vahidi kimi özünü büruzə verir. Bu isə, bazarın həm həyati vacib sahələrin, həm də iqtisadiyyatın digər önəmli sahələrinin inkişafına təkan verən iqtisadi kateqoriya kimi önəmini sübut edir.
Tədqiqat işinin məqsədi kənd təsərrüfatı istehlak məhsulları bazarında maksimum tələbatın ödənilməsi üçün yerli istehsalın artırılmasının stimullaşdırılması üçün dövlət dəstəyinin artırılması, istehlakçıların keyfiyyətli, ancaq aşağı qiymətli məhsulla təmin edilməsində fasiləsizliyin yaradılması istiqamətlərini araşdırmaqdan ibarətdir.

UNEC Elmi Xəbərləri, İl 8, Cild 8, iyul-sentyabr, 2020, səh. 128 - 142
Scientific Reviews in UNEC, Year 8, Volume 8, July-September, 2020, pp. 128 - 142

İqtisadi tədqiqatların təməlini təşkil edən sistemli yanaşma və müqayisəli təhlil metodu bizim də tədqiqatımızın özəyini təşkil edir. Tədqiqatımızın ilk mərhələsini bazarın araşdırılması, milli iqtisadiyyatın inkişafında rolunun tədqiqi, növbəti mərhələdə isə kənd təsərrüfatı istehlak məhsulları bazarının və inkişaf perspektivlərinin öyrənilməsindən ibarətdir.

Bazarın iqtisadiyyata təsirindən danışarkən onun milli iqtisadiyyatın inkişafındakı rolunun müəyyən edilməsinin əhəmiyyəti ölçüyəgəlməzdir. Bazar digər iqtisadi anlayışlardan fərqli olaraq daha geniş ticarət əməliyyatlarının reallaşdığı iqtisadi mexanizim kimi özündə bir çox iqtisadi təsir alətlərini cəmləyir. Bazar həmçinin bir çox spesifik xüsusiyyətləri ilə digər ticarət kateqoriyalarından kəskin şəkildə fərqlənir. Odur ki, bazarın milli iqtisadiyyatın inkişafındakı rolunu aşağıdakı şəklin köməyi ilə fərqləndirmək olar.




**Şəkil 1.** Bazarın milli iqtisadiyyatın inkişafında rolu
*Mənbə: Şəkil müəllif tərəfindən tərtib edilmişdir.*

Şəkil 1-də qeyd edilən bazarın milli iqtisadiyyatın inkişafında fərqləndirilən bu xüsusiyyətləri iqtisadi inkişafa təsir edən əsas anlayışlar olsa da, heç də bazarın milli iqtisadi inkişafa təsirini tam və dolğun şəkildə ifadə etmir. Belə ki, bazarın milli iqtisadiyyatın inkişafında rolunu vergi daxilolmalarının həcmindəki artımla, istehsal miqyasının genişlənməsi ilə, maliyyə institutlarının inkişafı ilə, informasiya təminatı hesabına istehsalın, satışın proqnozlaşdırılması ilə də xarakterizə oluna bilər. Beləliklə, bazar istehsal miqyasının genişləndirilməsi hesabına büdcə daxilolmalarının həcminin yüksəlməsinə səbəb olmaqla, həm də istehsal xərclərinin azaldılmasına və məhsul satışının yüksəldilməsində əvəzsiz rola malikdir. Odur ki, istehlak məhsulları bazarının əsas tələb hissəsini təşkil edən ərzaq məhsulları ilə təminat bazara təsir edən hərəkətverici qüvvə kimi çıxış edir. Burada tələb səviyyəsinin həcmi ölkə, region əhalisinin gəlirlilik səviyyəsindən, əhalinin demoqrafik quruluşundan, bazardakı istehlakçı davranışından və bu kimi bir çox amillərdən təsirlənir. Qeyd edilən amillərin təsir

imkanları eyni olmasa da, müxtəlif aspektlərdən yanaşıldıqda, onların təsir mexanizmi imkanlarını müəyyənləşdirmək heç də çətin olmur.
Odur ki, hər bir ölkənin istehlak məhsulları bazarı qarşısında bir sıra əsas vəzifələrin təmin edilməsi durur və bu vəzifələri aşağıdakı kimi sıralamaq olar:

- ölkə əhalisinin tələbatının maksimum səviyyədə yerli istehsal hesabına ödənilməsini təmin etmək;
- istehlak məhsulları bazarının əsas tərəfləri hesab edilən istehlakçı və istehsalçıların qarşılıqlı əlaqəsinin uzlaşdırılmasına nail olmaq;
- istehlakçıların bazarda aşağı qiymətlərlə keyfiyyətli məhsul əlyetərliliyini təmin etmək;
- həm istehlakçı, həm istehsalçıların iqtisadi maraqlarına uyğun gələn bazar mühitinin yaradılmasına nail olmaq;
- bazardakı məhsul qıtlığının və ya bolluğunun aradan qaldırılması hesabına bazar qiymətlərinin kəskin artmasının və ya azalmasının qarşısını almaq;
- bazar konyunkturunu daim nəzarətdə saxlamaq və dəyişən tarazlığın yenidən bərpa olunması məqsədi ilə çevik reaksiya mühitini formalaşdırmaq və gözlənilən riskləri minumuma endirmək.

İstehlak məhsulları bazarı milli iqtisadiyyatın, mövcud imkanlar hesabına ölkə əhalisinin sağlam həyat tərzinə keçməsi məqsədi ilə lazımi miqdarda məhsullar ilə etibarlı təminatına imkan yaradır. Burada bazar həmçinin milli iqtisadiyyatın indikatoru funsksiyasını yerinə yetirir. Belə ki, bazarda qiymətlərin ümumi səviyyəsinin tarazlıq qiymətindən aşağı olması onu məhsul ehtiyatının toplanmasına, qiymətlərin ümumi səviyyəsinin tarazlıq qiymətindən yuxarı olması onu məhsul ehtiyatının istifadəsinə sövq edir. Ümumi ərzaq ehtiyatlarının yaradılması istehlak məhsulları bazarının sabitləşdirilməsinə imkan verməklə yanaşı, həm də idxalçılar, ixracatçılar üçün əlverişli iqtisadi mühit imkanları yaradır.
İstehlak məhsulları bazarının inkişafı ölkənin hərtərəfli inkişafını təmin edir, burada regionlararası qeyri-ahəngdarlığın qarşısını almaq mümkün olur. Xüsusilə bazarda təklif olunan kənd təsərrüfatı məhsullarının böyük bir qisminin regionlarda yetişdirilməsi buna imkan verir. Belə ki, region əhalisi tərəfindən istehsal olunan məhsulların bazar qiymətləri ilə istehsalını reallaşdırdıqları məkanlardan alınması və iri şəhərlərə gətirilərək əlavə dəyər qazandırılıb son məhsul kimi təklif edilməsi ilkin məhsul istehsalçılarının marağını təmin edir. Bu isə öz növbəsində regionda olan iqtisadi fəal əhalinin məşğulluğunun təmin olunmasına imkan verir. Sosial-iqtisadi problemlərin həlli üçün yeni imkanlar açmaqla sahə üzrə ixtisaslaşma səviyyəsinin yüksəlməsinə şərait yaradır [8, s.133]. Ancaq bu da məlumdur ki, aqrar bazarda vasitəçilərin rolu heç də az deyil. Təəssüf ilə qeyd etməliyik ki, xüsusilə vasitəçilərin rolu aqrar bazarda daha çox ön plana çıxır. Belə ki, kənd təsərrüfatı məhsul istehsalçılarının hər birinin bazara

çıxış imkanlarının eyni olmaması kiçik istehsalçıların məhsullarının vasitəçilər tərəfindən bazarda reallaşdırılmasına şərait yaradır. Burada kiçik istehsalçılar tərəfindən istehsal edilərək, onların öz iradələrindən asılı olaraq bazarda satışının təşkil edilməməsi vasitəçilərin bazarda rolunu artırır. Bu isə öz növbəsində həm istehsalçı, həm də istehlakçı üzrə itirilmiş iqtisadi səmərəyə səbəb olur. Vasitəçilərin payının bazarda yüksəkliyi, onların məhsulu ucuz alıb, baha qiymətə reallaşdırması bəzi hallarda məhsul üzrə ilkin istehsalçıdan daha çox iqtisadi mənfəət əldə etmələrinə imkan yaradır. Qeyd edilən problem iqtisadi fəal əhalinin məşğulluğunun qarşısında dayanan maneə kimi də qiymətləndirilə bilər.

Deyilənlərdən çıxış edərək, bazar münasibətlərinə transformasiya edən mülkiyyət plüralizmi səbəbi ilə formalaşan təsərrüfat ukladlarının iqtisadi fəal əhalinin məşğulluğunun təmin edilməsində fundamental dəyişikliklərə səbəb olduğunu qeyd edə bilərik. Dəyişikliklərin nəticəsi olaraq milli iqtisadiyyatda dövlət və qeyri-dövlət sektorları arasında nisbətdə nəzərəçarpacaq dərəcədə yaxınlaşmalar baş vermişdir. Belə ki, daxili bazarda qeyri-dövlət sektorunun ayrı-ayrı sferalarının inkişafı nəticəsində əvvəlki natamam tarazlıq halı yeni tarazlıq halla əvəzlənmişdir.

Bazarın milli iqtisadiyyatın inkişafında əsas rolu istehsal əsnasında istifadə olunan əməyə maddi stimul təmin etməsidir. Burada məhsulun reallaşdırılması zamanı bölgü, təkrar istehsal prosesini həyata keçirir. Belə ki, bazarda, tələb və təklif tarazlıq vəziyyətində olmadıqda, istehlakçılar məhsul istehlak etmək yönündə pul vəsaitlərinin reallaşmasında çətinlik çəkirlər. Nəticədə bazarda bölgü mexanizmi sıradan çıxır və yüksək məhsuldar əməyə maddi stimul azalır. Bu isə öz növbəsində əməyin səmərəliliyinin gələcəkdə itirilməsinə səbəb olur. Odur ki, istehlak məhsulları bazarında bazarın daxili və xarici tarazlığının qorunması əmək ehtiyatlarının iqtisadi səmərəliliyinin yüksəldilməsi sarıdan önəmlidir. Əmək bazarında əməyin iqtisadi səmərəliliyinin qorunub saxlanılması üçün məhsul qiymətlərinin düzgün müəyyənləşdirilməsi vacibdir [8, s. 143]. Belə ki, bazar qiymətlərinin düzgün müəyyənləşdirilməsi təminat səviyəsinin yüksəldilməsinə səbəb olmaqla, dövlətin qiymət siyasətinin reallaşdırılmasında vacib rol oynayır.

**Cədvəl 1. İstehlak məhsullarının qiymət indeksləri (əvvəlki ilə nisbətən).**

| | *2015* | *2016* | *2017* | *2018* | *2019* |
|---|---|---|---|---|---|
| Ərzaq məhsulları, içkilər və tütün məmulatları | 106,1 | 114,7 | 116,4 | 101,7 | 103,8 |
| Qeyri-ərzaq malları | 103,8 | 116,7 | 111,6 | 102,6 | 101,2 |
| Cəmi məhsullar | 105,4 | 115,7 | 114,0 | 102,2 | 102,5 |

*Mənbə: AR DSK.*

Cədvəldən də göründüyü kimi, son beş ildə Azərbaycanda istehlak məhsullarının qiymət indeksləri əvvəlki ilə nisbətən artan dinamika ilə davam edir. Dövlət Statistika

Komitəsinin məlumatına əsasən, 2016 və 2017-ci illərdə artım sürəti daha çox olmuşdur. Belə ki, 2016-cı ildə əvvəlki ilə nisbətən 14,7 faiz, 2017-ci ildə isə 2016-cı ilə nisbətən 16,4 faiz artım müşahidə edilmişdir [6, s. 33]. 2020-ci ilin yanvar-noyabr aylarında istehlak qiymətləri indeksi 2019-cu ilin yanvar-noyabr aylarına nisbətən 102,8 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 105,0 faiz, qeyri-ərzaq məhsulları üzrə 101,3 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 101,0 faiz təşkil etmişdir. Cari ilin noyabr ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,5 faiz, əvvəlki ilin noyabr ayına nisbətən 102,4 faiz təşkil etmişdir [16].

**Cədvəl 2. İstehlak qiymətləri indeksi, faizlə**

| | 2020-ci ilin noyabr ayı | | 2020-ci ilin yanvar-noyabr ayları |
|---|---|---|---|
| | əvvəlki aya nisbətən | əvvəlki ilin müvafiq ayına nisbətən | əvvəlki ilin müvafiq dövrünə nisbətən |
| Ərzaq məhsulları, içkilər və tütün məmulatları | 100,4 | 103,9 | 105,0 |
| Qida məhsulları | 100,4 | 103,4 | 104,6 |
| Spirtli içkilər | 99,9 | 103,9 | 103,1 |
| Tütün | 100,0 | 118,5 | 116,3 |
| Qeyri-ərzaq məhsulları | 100,1 | 101,2 | 101,3 |
| Ödənişli xidmətlər | 100,9 | 101,1 | 101,0 |
| **Cəmi məhsullar və xidmətlər** | **100,5** | **102,4** | **102,8** |

*Mənbə: AR DSK.*

2020-ci ilin noyabr ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,4 faiz, əvvəlki ilin noyabr ayına nisbətən 103,9 faiz təşkil etmişdir (Cədvəl 2) [16].

Məlumdur ki, kənd təsərrüfatı istehlak məhsulları bazarı ölkənin qiymət siyasətinin həyata keçirildiyi böyük ticarət məkanı kimi xarakterizə edilir. Bu səbəbdən, düzgün həyata keçirilən qiymət siyasəti iqtisadi tənzimləmə vasitəsi kimi çıxış edərək, aqrar bazarın bundan sonrakı fəaliyyət müqəddəratını həll edir. Kənd təsərrüfatı məhsulları üzrə tətbiq olunan qiymət siyasətinin istehlak məhsulları bazarında, bazar iqtisadiyyatı prinsiplərinə uyğun həyata keçirilməsi, həm bazar iştirakçıları üçün, həm də dövlət ehtiyacları baxımından vacibdir. Burada bazarın tələb-təklif tarazlığının qorunmasına nail olmaq məqsədilə qiymətin bir neçə növündən istifadə edilir, bunlara razılaşdırılmış, müqavilə, stimullaşdırıcı qiymətləri aid etmək olar. Hazırda ölkəmizdə fəaliyyət göstərən kənd təsərrüfatı istehlak məhsulları bazarında qeyd edilən qiymət növlərinin hər birindən bu və ya digər dərəcədə istifadə edilir.

Kənd təsərrüfatı istehlak məhsulları istehsalçılarının hansı həcmdə məhsul istehsal etməsi, bilavasitə onun hansı formada satış həyata keçirəcəyinə təsir edən əsas amillərdən biridir. Belə ki, əgər istehsalın həcmi kifayət qədər böyükdürsə və həmin məh-

sul üzrə dəyər ekvivalenti yüksəkdirsə, onda sözügedən məhsulun müxtəlif satış kanalları vasitəsi ilə, topdan satış qiymətləri ilə təklif edilməsi iqtisadi cəhətdən səmərəli hesab edilir. Bu hal dəyər zəncirinin sonuncu, yəni satış mərhələsini əhatə edir. Dəyər zəncirinin bütün mərhələlərini özündə birləşdirən bir çox istehsalçılar öz məhsullarını hər iki formada həm topdansatış məkanlarına nisbətən ucuz satış qiymətləri ilə, həm də öz yerli satış obyektlərində reallaşdırmaqla həyata keçirirlər. Çünki bu hal istehsalçıya məhsulunun digər istehsalçılar ilə müqayisədə daha yüksək həcmdə satmaq imkanı verir və sahə üzrə daha çox gəlir əldə etmələrinə şərait yaradır. Bununla da bazar, digər istehsalçılar üçün analiz etmə imkanı formalaşdıraraq imformasiya verici funksiya yerinə yetirir. Bu hal da öz növbəsində bazarın təminat səviyyəsinin yüksəlməsinə, milli iqtisadiyyatın davamlılığının artırılmasına şərait yaradır.

Qeyd etmək lazımdır ki, cari ilin noyabr ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox bahalaşma makaron məmulatlarının, toyuq ətinin, pasterizə olunmamış üzlü südün, yoqurtun, xamanın, kəsmiyin, brınza pendirinin, yumurtanın, günəbaxan və qarğıdalı yağlarının, bananın, üzümün, fındığın, xiyarın, pomidorun, bibərin, badımcanın, çuğundurun, göy lobyanın, soğanın, sarımsağın, şəkər tozunun, ucuzlaşma isə əsasən mal və qoyun ətinin, təzə və dondurulmuş balığın, limonun, portağalın, naringinin, almanın, armudun, heyvanın, narın, xurmanın, kivinin, şabalıdın, kələmin, balqabağın, yerkökünün qiymətlərində müşahidə olunmuşdur. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir. 2020-ci ilin noyabr ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz, əvvəlki ilin noyabr ayına nisbətən 101,2 faiz təşkil etmişdir. 2020-ci ilin noyabr ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,9 faiz, əvvəlki ilin noyabr ayına nisbətən 101,1 faiz təşkil etmişdir. Cari ilin noyabr ayında əvvəlki aya nisbətən ayrı-ayrı xidmət növlərindən daha çox bahalaşma dişlərin müalicəsi, minik avtomobillərinin mühərrik yağının dəyişdirilməsi, bərbərxana və kosmetoloji xidmətlərinin qiymətlərində müşahidə olunmuşdur. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir [16].

Əlverişli şərtlər daxilində yaradılan, fəaliyyəti üçün lazımi iqtisadi mühitin formalaşdırıldığı istehlak məhsulları bazarı ölkənin büdcə gəlirlərinin artırılmasına imkan verir. Burada məhsullar üzrə vergi daxilolmaları artaraq, ölkənin maliyyə imkanlarını genişləndirir [13, s.189]. İstehlak məhsulları üzrə idxal xərclərinin azaldılması hesabına büdcə kəsirinin bu və ya digər dərəcədə azalmasına səbəb olur. Bu hal, milli valyutanın sabitləşməsinə şərait yaratmaqla, faiz normasının azalmasına imkan verir. Nəticədə istehsal müəssisələrinin maliyyə əlyetərliliyi təmin edilir və istehsal imkanlarının genişləndirilməsinə şərait yaranır.

Qeyd edildiyi kimi, istehlak məhsulları bazarının inkişafı öz növbəsində vergi sisteminin təkminləşməsinə, bu və ya digər həcmdə vergi daxilolmalarının həcminin artmasına səbəb olur. Belə ki, optimal vergi siyasətinin həyata keçirilməsi kənd təsərrüfatı hazır məhsullarının satışını həyata keçirən vasitəçilərin maraqları ilə ziddiyyət təşkil etmir, əksinə, ödənilən vergilər dolayı yolla onların maraqlarının təmin edilməsinə şərait yaradır [10, s.85]. Ancaq bu da məlumdur ki, ölkəmizdə kənd təsərrüfatı məhsulu istehsalçıları, torpaq vergisi istisna olmaqla, digər vergilərdən azaddırlar və bu qanunun müddəti 2019-cu ilin yanvar ayının birindən etibarən daha 5 il uzadılmışdır. Bununla yanaşı, istehlak məhsulları bazarında təklif edilən son məhsul üzrə vergiyə cəlb olunan hissə dövlətin fiskal siyasətinin ayrılmaz tərkib hissəsini təşkil edir.

Kənd təsərrüfatı istehlak məhsulları bazarının ölkə iqtisadiyyatına müsbət təsiri bununla bitmir. Bazar sisteminin gələcək inkişafı dövlətin kənd təsərrüfatı sahəsində kreditləşmə məsələsini gündəmə gətirir. Artan istehsal fonunda artıq istehsalçı müəssisə öz gəlirlərini daha yüksək həddə çatdırmaq üçün maliyyə imkanlarını genişləndirməyə maraqlı olur. Güzəştli şərtlərlə qısa və uzun müddətə verilən kreditlər sahibkarların kənd təsərrüfatı məhsulları istehsalı və emalına əlverişli mühit yaradır, burada faydalanan tərəflər qismində isə həm istehsalçı, həm də maliyyə institutları çıxış edir. Günümüzdə kənd təsərrüfatı istehsalçılarına verilən kommersiya xarakterli kreditlərin həcmi ilbəil artmaqdadır. Hazırda bu sahədə ölkədə səmərəli fəaliyyət göstərən maliyyə-kredit bazarı formalaşmış və dövlət kənd təsərrüfatı ilə məşğul olan sahibkarların istehsal imkanlarının genişləndirilməsi məqsədilə maliyyə-kredit siyasətinin mütəmadi olaraq təkmilləşdirilməsinə səy göstərir. İstehsalçıların maliyyə-kredit imkanlarının genişliyi, həm də sahədə dayanıqlı inkişaf məqsədlərinə xidmət edən aqrar sığorta fəaliyyətinin tətbiqini zəruri edir.

Məlumdur ki, istehlak məhsulları bazarının yeni istiqamət üzrə formalaşması onun fəaliyyət dairəsinin genişləndirilməsi, həm də bu sahədə istehsalçıların daim narahatlıq keçirdiyi sığorta sisteminin tətbiqinin zəruriliyi ilə xarakterizə edilir. Kənd təsərrüfatı məhsul istehsalçılarının bazar satış paylarının yüksəlməsi hesabına gəlirlərini artırması, onları istehsal risklərinin idarə edilməsində maraqlı edir. Artıq fəaliyyət göstərdiyi sahə üzrə risklərdən sığortalanan istehsalçı məhsul istehsalı, reallaşdırılması, saxlanılması və emalı kimi xidmətlərin təmin edilməsi məqsədi ilə investisiya etməkdən çəkinmir.

Beləliklə, aqrar sığortanın tətbiqini zəruri edən spesifik xüsusiyyətləri nəzərə alaraq, milli iqtisadiyyatda onun əhəmiyyətini vurğulamaq məqsədi ilə aşağıdakı istiqamətləri qruplaşdırmaq olar:

- ✓ aqrar sektor gündəlik istehlak olunan məhsulların böyük qismini özündə birləşdirir;

- ✓ aqrar sektor sənaye müəssisələri üçün əsas xammal təminedicisi mövqeyində çıxış edir;
- ✓ aqrar sektor ölkəmizin iqtisadi fəal əhalisinin əsas çalışdığı sahə hesab edilir;
- ✓ aqrar sektorda təbiətlə qarşılıqlı əlaqə və asılılıq digər sektorlara nisbətən daha yüksəkdir;
- ✓ aqrar sektorun dəvamlı informasiya vermə xüsusiyyətinin qeyri-mükəmməl təşkili maliyyə-kredit imkanlarından lazımi səviyyədə istifadəyə mane ola bilər.

Qeyd edildiyi kimi, aqrar sektorda sığorta işinin tətbiqini zəruri edən amil, istehsalçıların gəlirlərinin tez-tez dəyişməsi fonunda maliyyə-kredit və sığorta müqavilələrinin bağlanması üzrə üzləşilən problemlərdən qaynaqlanır. Bu isə öz növbəsində maliyyə institutlarının bu sektorda gələcək fəaliyyətini günbəgün daha da zəiflədir. Aqrar sığortanın dövlətin iqtisadi inkişafında rolu və sektorun təbii xüsusiyyətləri nəzərə alınaraq, ölkəmizin aqrar siyasətinin müasir tələbləri ümumiqtisadi siyasətin ayrılmaz tərkib hissəsi hesab edilir [13, s. 402]. Bu siyasət özlüyündə müxtəlif istiqamətləri ehtiva edir və burada kənd təsərrüfatı məhsul istehsalçıları daim dövlətin xüsusi proteksionist siyasəti ilə himayə edilir. Bunun nümunəsi kimi aqrar sığortanın inkişafının bazardakı istehsalçıların investisiya imkanlarının genişlənməsinə səbəb olduğunu qeyd edə bilərik.

Məlumdur ki, istər kənd təsərrüfatı istehlak məhsulları bazarına, istərsə də iqtisadiyyatın digər alt bölmələrinə ayrılan investisiyalar nəticə etibarı ilə hazır məhsul istehsalı həcminin yüksəlməsinə gətirib çıxarır. İnvestisiya milli iqtisadiyyatın sabitləşdirilməsinə, onun inkişaf perspektivinin yüksəldilməsinə əsas verərək, real kapitalın artırılmasına şərait yaradır. Rəqabətə davamlı iqtisadiyyatın formalaşmasına təkan verir. Bu isə öz növbəsində real istehsalın canlanması hesabına milli iqtisadiyyatın diversifikasiyasına şərait yaratmaqla böhranlı vəziyyətlərin aradan qaldırılmasını və milli sərvətin artırılmasını təmin edir.

Odur ki, istehlak məhsulları bazarına ayrılan investisyalar zamanla milli iqtisadiyyatın inkişafını müəyyən edən əsas faktor kimi çıxış edir. İri və orta həcmli istehsalçıların mənfəətinin yüksəldilməsi, sadə və geniş təkrar istehsal prosesinin qurulması üçün vacib əhəmiyyət kəsb edir. Ancaq burada diqqət ediləsi vacib məqam istehsal müəssisəsinin gəlirlilik səviyyəsi ilə kredit faizləri arasındakı balansın qorunub saxlanılmasıdır. Bunun üçün milli iqtisadiyyatda fəaliyyət göstərən maliyyə institutlarının həyata keçirdiyi maliyyə-kredit siyasətinin önəmi yüksəkdir. Odur ki, bazarın elmi əsaslar üzrə fəaliyyətinin təşkilinə diqqət edilməsi vacibdir.

İstehlak məhsulları bazarının ölkənin daxili və xarici siyasəti nəzərə alınmaqla, elmi əsaslarla fəaliyyətinin təşkil edilməsi etibarlı aqrar siyasət tədbirləri həyata keçirilməsi prosesinin sürətlənməsinə səbəb olur. Əminliklə qeyd edə bilərik ki, aqrar sahədə tə-

ləbatın əsas hissəsi əhalinin ərzaq məhsulları, sənayenin isə yeyinti və yüngül sahəsinin kənd təsərrüfatı mənşəli xammalı ilə təchizatı hesabına formalaşır. Bu baxımdan hər iki sahədə tələbatın məhz yerli xammal, istehsal hesabına ödənilməsi ölkə iqtisadiyyatının qarşısında duran əsas başlıca vəzifə hesab edilir. Qeyd edilən sahələrdən emal sənayesinin kənd təsərrüfatı mənşəli xammalla optimal təchizatı bir çox amillərin təsiri altında formalaşır ki, bu amillər içərisində emal sənayesinin sözügedən ölkədəki inkişaf səviyyəsi xüsusilə fərqləndirilir. Yüksək inkişaf səviyyəsinə malik ölkələrdə öncədən müəyyənləşdirilmiş istehsal standartlarına cavab verməyən kənd təsərrüfatı mənşəli xammalın keyfiyyətinin yüksəldilməsi üçün müasir elmi yanaşmalara istinad edilir. Həmçinin alternativ vasitə kimi cari dövrdə kayfiyyətli xammalın idxalı hesabına tələbatı təmin etmək mümkündür. Bu baxımdan, milli iqtisadiyyatın ərzaq təhlükəsizliyinin əlverişli şərtlər daxilində təminatı xarici bazarlarla qarşılıqlı əlaqə və asılılıq şərti daxilində mümkündür.

Qloballaşma prosesinin bütün iqtisadi sahələrdə kəskinləşdiyi belə bir şəraitdə, bazarın fəaliyyətini digər bazarlardan təcrid olunmuş formada təsəvvür etmək mümkün deyil. Bazar öz əmtəə strukturunu zənginləşdirmək, daxili və xarici rəqabətliliyin yüksəldilməsi, əmtəə-pul tədavülü prosesini sürətləndirmək baxımından digər bazarlarla mütəmadi şəkildə qarşılıqlı əlaqə və asılılıqdadır. Burada tarazlığın pozulmasına və onun yenidən bərpa olunmasına təsir edən onlarla amil, məhz qarşılıqlı əlaqələrin təsiri altında aradan qaldırılır. Xüsusi ilə kənd təsərrüfatının mövsümi xarakter daşıması bir çox məhsulların ilin bəzi fəsillərində bol, digər fəsillərində qıt olmasına səbəb olur. Odur ki, kənd təsərrüfatı istehlak məhsulları bazarının digər bazarlarla qarşılıqlı əlaqəsi zəruri olduğu qədər, həm də qaçınılmaz hal kimi qiymətləndirilir. Bazarda tələbatı ödənilməyən bir qrup məhsullar, xüsusilə ilin bəzi fəsillərində yerli istehsalçılar tərəfindən ya az becərilir, ya da yetişdirilməsi mümkün olmur. Belə ki, həmin məhsulların xarici bazarlardan kompensasiya edilməsi artıq hər bir ölkənin üzləşdiyi iqtisadi reallıqdır. İstehlak məhsulları bazarında daxili tələbatdan yüksək həcmdə olan məhsulların ümumi bazar tarazlığının pozulmasına səbəb olduğunu nəzərə alaraq, bu izafiliyin digər bazarlar hesabına aradan qaldırılması həm sözügedən məhsul üzrə qiymətlərin kəskin azalmasının qarışısını alır, həm də digər, xarici bazarlarda yüksək qiymətlərlə satışının reallaşmasına imkan yaradır.

Bundan əlavə, ölkə əhalisinin ilbəil müntəzəm şəkildə sayının artması, müvafiq olaraq onların tələbat tempinin yüksəlməsi istehlak məhsulları bazarında keyfiyyətsiz, qeyri-sağlam, insan həyatı üçün təhlükəli hesab edilən tərkibləri özündə birləşdirə biləcək ərzaq məhsullarının bazarda yer almasına səbəb olur. İstehlak məhsullarına olan tələbatı, yaranan artımı mövcud istehsal resursları hesabına ödəyə bilməyən istehsalçı, yaranan kəskin disparitetliyi alternativ vasitələrdən istifadə etməklə öz maraqları çərçivəsində həll etməyə cəhd edir. Bu isə artan ölkə əhalisi fonunda gələcəkdə ərzaq

təminatı üzrə bir sıra problemlərin yaranmasına səbəb ola bilər. Qida təhlükəsizliyi məsələləri üzrə cavabdeh, onun idarə edilməsi hüquqlarını yerinə yetirən qurumların çoxsaylı çağırışlarına qeyri-adekvat cavabların verilməsi, eləcə də bu sahədə əhalinin maariflənmə dərəcəsinin yetərincə olmaması istehlak məhsulları bazarında bu komponentə xüsusi diqqətin ayrılmasını vacib edir. Bu hal, əsasən, iqtisadi sahədə transformasiya dövrü yaşayan və ya nisbətən zəif iqtisadi inkişaf pilləsində qərarlaşan ölkələrin bir çoxları üçün xarakterikdir. Prosesin kütləvi xarakter daşıması bir çox ölkələri səfərbər hala gətirmiş və bu halın qarşısının alınması məqsədilə ortaq fəaliyyətə sövq etmişdir. Avropa Birliyinin Ərzaq Proqramında istehlak məqsədilə bazarda təklif edilən meyvə-tərəvəz, ət və süd məhsulları ekoloji uyğunluq prinsipləri ilə uzlaşdırılmadığı halda, həmin məhsulların istehsalı və istehlakı qəti şəkildə rədd edilir. Bundan sonrakı mərhələdə isə bazarda ekoloji sabitliyi qorumaq məqsədilə belə halların qarşısının alınması üçün sərt qanunlar tətbiq edilir.

Ölkəmizdə milli iqtisadiyyatın inkişafı məqsədilə 1996-cı ilin ikinci yarısından etibarən başlanan uğurlu iqtisadi islahatlar, istehlak məhsulları bazarının inkişafına onun özünütəminetmə səviyyəsininin yüksəlməsinə şərait yaratmışdır. Milli iqtisadiyyatda bazar iqtisadi münasibətlərinə əsaslanan xüsusi mülkiyyət formasının yaranmasına, onun sürətləndirilməsinə və müxtəlif mülkiyyət münasibətlərinin inkişafına təkan verəcək ardıcıl istiqamətlər müəyyənləşdirilmişdir. Bazarın idarəetmə mexanizminin təkmilləşdirilməsində vacib ünsür kimi çıxış edən iqtisadi islahatlar son illərdə daha geniş vüsət almışdır. Qloballaşan dünya iqtisadiyyatına transformasiya edən daxili bazarın inkişafının davamlılığını təmin etmək üçün islahatların yenilənməsinə ehtiyac duyulur.

Odur ki, dövlətin iqtisadi inkişafında əvəzolunmaz rolu olan istehlak məhsulları bazarının inkişafı məqsədilə onun qanunvercilik bazasının möhkəmləndirilməsinə, bazarda təmərküzləşmə və ixtisaslaşma səviyyəsinə diqqət edilməsi vacibdir [5, s.19]. Bazarın dövlətin iqtisadi inkişafına təsiri haqqında aparılan tədqiqatlar göstərir ki, nisbətən yüksək artım tempinə malik istehsalçılar sahə üzrə təmərküzləşməyə meyilli olsalar da, xırda istehsalçılarda bunun əksini görmək mümkündür. Belə ki, aşağı artım tempinə malik istehsalçılar daha çox dövlətsizləşdirmə mövqeyində çıxış etməyə meyilli olur, vergi yükünün daşınmasında maraqlı olmurlar. Bu isə öz növbəsində kiçik istehsalçılar üzrə iqtisadi münasibətlərin yenidən nəzərdən keçirilməsini zəruri edir. Beləliklə, iqtisadiyyatın ayrı-ayrı sektorlarında və alt sahələrində fərqli iqtisadi mexanizmlərin nəzərə alınması qaçınılmaz olur.

İstehlak məhsulları bazarının dövlətin iqtisadi inkişafındakı rolunu araşdırarkən belə qənaətə gəlirik ki, bazar milli iqtisadiyyatın balanslı inkişafına təkan verməklə, təkcə tarazlığının təmin edilməsinə imkan vermir. O, ölkənin ərzaq təhlükəsizliyinin yüksəldilməsinə, özünütəminat imkanlarının genişləndirilməsinə, davamlı ərzaq balansının formalaşdırılmasına, əhalininin gəlirlik səviyyəsinə uyğun zəruri keyfiyyətdə və

həcmdə məhsulla təminatına imkan verir. Bazar büdcə gəlirlərinin yüksəldilməsinə, bölgü prosesində ədalətliyinə şərait yaradır. Maliyyə-kredit imkalarının genişlənməsi və hüquqi bazanın təkmilləşməsi burada olan boşluqların zamanla aradan qalxmasına təkan verir. Beləliklə, bazar əsas iqtisadi kateqoriya kimi ölkənin iqtisadi inkişafında əvəzsiz rola malikdir.

Beləliklə, kənd təsərrüfatı istehlak məhsulları bazarının inkişaf perspektivlərini tədqiq edərkən, məlum olur ki, əslində bazarın çoxukladlılığı, bazarın tənzimlənməsi zamanı bir çox fərqləndirici cəhətləri ortaya çıxarır. Kənd təsərrüfatı istehlak məhsulları bazarının inkişafı, ölkə daxilində reallaşan ticarət əməliyyatlarına dövlət nəzarətinin hansı səviyyədə həyata keçirilməsindən bilavasitə asılıdır. Yəni yerli sahibkarlıq subyektlərinin, istehsalçıların dəstəklənməsi əsas götürülməklə, yerli bazarın əlverişli şərtlər daxilində himayə olunmasına, sağlam rəqabət mühitinin yaradılmasına və onun davamlılığına nail olunmasına, daxili bazarda istehsal prosesinə ölkəxarici investisiyaların cəlb edilməsinə diqqətin artırılması mühüm əhəmiyyət kəsb edir.

Araşdırmalardan belə nəticə çıxartmaq olar ki, kənd təsərrüfatı istehlak məhsulları bazarının inkişafı üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

- yerli istehsalın mövcud vəziyyətinin qiymətləndirilməsi;
- yeni daxili resurslar hesabına, yerli istehsal imkanlarından istifadə etməklə məcmu istehlakın hansı hissəsinin ödənilməsinin araşdırılması;
- ölkəyə idxal edilən kənd təsərrüfatı istehlak təyinatlı məhsulların növ tərkibi, çeşidliyi nəzərə alınması;
- məhsul dövriyyəsinin ümumi həcmi müəyyənləşdirilməsi;
- milli istehsalın müdafiəsini ön plana çəkməklə xarici ticarət əməliyyatlarının tənzimlənməsi;
- əsas tənzimlənmə alətləri kimi kvotalar, lisenziyalar, subsidiyalar, dempinq və s. kimi iqtisadi tənzimlənmə vasitələrindən istifadə olunması;
- milli istehsalın özünün rəqabətqabiliyətliliyinin yüksəldilməsinin təmin edilməsi.

**Ədəbiyyat**


1. Aqrar islahatın əsasları haqqında Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri, 18 fevral 1995-ci il;
2. Tənzimlənən qiymətlər haqqında Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri, 30 may 2003-cü il;
3. İstehlakçıların hüquqlarının müdafiəsi haqqında Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri, 19 sentyabr 1995-ci il;
4. Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı. Bakı şəhəri, 25 avqust 2008-ci il;
5. Məmmədov E.Y. İstehlak bazarının idarə edilməsi. Dərslik. Bakı: 2019, 204 s.;
6. Azərbaycanda Ticarət. 2020. Statistik məcmuə / tər. ed. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, −Bakı: Rəsmi nəşr, −2020. −180 s.;
7. Abbasov V.H. Aqrar iqtisadiyyat. Ali məktəb tələbələri üçün dərslik. Bakı: 2017, 468 s.;
8. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri. Bakı: 2017, 536s;

9. Qurbanov A.A. Ərzaq kompleksinin modernizasiyası və dayanıqlı inkişaf problemləri. Bakı: 2017, 192 s.;
10. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. (Monoqrafiya). Bakı: 2016, 665 s.;
11. Quliyev E.A. Aqrar iqtisadiyyat. Bakı: 2015. 319 s.;
12. Qasımlı V.Ə. İqtisadi Modernizasiya. Bakı: 2014,311 s.;
13. Salahov V.S. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı: 2004, 504 s.;
14. Rüstəmov R.M. Aqrar sahədə davamlı inkişafın formalaşması məsələləri. Bakı: Azərbaycan Aqrar Elmi, 2006, № 2, 182-186 s.;
15. https://www.agro.gov.az/az;
16. https://eagro.az/;
17. https://www.stat.gov.az/news/source/Press-11_20.pdf\
18.

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ**
**(rüblük elmi və praktik)**

## MÜƏLLİF ÜÇÜN QAYDALAR

1. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifəsi, ad və soyadı, çalışdığı qurum və elektron poçt (e-posta) ünvanı, iş və mobil telefon nömrələri göstərilməlidir.

2. Məqalə xülasə açar söz (ən çox 5 söz), (azərbaycan, ingilis və rus dillərində), giriş, əsas hissə, nəticə, mənbələr, əlavələr, şəkil və cədvəllər daxil olmaqla **10 səhifədən** az olmamalıdır. Elektron ünvanı: **yadulla.hasanli@unec.edu.az**; **elmixeberler2018@gmail.com**

3. Məqalənin xülasəsi **200-250 sözdən** çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən və ya formalaşdırılan metodları, hansı suallara cavab verildiyini və tətbiq dairəsini göstərməli, giriş və nəticə hissəsi kimi yazılmamalıdır.

4. Məqalənin xülasəsi məqalənin məzmumuna uyğun olmalıdır. Xülasə elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

5. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və. s aydın şəkildə qeyd olunmalıdır.

6. Məqalə A4 formatında, **1,5 (bir tam onda beş) intervalla**, **Times New Roman 14 şriftilə** yazılmalı, kənarlarından (soldan 30 mm, sağdan 15 mm, yuxarıdan 25 mm və aşağıdan 20 mm**)** boşluq buraxılmalıdır.

7. Məqalə **azərbaycan, ingilis və rus dillərində** qəbul ediləcəkdir.

8. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

9. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

10. Məqalələr orijinal olmalı və əvvəllər başqa milli və ya beynəlxalq jurnallara və konfranslara təqdim edilməməlidir.

11. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim ediləcəkdir.

12. Məqalənin qəbulu və rədd edilməsi redaksiya heyətinin müzakirəsindən sonra elan ediləcəkdir.

## SCIENCE REVIEWS AZERBAIJAN STATE UNIVERSITY OF ECONOMICS (quarterly scientific and practical)

## NOTES FOR CONTRIBUTORS

1. Articles not published or submitted for publication elsewhere are accepted in Azerbaijani, English and Russian.
2. Articles should be typed in A4 format, **with 1.5 line spacing, font Times New Roman**, of **not less than 10 pages**, with gaps at the edges (left 30 mm, right 15 mm, 25 mm from the top and bottom 20 mm). Articles should be sent official e-mail address of the journal **(yadulla.hasanli@unec.edu.az; elmixeberler2018@gmail.com).**
3. **Article shall not be less than 10 pages**, including: keywords (in Azerbaijani, English and Russian), abstracts (Azeri, English and Russian), record, main part, conclusions, references, applications, graphics and tables.
4. Abstract of the article should be appropriate to its content.
5. The first page should include (i) the title of the article; (ii) the name(s) of the author(s); (iii) institutional affiliation(s) of the author(s); (iv) an abstract of not more than 200-250 words in English (text of abstracts must be consist of sections of "purpose", "design/methodology/approach", "findings", "research limitations/ implications", "practical implycations" and "originality/value"); (v) keywords must not be more than 5 words; (vi) JEL codes. The name, address, e-mail address, phone and fax numbers and academically sphere of interest of the author(s) should be indicated on a separate page.
6. The article should contain links to scientific sources. Provided later in the article references must be numbered not in alphabetical order, and in a sequence that occurs in the text link literature and denoted as [1] or [1, p 119]. If the text is repeated reference to the same literature, the other in the text, this refers literature should be given the previous number. In the list of references should be given priority monographs, etc. the last 5-10 years.
7. Articles recommended or submitted for publication by the editor or one of the specialist members of the Editorial Board after reviewing secret reviewed.
8. Consent or refusal of articles declared after a discussion of the Editorial Board.

## НАУЧНЫЕ ВЕСТИ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВЕННОГО ЭКОНОМИЧЕСКОГО УНИВЕРСИТЕТА

**(квартальный научный и практический)**

## ПРАВИЛА ДЛЯ АВТОРОВ:

1. Статьи принимаются на азербайджанском, английском и русском языках.

2. Статьи должны быть написаны в формате А4, **с интервалом в 1,5**, шрифтом **Times New Roman**, с пропусками по краям (слева 30 мм, справа 15 мм, сверху 25 мм и снизу 20 мм). Электронная почта: **yadulla.hasanli@unec.edu.az; elmixeberler2018@gmail.com**

3. Должны быть указаны: название статьи, автор(ы), ученая степень, должность, структуры, где они работают, электронная почта, номера рабочего и мобильного телефонов автора(ов).

4. **Статья не должна быть меньше 10 страниц**, включая: резюме на (азербайджанском, английском и русском языках), ключевые слова (не более 5 слов на азербайджанском, английском и русском языках), введение, основную часть, выводы, источники, приложения, рисунки и таблицы.

5. Резюме статьи должно быть не более 200-250 слов, показывать цель, значение и место исследования в научной периодике, используемые или формируемые методы, на какие вопросы отвечает и область применения, не должно быть написано, как введение и выводы.

6. Резюме статьи должно соответствовать ее содержанию.

7. В конце научной статьи должны быть четко отмечены научная новизна, практическая значимость, экономическая эффективность и т.д. работы в соответствии с характером научной области статьи.

8. В статье должны быть ссылки на научные источники. Предоставляемый в конце статьи список литературы должен быть пронумерован не в алфавитной последовательности, а в последовательности, в которой встречается в тексте ссылаемая литература и обозначаться как [1] или [1, стр.119]. Если в тексте есть повторная ссылка на одну и ту же литературу, то эта ссылаемая литература должна быть указана предыдущим номером. В списке литературы должно быть отдано предпочтение научным статьям, монографиям и т.д. последних 5-10 лет.

9. Статьи должны быть оригинальны и ранее не представлены в другие национальные или международные журналы.

10. Статьи рекомендуются или представляются к печати редактором или одним из специалистов–членов редакционного совета, после тайного рецензирования рецензирующих.

11. Согласие или отказ в приеме статьи объявляется после ее обсуждения редакционным советом журнала.

**Korrektor: Şəfiqə Zahid qızı Bağırova**
**Texniki redaktor: Arzu Məhəbbət qızı Səfərova**